

## Azərbaycan və Türkmənistan arasında memorandum imzalandı

*Yanvarın 21-də Azərbaycan Respublikası Hökuməti ilə Türkmənistan Hökuməti arasında Xəzər dənizində "Dostluq" yatağının karbohidrogen resurslarının birgə kəşfiyyatı, işlənilməsi və mənimsənilməsi haqqında Anlaşma Memorandumunun imzalanması ilə bağlı Azərbaycan Prezidenti İlham Əliyevlə Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədov arasında videokonfrans formatında görüş keçirilib.*

Səh.3


# UNİKAL

№03 (2041) 22 yanvar 2021-ci il

Qiyməti 40 qəpik

Qurucusu: Asəf Rzayev

www.unikal.org

unikal-1@mail.ru




## Kamaləddin Heydərov ölkədən 28 milyard pul çıxarıb

*Təxminən iki il öncə, 2019-cu ilin dekabrında həmin vaxt Dövlət Gömrük Komitəsinə (DGK) ilyarımdır rəhbərlik edən Səfər Mehdiyev sensasiya sayıla biləcək açıqlama ilə çıxış etmişdi. Xarici Ticarət İştirakçılarının "Gömrük sahəsində islahatlar: "Yaşıl dəhliz" sisteminin tətbiqinin nəticələri və perspektivlər" mövzusunda 2-ci Respublika Forumundakı nitqində Mehdiyev gömrük sistemində tətbiq edilən yeniliklərin maliyyə nəzarətinin gücləndirilməsinə, uçotun düzgün qurulmasına, ticarətin asanlaşdırılmasına, idxal-ixrac əməliyyatlarının həcminin artırılmasına şəriat yaratdığını bildirmiş və bunun nəticəsində son iki ildə (2018-2019) gömrük orqanları tərəfindən əlavə 2 milyard manat vəsaitin dövlət büdcəsinə köçürüldüyünü bəyan etmişdi! Etiraf etmək lazımdır: fantastik rəqəm idi. Üstəlik, nəzərə alanda ki, bu, Azərbaycanda ard-arda iki devalvasiyanın baş verməsindən cəmi iki il sonra yaşanmışdı, həmin rəqəm daha yüksək ola bilərdi.*

Səh.12

Səh.13



## Oliqarxların "qara bazar"dakı dollar oyunu...

## "Rusiya Dağlıq Qarabağda özünü sülhməramlı kimi yox, işğalçı kimi aparır"



*44 günlük müharibə nəticəsində əldə etdiyimiz möhtəşəm qələbə Azərbaycanımızın ərazi bütövlüyünün de-yure bərpasını təmin etsə də, təəssüf ki, "sülhməramlı" adı altında Rusiya qoşunlarının Dağlıq Qarabağa yeridilməsi bütün ərazimizdə süverenliyimizin de-fakto təmin edilməsinə müəyyən...*

Səh.4

## Qarabağı həm dirçəltməli, həm də bu həqiqətləri dünyaya car çəkməliyik!



*Azərbaycan 28 ildir ki, Dağlıq Qarabağ həqiqətlərini, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi zamanı işğalçı dövlətin həmin ərazilərdə törətdiyi vəhşiliklər barədə dünya ictimaiyyətini məlumatlandırır. 2020-ci ildə tariximizə qızıl hərflərlə yazılan 44 günlük Vətən Müharibəsinin şanlı...*

Səh.15

## Rafael Cəbrayılov həbsin bir addımlığında...



*Bir neçə gün əvvəl məlumat yayıldı ki, keçmiş deputat Rafael Cəbrayılov həbs təhlükəsi ilə üzləşib. Bunun isə səbəbi var: Cəbrayılovun borclu olduğu vətəndaşlardan biri bütün məhkəmə instansiyalarında deputata qalib gəlib. Artıq məhkəmə qərarının icrasına start verilib.*

Səh.7

# "Əsgərin işi şou-biznes adamına söz yollamaqdır? Əsgər bekardır?" - Pərvin Abıyeva

***”Kimlərsə gözləyir ki, üzr istəyəcəm? Heç vaxt şəxsi fikrimə görə üzr istəmərəm. Nə vaxt səhv olub, təhqir edərəmsə, üzr də istəyərəm. Demişəm, heç bir qız kasıb oğlana ərə getmək istəməz. Biriniz burada təhqir, söyüş, kasıbları təhqir edən söz çıxarsın. Buna dair bir söz ortaya çıxarana 50 min pul verəcəm”.***



“Unikal” axşam.az-a istinadən bildirir ki, bu sözləri aktrisa Pərvin Abıyeva İnstaqramda canlı yayımda deyib. Sənətçi ”Heç bir qız kasıb oğlana ərə getməz” fikirlərini tənqid edənlərə cavab verib:

”Dediyim sözün arxasındayam. Əlbəttə, heç bir qız istəməz ki, ailə qurduğu oğlan ona kasıb həyat yaşatsın. Pandemiyada ən az 70 ailəyə yardım etdim. Bunu niyə unutdunuz? Götürüb hansısa əsgərə video çəkdirirsiz. Əsgərin işi şou-biznes adamına söz yollamaqdır? Əminəm ki, o əsgərin heç nədən xəbəri yoxdur.

Kasıbçılıq da, pul da görmüşəm. Mən qız başıma kasıb yerdən əziyyətlə bu yerə gəlmişəm. İstəmirəm oğlanlarımız kasıb olsun, kimdənsə mədət umsun. İstəmirəm ki, hansısa oğlan kasıb damğası yesin. Hər bir kişi qazanıb ailəsini saxlamalıdır. Əsgər video çəkir ki, sənin nəslini biz kasıb oğlanlar qoruyuruq. Bu nə deməkdir? Əsgər bekardır bu cür video çəkir? Mənim əmim birinci Qarabağ müharibəsində, əmim oğlu isə indi müharibədə səngərdə sizinlə birlikdə idi. Mənim nəslimdə əsgər gedən, müharibədə iştirak edən yoxdur? Yardım etdiyim zaman kasıbların evini gəzmişəm. Necə yaşadıqlarını görmüşəm. Elə evdə uşaq böyütmək istəyərsiz? O uşağı oxutmaq, gələcək qurmaq lazımdır. Söhbət oturub ondan-bundan pul güdəndən gedir. İnsanlar var ki, kasıb evdə, şam işığında oxuyub həkim olur, ailəsinə çörək verir”.

Pərvin rəfiqələrinin bu günlərdə ona dəstək olmadığını deyib: ”Bu günə kimi sıfırdan qaldırdığım rəfiqələrim danışsın. Hanı mənim dəstək olduğum rəfiqələr. Demişəm, siz iş qurun, paylaşıb sizi qaldıracam. Mənim hesabıma biznes quran, işini qaldıran, maşın, ev alanlar... Hanı, niyə biriniz çıxıb məni paylaşmırsınız? ”Pərvin, filan paylaşımı et” deyəndə, yaxşı qız oluram?”.

# Oksana Natavanla bağlı suala: "Ondan danışıb əhvalımı pozmayaq"



***Rəqqasə Oksana Rəsulova ”Onda başladıq” proqramında bitən dostluqlarından danışıb.***

“Unikal” axşam.az-a istinadən bildirir ki, aparıcı Samir Bayramlı sənətçiyə ”Dostluğa önəm verən birisən. Kiminləsə dostluğun pozulur. Buna görə cəhd edirsən?” sözlərinə belə reaksiya verib: ”O qatar getdi, ondan danışıb əhvalımı pozmayaq. Mövzu bağlandı. Layiq adam üçün cəhd edərəm. Çünki onlar da cəhd edirlər. Elə adamlar da var ki, cəhd etsələr də, etməsələr də dəyişməyəcəklər. Sənə neqativ enerji bağışlayanlardan uzaq olmaq lazımdır”.

Oksana daha sonra müğənni Natavan Həbibi ilə münasibətlərinin bitməsinə aydınlıq gətirib: ”Dost xəyanəti, paxıllıq münasibəti bitirər. Əgər mən sənə görə çoxundan imtina edib, səni necə var elə qəbul etmişəmsə, bizə aid məsələni mənlə məsləhətləşməlisən. Sənə görə həmin adamla üz-göz olmuşam. Amma gedib özün danışıb, münasibət qurursan. Onunla barışırsan, mən kənarda qalıram. Ondan sonra o adamın (prodüser Tarix Əliyev - red.) verilişinə getdim və aydınlıq gətirdi”.

# "İnstaqramda sənət adamlarını söyən elə müğənnilərdir" - Nadir Qafarzadə

***Müğənni Nadir Qafarzadə sosial şəbəkədə sənət adamlarına yazdıqları mənfi rəylərdən bəhs ediblər.***



“Unikal” axşam.az-a istinadən bildirir ki, sənətçi bu haqda Kazım Sübhanın ”MTV özəl” proqramında danışıb. O bildirib ki, ifaçılara mənfi şərh yazan elə müğənnilərin özləridir:

”Çox vaxt status yazıram, sonra düşünürəm ki, anlamayacaqlar. Başlayıram silməyə. Sosial şəbəkədə oturanlar bekar insanlardır. Onların əksəriyyəti isə müğənnilərdir. Hərəsi əlinə bir telefon alır, bir neçə profil açırlar. Bir müğənnidən yazı olanda, başlayır on profildən fərqli sözlər yazır. Bunu edənlər öz içimizdəkilərdir. Üzümüzə deyə bilmədiklərini orada yazır, zəhərlərini tökürlər”.

# "20 gün evdən çıxmadım" - Covid-19-a yoluxan Sevda

***Əməkdar artist Sevda Ələkbərzadə koronovirus infeksiyasına yoluxmasından danışıb.***

Müğənni ”MTV Azərbaycan”a açıqlamasında evdə müalicə aldığını bildirib: ”Virusa yoluxdum, evdə müalicə aldım və sağaldım. Hərə bu xəstəliyi bir cür keçirir. Hələ də virusa inanmayan insanlar var, onları anlamıram. Əvvəldən bu virusun varlığına inandım. İki həftə yox, 20 gün evdən küçəyə çıxmadım”.

Sevda toya gedən müğənnilərdən də söz açıb: ”Mənim gəlir yerim toy deyil deyə, o qədər də çətin durum deyil. Onsuz alışqan deyildim toylara getməyə. Elə el şənlikləri var ki, konsert kimidir. Səviyyəli səhnə qurulur. Müğənninin toya getməsi normaldır. Hər zaman demişəm ki, toyu səhnəyə gətirmək lazım deyil. Hər kəs toya gedir və ailəsini dolandırır. Bunu qınamaq lazım deyil”.



# DTX tərəfindən saxlanılan icra başçısından xəbər var

***Dövlət Təhlükəsizliyi Xidməti (DTX) əməkdaşları tərəfindən saxlanılan icra başçısının məhkəmə prosesi təxirə salınıb.***

Unikal.org-un əldə etdiyi məlumata görə, Yevlax şəhər İcra Hakimiyyətinin sabiq başçısı Qoca Səmədov Şəki Ağır Cinayətlər Məhkəməsində təyin olunan bugünkü hazırlıq iclası təxirə düşüb. Buna səbəb Ali Məhkəmənin qərarı ilə, koronavirus (COVİD-19) infeksiyasının yayılması təhlükəsinin qarşısının alınması məqsədi ilə məhkəmə proseslərinin yanvarın 25-dək təxirə salınmasıdır.
Qeyd edək ki, DTX-nın yaydığı xəbərə görə, həyata keçirilən tədbirlər nəticəsində 2019-cu ilin noyabr ayınadək Yevlax Şəhər İcra Hakimiyyətinin başçısı vəzifəsində işləmiş Qoca Səmədovun bu müddət ərzində vətəndaşların hüquqlarına, cəmiyyətin və dövlətin qanunla qorunan mənafelərinə zərər vuran çoxsaylı qanun pozuntularına yol verməsinə əsaslı şübhələr müəyyən edilib. Belə ki, dövlət qayğısı olaraq işsiz vətəndaşların ictimai işlərə cəlb edilib aylıq qazanc əldə edə bilmələri üçün dövlət büdcəsi hesabına ayrılan külli miqdarda əmək haqları ələ keçirilib, o cümlədən Yevlax şəhərində "Yaşıllaşdırma və işıqlandırma müəssisəsi"nin fəaliyyətinə və digər abadlıq, təmir-tikinti işlərinə cəlb edildiyi rəsmiləşdirilən 133 nəfər heç bir işə cəlb edilmədən və əmək haqqı almadan, adlarına açılmış əmək haqqı kartları Qoca Səmədovun tabeçiliyində fəaliyyət göstərən şəxslər tərəfindən ətraf rayonlardakı bankomatlarda nağdlaşdırılaraq, Qoca Səmədova şəxsən təqdim edilməklə 236.000 manat dövlət vəsaiti mənimsənilməsinə əsaslı şübhələr müəyyən edilib.
Habelə, 2017-2019-cu illərdə dövlət büdcəsindən ayrılmış vəsaitlər hesabına Yevlax şəhərində abadlıq, təmir-tikinti işlərini həyata keçirmək adı ilə müxtəlif şirkətlərin hesablarına köçürülmüş 616.000 manat vəsait heç bir iş görülmədən Qoca Səmədovun tapşırığı ilə şirkət rəhbərləri tərəfindən nağdlaşdırılaraq ona şəxsən qaytarılmaqla təkrarən mənimsənilib. Şəhər icra hakimiyyəti və əlaqəli strukturlarda çalışan işçilərin əmək haqqından təsis etdiyi Şəhid ailələrinə və müharibə əlillərinə yardım Fonduna könüllü ödəmə adı altında hər ay faiz tutulub, yığılan pulun hər ay 8.000 manatadək olan əsas hissəsi Qoca Səmədova şəxsən təqdim edilib. Qoca Səmədov vəzifə səlahiyyətlərindən sui-istifadə edərək İcra Hakimiyyətinin Memarlıq və Tikinti şöbəsinin baş memarı Xalid Əhmədovun vasitəçiliyi ilə vətəndaşlar tərəfindən müxtəlif təyinatlı tikintilərin aparılması üçün zəruri olan sənədləşmə işləri və digər əsaslarla ümumilikdə 44 fiziki və hüquqi şəxsdən müxtəlif məbləğlərdə külli miqdarda təkrarən rüşvət tələb edərək almasına əsaslı şübhələr müəyyən edilib.
Qoca Səmədov və başqaları vəzifə səlahiyyətlərindən sui-istifadə etmə, külli miqdarda təkrar rüşvət alma, mənimsəmə və digər faktlara görə Dövlət Təhlükəsizliyi Xidmətində Cinayət Məcəlləsinin müvafiq maddələri ilə başlanılmış cinayət işləri üzrə şübhəli şəxs qismində saxlanılıb.

***Famil Fərhadoğlu***

# Kəmaləddin Heydərov ölkədən 28 milyard pul çıxarıb

## 1996-2018-ci illərdə gömrük orqanı tərəfindən dövlət büdcəsindən yayındırılan böyük pulların qaranlıq taleyi gün işığına çıxır

***Təxminən iki il öncə, 2019-cu ilin dekabrında həmin vaxt Dövlət Gömrük Komitəsinə (DGK) ilyarımdır rəhbərlik edən Səfər Mehdiyev sensasiya sayıla biləcək açıqlama ilə çıxış etmişdi.***

Xarici Ticarət İştirakçılarının "Gömrük sahəsində islahatlar: "Yaşıl dəhliz" sisteminin tətbiqinin nəticələri və perspektivlər" mövzusunda 2-ci Respublika Forumundakı nitqində Mehdiyev gömrük sistemində tətbiq edilən yeniliklərin maliyyə nəzarətinin gücləndirilməsinə, uçotun düzgün qurulmasına, ticarətin asanlaşdırılmasına, idxal-ixrac əməliyyatlarının həcminin artırılmasına şərait yaratdığını bildirmiş və bunun nəticəsində son iki ildə (2018-2019) gömrük orqanları tərəfindən əlavə 2 milyard manat vəsaitin dövlət büdcəsinə köçürüldüyünü bəyan etmişdi!

Etiraf etmək lazımdır: fantastik rəqəm idi. Üstəlik, nəzərə alanda ki, bu, Azərbaycanda ard-arda iki devalvasiyanın baş verməsindən cəmi iki il sonra yaşanmışdı, həmin rəqəm



daha yüksək ola bilərdi. Buradan eyni zamanda belə aydın olurdu ki, uzun illər boyunca gömrük sistemində milyardlarla manat vəsait qeyri-şəffaflığın, "kölgə iqtisadiyyatı"nın qurbanı olub və kimlərincə cibinə axıb! Bu məqamda isə diqqətlərin hazırda Fövqəladə Hallar naziri Kəmaləddin Heydərova yönəlməsi təbiidir. 1995-ci ilin yanvar ayında Dövlət Gömrük Komitəsinin sədri təyin olunan Heydərov bu vəzifədə 11 il çalışıb; 2006-cı ildə indiki vəzifəsinə təyinat almasına baxmayaraq adıçəkilən Komitə üzərində nəzarətini daha 13 il qoruyub saxlayıb. 2018-ci ildə DGK-yə Səfər Mehdiyevin sədr təyin olunmasından sonra "fövqəlnazir"in gömrük sistemi üzərindəki 23 illik hökmranlığı da tarixə qovuşub. Məhz bundan sonra isə yuxarıda haqqında bəhs etdiyimiz fakt - hər il milyardlarla manatın dövlət xəzinəsindən yayındırıldığı aydın olub. Həmin proses 2006-2015-ci illərdə Heydərovun gömrük orqanındakı yaxın adamlarından biri vasitəsilə, 2015-2018-ci illərdə isə o zaman Bakı Baş Gömrük İdarəsinin adı bir qayda olaraq korrupsiya qalmaqallarında hallanan keçmiş rəisi Vüsal Novruzov tərəfindən həyata keçirilib.

Təkcə 2018-2019-cu illərdə gömrük orqanları tərəfindən əlavə 2



milyard manat vəsaitin dövlət büdcəsinə köçürüldüyünü nəzərə alsaq, kiçik bir hesablama nəticəsində aydın olacaq ki, K.Heydərov Dövlət Gömrük Komitəsinə rəhbərlik və nəzarət etdiyi illər ərzində təxminən 28 milyard manata yiyələnib. Həmin vəsaitin ölkədən elə gömrük orqanı vasitəsilə, "TIR"larla çıxarıldığı güman edilir. Bu pullar əsasən Rusiyaya, oradan isə İngiltərəyə, Almaniyaya, Birləşmiş Ərəb Əmirliklərinə, İsrailə və s. yönəldilib. "Fövqəlnazir"in ölkədən kənarda, adı çəkilən dövlətlər başda olmaqla, dünyanın bir çox nöqtəsində ailə biznesi mövcuddur. Elə gömrük sistemindən mənimsənilən milyardlar da bu biznes vasitəsilə "yuyulub". Sözügedən pullar Heydərovun oğullarının yaratdığı ofşor şirkətlərə, Londondan tutmuş Dubayacan dünyanın bir sıra böyük şəhərlərində alınan daşınmaz əmlaka, mülklərə yönəldilib. Unutmayaq ki, yalnız yerli yox, xarici mənbələr də "fövqəlnazir" barədə ofşor zonalarda on milyardlarla manatlıq sərvətin sahibi kimi göstərilir. Ən maraqlısı isə adıçəkilən nazirin belə iddiaları təsdiqləməsə də, hələ ki, şəxsən yalanlamaması, ya da buna ehtiyac görməməsidir.

Ölkədən çıxarılan həmin on milyardların indiki şəraitdə əhəmiyyəti xüsusilə qabarıq nəzərə çarpır. Azərbaycan 44 günlük Vətən müharibəsində əldə etdiyi tarixi Zəfər sayəsində işğaldakı torpaqlarımız düşməndən azad edilib. Qarşıda yeni mərhələ - azad edilən torpaqlarda bərpa və yenidənqurma işlərinin aparılması dayanır. Razılaşaq ki, haqqında danışılan təxminən 28 milyard manatla bu işlərin böyük hissəsini həyata keçirmək mümkündür.

Mövzu ilə bağlı danışdığımız tanınmış iqtisadçı Samir Əliyevin də fikrincə, əslində indiyədək baş verənlər, eləcə də, mətbuatda yazılanlar deməyə əsas verir ki, ölkədən böyük vəsaitlər çıxarılıb."Kütləvi informasiya vasitələrində bugünədək dəfələrlə qeyd edilib ki, gəmilərlə, yaxud təyyarələrlə çemodanlarda iri məbləğdə pullar xaricə daşınıb. Reallıq ondan ibarətdir ki, adi vətəndaş və sahibkar ölkədən pul çıxara bilmir. Əvvəllər belə idi ki, pul köçürmək istəyən şəxs xüsusi yerlərə gedirdi və orada köçürməni həyata keçirirdi. Pul köçürmə zamanı da digər ölkələrin müəyyən şərtləri var idi. Bunun vergisi çox aşağı idi. Ona görə də insanlar banklar vasitəsilə yox, bu cür qeyri-rəsmi yolla pul köçürmələrini həyata keçirirdilər. Belə pul köçürmələrinin isə ölkə iqtisadiyyatına böyük ziyanı dəyir. Çünki Mərkəzi Bank həmin köçürmələri izləyə bilmir. Nəticədə ölkədən nə qədər valyuta çıxdığını müəyyən etmək mümkün olmur".

S.Əliyev ölkədən böyük pulların çıxarılmasının başqa bir maraqlı sxemindən də danışıb: "Bu sxem ondan ibarətdir ki, məsələn, məhsul ixrac olunur, lakin pul ölkəyə gəlmir. Pul xaricdə başqa istiqamətdə yönəlir. Hətta bir müddət əvvəl belə bir qərar verilmişdi ki, həmin vəsaitlər qısa müddətdən sonra Azərbaycana qayıtmalıdır. İxrac olunan məhsulun pulu xarici bankda çox qala bilməz. Bunun üçün öncə 180 gün vaxt verdilər, sonra isə həmin vaxtı uzatdılar. Bunun özü də ölkədən böyük pulların xaricə daşınmasının bir yolu idi. Ümumiyyətlə, Azərbaycandan kənara valyuta axını müxtəlif formalarda həyata keçirilir, nəticədə isə bundan kimlərsə qazanır, lakin ölkə iqtisadiyyatı itirir...".

Fikrimizcə, əlavə şərhə ehtiyac yoxdur.

***Elvin Rüstəmov***

# Oliqarxların "qara bazar"dakı dollar oyunu...

## Banklarda süni dollar qıtlığı yaradaraq qeyri-qanuni yollarla xarici valyuta satan şəbəkələrin arxasında kimlər var?

***Dolların manata nisbətdə bahalaşması ilə bağlı narahatlıq yaranıb. Artıq bir sıra banklarda dollar satışı ilə bağlı məhdudiyyətlər var və bu səbəbdən də qara bazarda aktivləşmə başlayıb. Yanvar ayının 19-dan "qara bazar"da dolların məzənnəsində nisbi bahalaşma olub. Unikal.org-un fərdi qaydada valyuta satışı ilə məşğul olan şəxslərdən əldə edilən məlumatlara əsasən səhər saatlarında dolların alışı 1.6800 manatdan 1.69 manata, satışı isə 1.70 manatdan 1.72.5 manata yüksəlib. Qeyd edək ki, Mərkəzi Bankın kommersiya banklarına göndərdiyi rəsmi məktuba əsasən, dolların məzənnəsi 1.7 manatdır.***

Dünən isə dolların taleyi ilə bağlı fərqli bir situasiyanın yarandığı ortaya çıxıb. Belə ki, ABŞ Federal Ehtiyat Sisteminin (FED) keçmiş rəhbəri və hazırda Maliyyə naziri postuna namizədliyi irəli sürülən Canet Yellenin fəaliyyəti dolların uzunmüddətli enişinə səbəb ola bilər. Bunu "Bloomberg"ə müsahibə verən mütəxəssislər bildirib. Nəşrin bildirdiyinə görə, Canet Yellen dövlət büdcəsi hesabına milli iqtisadiyyatın likvidliyini artırmağı planlaşdırır. "National Australia Bank Ltd"nin mütəxəssisi Rodriqo Ketril bildirib ki, FED-in keçmiş rəhbərinin mövqeyi yeni hökümətin dolların düşməsinin qarşısını almaq üçün planlarının olmamasını göstərir. "Australia & New Zealand Banking Group Ltd" şirkətinin mütəxəssisi Hun Qoyun fikrincə, Amerika hökuməti dolların zəifləməsinə etiraz etmir. Yellenin milli valyutanın bazar məzənnəsinə riayət etmək niyyətində olduğu xəbərləri də buna işarə edir. Yeni prezident Co Baydenin and içməsi belə dollara kömək etməyib. Gün ərzində Foreks bazarlarında dollar ucuzlaşıb - Avro/Dollar məzənnəsi 1,212 səviyyəsinə düşüb.

"Unikal"a açıqlama verən iqtisadı ekspert Samir Əliyev manatın taleyi və dolların bahalaşması ilə bağlı deyib ki, bu istiqamətdə əsas psixoloji amillər var. Onun fikrincə, insanların narahat olması üçün iqtisadi əsaslar olmasa da, psixoloji əsaslar var: "Yəni, bizdə Sovet hakimiyyəti dövründən qalan belə bir fikir var ki, il dəyişəndə ya qiymətlər qalxmalıdır, ya da devalivasiya olmalıdır. İl bitdiyinə görə, insanlarda belə bir narahatlıq var ki, gələn ildən devalivasiya ola bilər. Bu məsələdə sosial şəbəkələrin da mühüm rolu var. Məsələn, bir nəfər banka getdikdə dollar tapa bilmir və dərhal bu barədə "facebook"da yazır". Vətəndaşların sosial şəbəkədə bu cür fikirlər yazması insanlar arasında ajeotaja səbəb olur".

İqisadçı onu da nəzərə çatdırıb ki, neftin qiymətinin də ucuzlaşması insanlarda müəyyən narahatlığa gətirib çıxarır. Onun sözlərinə görə, bu baxımdan insanları anlamaq olar, çünki insanların maliyyə savadlılığı aşağıdır: "Həm də insanların borcu deyil ki, analitika oxusunlar, ekspert olsunlar. Bunun üçün müəyyən institutlar olmalıdır ki, onlar bu boşluğu doldursunlar. Biz Maliyyə Nazirliyinin və Mərkəzin Bankın verdiyi qərarlara diqqətlə yanaşmalıyıq. Maliyyə Nazirliyi öz saytında hər ilin sonunda dövlət büdcəsi ilə bağlı məlumatları yerləşdirir. Orada analitik hesabatlar dərc edir və öz gözləntilərini qeyd edir. Bundan başqa, ilin son günləri Mərkəzi Bank növbəti ilin pul-kredit vəziyyəti ilə bağlı bəyanat verir. Biz hər iki sənədi oxuduqdan sonra müəyyən edə bilərik ki, hökümət növbəti ildə nə etmək istəyir. Mən də bu sənədlərlə tanış oldum və müşahidə etdim ki, burada manatın məzənnəsinə qarşı çox həssaslıq var. Eyni zamanda bu sənədlər hökümətin manatın məzənnəsinin qorunması istiqamətində diqqətli olacağına dair işarə verir. Bütün analiz onun üzərində qurulub ki, manatın məzənnəsinin dəyişməsi ölkə iqtisadiyyatında problem yarada bilər. Yəni, bu, hökümətin mesajıdır. Biz il ərzində buna nail ola biləcəyik və yaxud da bilməyəcik, bu, artıq başqa məsələdir. Bu gün görünən odur ki, hökümət milli valyutanın dəyişməsində maraqlı deyil. Biz də ekspert olaraq vurğulamışıq ki, manatın məzənnəsinin dəyişməsinin mənfi təsirləri çox ola bilər. Yəni oradan olan zərər qazancdan çox ola bilər. Nəticədə hökümət də, əhali də, sahibkarlar da zərərə düşə bilər. Bunun qazancı müəyyən qədər büdcə kəsrini örtmək ola bilər".



Məlumat üçün bidirək ki, "qara bazar"da dollar satışının artması burada maraqlı tərəflərin olduğunu göstərir. Yəni, banklarda süni şəkildə dollar qıtlığı yaradılır, bu və ya digər yollarla dollar qara bazara ötürülür və bununla da milyonlar qazanılır.

Ekspert onu da qeyd edib ki, manatın məzənnəsinin aşağı düşməsinin ixraca da xeyri yoxdur, çünki neftdən və meyvə-tərəvəzdən başqa çox məhsul ixrac edə bilmirik: "Ümumiyyətlə, manatın məzənnəsinin dəyişməsi dedikdə, burada birmənalı olaraq manatın ucuzlaşmasından söhbət gedir. Yəni, dolların ucuzlaşması mümkün deyil. Mənim fikrimcə, manatın məzənnəsinin dəyişməsi hökümətin gündəmində yoxdur. Ona görə də mənim fikrim ondan ibarətdir ki, ən azı birinci rübdə hökümət gözləmə mövqeyində qalacaq. Əgər fövqəladə bir hadisə baş verməsə, mənim fikrimcə hökümət bu il məzənnəni dəyişməyəcək.

Qara bazarın mövcudluğu isə özü bir təhlükədir, çünki banklar dolları daha baha qiymətə satmaq üçün oraya yönəldir, əhali də dolları bankda əziyyət çəkməmək üçün qara bazardan alır. Mən hər bir halda süni qiymət artımı və bu kimi digər terminləri xoşlamıram. Əgər bazar iqtisadiyyatıdırsa, belə hallar olmalıdır. Misal üçün, biz nəyə görə deməliyik ki, yumurtanın qiyməti mütləq 15 qəpik olmalıdır? Bəlkə mən yumurtanı xaricdən gətirmişəm, bəlkə mən toyuğa filtrlizə edilmiş su içirdirəm və yumurtanı 50 qəpiyə satmaq istəyirəm. Bu o deməkdir ki, mən süni qiymət artımı yaradıram? Bu, düzgün olmayan yanaşmadır".

S.Əliyev onu da xüsusi vurğulayıb ki, "qara bazar" mütləq aradan qalxmalıdır, amma bu inzibati yolla alınmayacaq: "Bunun ən yaxşı yolu iqtisadi yoldur. Elə şərait yaradırsan ki, insanlar banka gedəndə dollar tapa bilirlər. Onda əhali nəyə görə qara bazara keçməlidir? Dollar məsələsinin əsas amili manatın məzənnəsinin tənzimlənməsidir. Yəni, manatın məzənnəsini bazar yox, Mərkəzi Bank tənzimləyir və o manatın məzənnəsinin dəyişməsi üçün müəyyən addımlar atır. Misal üçün, dolların xaricə köçürülməsini, əhaliyə satılmasını məhdudlaşdırır. Mənim yadımdadır ki, karantinin sərt vaxtlarında, yəni mart-aprel aylarında idxal şirkətlərinə qadağa qoyulmuşdu. Yalnız ərzaq və dərman preparatlarının gətirilməsinə icazə verilirdi. Bu halda məzənnənin dəyişməməsi üçün Mərkəzi Bank bütün vasitələrdən istifadə etməyə məcburdur, amma bizim bazar da belədir ki, guya üzən məzənnəyə keçmişik da, lakin Mərkəzi Bank özü də etiraf edir ki, üzən məzənnəyə hələ ki, keçməmişik. Əvvəla üzən məzənnə Azərbaycanda mümkün deyil və eyni zamanda məsləhət deyil. Üzən məzənnəyə keçsək, bu bitkoinə dönər. Bir gün qalxar, ertəsi gün düşər. Bütün markoiqtisadi tarazlıq pozular, sahibkarlıq darmadağın olar, əhalinin sosial vəziyyəti pisləşər. Ona görə də, yaxşı olardı ki üzən məzənnəyə keçək, lakin Azərbaycan iqtisadiyyatı buna imkan vermir. Ən yaxşı variant isə inzibatidir. İnzibatinin də belə fəsadları var. Məzənnəni saxlamaq üçün məcbursan ki, məhdudlaşdırıcı addımlar atasan. Belə addımlar atıldıqda da bu qara bazarın yaranmasına və insanların əziyyət çəkməsinə səbəb olur. Ya sən, məzənnəni saxlamalısan, belə olan halda da insanlar əziyyət çəkir, ya da məzənnəni buraxmalısan, bu halda isə qiymətlər qalxır və insanlar yenidən əziyyət çəkir. Bu cür seçimlər qara bazarın yaranmasına gətirib çıxarır".

***Z.Məmmədli***

# Türkiyədə üzərinə "Qarabağ Azərbaycandır" yazılmış pul buraxıldı

***Türkiyədə üzərinə "Qarabağ Azərbaycandır" yazılmış xatirə sikkəsi tədavülə buraxılıb.***

"Unikal" xəbər verir ki, gümüş pulun bir üzündə Azərbaycanın Zəfər rəmzi hesab olunan xarı bülbül simvolu, digər üzündə isə Azərbaycan xəritəsi, bayrağı, ay-ulduz və gerbi əks olunub.

Gümüş sikkənin üzərində həmçinin Ağdam məscidi və Şuşa qalası da təsvir olunub.

50 manat dəyərində olan gümüş pul kolleksionerlərin istifadəsi üçün artıq satışa təqdim edilib.

# Şəhidlərin ailələrinə əməkhaqqının bir hissəsi dövlət tərəfindən ödənilacək

***Şəhidlərin ailə üzvlərinin əməkhaqqının bir hissəsi dövlət tərəfindən ödəniləcək.***

"Unikal" xəbər verir ki, bu sosial iş yerlərində mümkün olacaq.

Məsələ "Məşğulluq haqqında" qanuna dəyişiklik edilməsində öz əksini tapıb.

Mövcud olan hazırkı qanuna görə, sosial iş yerlərinin təşkili zamanı əlilliyi olan şəxslər, o cümlədən sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlara, gənclərə, cəzaçəkmə yerlərindən azad edilmiş şəxslərə və bir ildən artıq işsiz kimi qeydiyyatda olan şəxslərə üstünlük verilir. Layihəyə əsasən, sosial iş yerlərinin təşkili zamanı şəhid ailəsi üzvlərinə də üstünlük veriləcək.

Qeyd edək ki, "Məşğulluq haqqında" qanuna əsasən, sosial iş yerlərində işçilərin əməkhaqqının bir hissəsinin müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən maliyyələşdirilməsi qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.

# Baş nazirdən prokurorluq işçiləri ilə bağlı QƏRAR

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Prokurorluq orqanlarında xidmət yerinin dəyişdirilməsi ilə əlaqədar yaşayış yeri olmayan və bu səbəbdən kirayə götürülmüş mənzildə yaşayan prokurorluq işçilərinə pul kompensasiyasının məbləği və verilməsi Qaydası"nın təsdiq edilməsi haqqında" 2011-ci il 12 iyul tarixli 112 nömrəli qərarında dəyişiklik edilib.***

Unikal.org xəbər verir ki, Baş nazir Əli Əsədov bununla bağlı qərar imzalayıb.

Qərarda edilən dəyişikliyə əsasən, "Prokurorluq orqanlarında xidmət yerinin dəyişdirilməsi ilə əlaqədar yaşayış yeri olmayan və bu səbəbdən kirayə götürülmüş mənzildə yaşayan prokurorluq işçilərinə pul kompensasiyasının məbləği və verilməsi Qaydası"na aşağıdakı məzmunda 2-1-ci hissə əlavə edilib:

"2-1. İşçiyə onun hər bir ailə üzvünə görə bu Qaydanın 2-ci hissəsində göstərilən müvafiq kompensasiyaların 50 faizi məbləğində əlavə pul kompensasiyası ödənilir.".

3. 3.2-ci bəndə "ərazidə onun" sözlərindən sonra "və yetkinlik yaşına çatmış ailə üzvlərinin" sözləri əlavə edilsin.

"3.5. prokurorluq işçisinin ailə üzvlərinin şəxsiyyət vəsiqəsinin, 16 yaşına çatmamış uşaqlarının doğum haqqında şəhadətnamələrinin və ailə üzvlərinə aid olması barədə digər sənədlərin notariat qaydasında təsdiq edilmiş surəti.".

Daha bir əlavəyə görə, prokurorluq işçisinin ailə tərkibində dəyişiklik baş verdikdə o, bu barədə rəhbərliyə məruzə etməli və pul kompensasiyasının verilməsi ilə bağlı müvafiq sənədləri təqdim etməlidir.

# AŞPA-nın qış sessiyası başlayır: "Bu dəfə qalib xalq kimi çıxış edəcəyik"

***Avropa Şurası Parlament Assambleyasının (AŞPA) qış sessiyası 25-28 yanvar 2021-ci il tarixlərində hibrid formatda (birbaşa və onlayn iştirak) keçiriləcək.***



Azərbaycanın AŞPA-dakı nümayəndə heyətinin rəhbəri Səməd Seyidov bildirib ki, Azərbaycan nümayəndə heyəti qış sessiyasına qatılacaq: "Hələ ki AŞPA-nın qış sessiyasına onlayn qatılmağı planlaşdırırıq".

Səməd Seyidovun sözlərinə görə, gündəlikdə birbaşa Azərbaycanla bağlı məsələ yoxdur: "Bu heç də o demək deyil ki, AŞPA-nın qış sessiyasında Azərbaycan məsələsi müzakirə olunmayacaq. Azərbaycan məsələsi müzakirə olunmasa belə, bu məsələni gündəmdə saxlayacağıq. Bu dəfə əsas mövzumuz Qarabağa qayıdış, humanitar məsələlər, ermənilərin azərbaycanlılara qarşı törətdiyi cinayətlər olacaq. Bu dəfə qalib xalq kimi çıxış edəcəyik".

Qış sessiyası zamanı Avropa Şurası baş katibinin müavini, assambleyanın sədri, Yunanıstan və İsveçrə üzrə Avropa İnsan Haqları Məhkəməsinə hakimlər seçiləcək. Bu seçkilər fərdi elektron səsvermə yolu ilə keçiriləcək. Bundan əlavə, Almaniyanın Avropa Şurası Nazirlər Komitəsindəki sədrliyi çərçivəsində Almaniyanın xarici işlər naziri Hayko Maas Assambleyada çıxış edəcək və iştirakçıların suallarını cavablandıracaq. Sessiyada həmçinin COVID-19 peyvəndi də müzakirə olunacaq.

# Azərbaycanda bu şəxslərin əmək haqqları artdı

***2020-ci ilin yanvar-noyabr aylarında ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin orta aylıq nominal əməkhaqqı 2019-cu ilin müvafiq dövrünə nisbətən 12,9 faiz artaraq 703,5 manat təşkil edib.***

Dövlət Statistika Komitəsindən (DSK) Unikal.org-a verilən məlumata görə, əməkhaqqı neft-qaz sektorunda 3331,6 manat, qeyri neft-qaz sektorunda 646,9 manat olub.

Dövlət müəssisələrində çalışan işçilərin əməkhaqları 623,9 manat, özəl müəssisələrdə isə 803,0 manat təşkil edib.

Mədənçıxarma sənayesində (3 267,4 manat) , maliyyə və sığorta fəaliyyəti (1717,1 manat) , peşə, elmi və texniki fəaliyyət (1 178,8 manat), informasiya və rabitə (1071,7 manat) , eləcə də nəqliyyat və anbar təsərrüfatı sahələrində (878,8 manat) orta aylıq nominal əməkhaqqı ölkə üzrə orta göstəricidən yüksək olub.

İlkin məlumatlara görə, 2020-ci ildə ölkə əhalisinin gəlirləri əvvəlki ilə nisbətən nominal ifadədə 1,8 faiz azalaraq 55726,1 milyon manat təşkil edib. Əhalinin hər nəfərinə düşən gəlirlər 5587,6 manat və ya ayda orta hesabla 465,6 manat olub.



Bütün icbari və könüllü ödənişlər edildikdən sonra əhalinin sərəncamında 50689,6 milyon manatlıq vəsait qalıb.

***Hüseyn***

# Vətən Müharibəsində həlak olmuş 2858 nəfərin şəxsiyyəti tam müəyyən edilib



***Dövlət Təhlükəsizliyi Xidmətinin və Daxili İşlər Nazirliyinin müvafiq qurumlarının köməyindən istifadə edilməklə döyüş əməliyyatlarında həlak olmuş şəxslərin qısa müddət ərzində şəxsiyyətlərinin müəyyən olunaraq aidiyyəti üzrə təhvil verilməsi üçün zəruri tədbirlərin görülməsi təmin edilib.***

"Unikal"ın məlumatına görə, bunu kollegiya iclasında hesabat məruzəsi ilə çıxış edən Baş prokurorun müavini-Azərbaycan Respublikasının Hərbi prokuroru, ədliyyə general-leytenantı Xanlar Vəliyev bildirib.

O qeyd edib ki, hərbi prokurorluq orqanlarının əməkdaşları tərəfindən təxirəsalınmaz istintaq hərəkətləri, çoxsaylı ekspertizalar, zərurət olduqda məhkəmə-genetik ekspertizası keçirilməklə, hazıradək həlak olmuş 2858 şəxsin şəxsiyyətinin tam müəyyən edilərək ailələrinə təhvil verilməsi təmin olunub.

***Famil***

# Novruz bayramınadək əfv sərəncamı verilə bilər

***Azərbaycanda siyasi məhbus olmasa da, bəzi beynəlxalq təşkilatlar bu barədə məlumatlar yayır. Bu qəbuldən olan bəzi şəxslərin əfv edilməsi məsələsini də gündəmə gətirirlər.***

Milli Məclisin İnsan hüquqları komitəsinin sədr müavini Tahir Kərimli Modern.az-a açıqlamasında bildirib ki, siyasi məhbus anlayışı dövlət səviyyəsində qəbul edilmir:

"44 günlük Qarabağ müharibəsində qalib gəlmişik. Uzun müddətdir ki, amnistiya aktı qəbul etmirik. Düşünürəm ki, ciddi amnistiya aktı və əfv qərarı qəbul etməliyik ki, bu, daha əhatəli olsun. Biz dövlət olaraq siyasi məhbus anlayışını qəbul etmirik. Bəzi beynəlxalq təşkilatlar və müxalifət nümayəndələri siyasi məhbus anlayışını qəbul edir. Onun tərəfdarıyam ki, ölkəmizdə böyük amnistiya aktı və əfv prosesi getsin, məhbuslar ya azadlığa buraxılsınlar ya da cəzaları yüngülləşsin. Hesab edirəm ki, dövlətin böyüklüyünü göstərmək lazımdır".

Tahir Kərimli parlamentdə əfvlə bağlı gözlənilən dinləmələrdən də söz açıb: "Arzu edək ki, Novruz bayramına qədər əfv sərəncamı verilsin. Parlamentdə marta qədər dinləmələr keçirmək olar".

Qeyd edək ki, Milli Məclisin İnsan hüquqları komitəsinin 2021-ci il yaz sessiyasının iş planına 18 iyun - Milli insan hüquqları gününə həsr olunmuş ictimai dinləmə daxildir.

# Hərbi Prokurorluğun 19 işçisi cəzalandırılıb

***Ötən il xidməti fəaliyyətində yol verdikləri nöqsanlara və pozuntulara görə 19 hərbi prokurorluq işçisi intizam məsuliyyətinə cəlb olunub.***

"Unikal"ın məlumatına görə, bunu kollegiya iclasında hesabat məruzəsi ilə çıxış edən Baş prokurorun müavini-Azərbaycan Respublikasının Hərbi prokuroru, ədliyyə general-leytenantı Xanlar Vəliyev bildirib.

X.Vəliyev deyib ki, onlardan 1-i prokurorluq orqanlarından xaric edilib:

"1-i aşağı vəzifəyə keçirilib, 2-si vəzifədən azad olunub, 4-nə "şiddətli töhmət", 11-nə isə "töhmət" elan edilib".

# Bu tarixdən məktəblilərin qış tətili başlayır

***Fiziki-tərbiyə fənni üzrə şagirdlərlə qiymətləndirmə prosesi müsahibə şəklində müzakirə edilərək keçirilə bilər.***



"Unikal" xəbər verir ki, bunu Təhsil Nazirliyinin Ümumi təhsildə məzmun, tədris və qiymətləndirmə şöbəsinin müdiri Vəfa Yaqublu "Xüsusi karantin rejimi dövründə məktəbdaxili qiymətləndirmə" mövzusunda danışarkən deyib. Şöbə müdirinin sözlərinə görə, yanvarın 27-də məktəblilərin qış tətili başlayır: "Fevralın 1-dən isə yarımillik başlayır. Yanvarın 27-nə qədər hansı gün qiymətləndirilmə keçiriləcəksə qiymətləndirmə tarixləri elə həmin gün üçün də yazılacaq".

Baş redaktor:
Zaur Əhməd

"Turanbank" ASC Binəqədi filialı.
h/h AZ74TURA41040011963500110944
M/h AZ26NAB01350100000000027944
Kod: 50462
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5N
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və "Futbol+" servis mətbəəsində çap olunmuşdur

Sifariş 252.
Tiraj:2500

# Azərbaycan və Türkmənistan arasında memorandum imzalandı



***Yanvarın 21-də Azərbaycan Respublikası Hökuməti ilə Türkmənistan Hökuməti arasında Xəzər dənizində “Dostluq” yatağının karbohidrogen resurslarının birgə kəşfiyyatı, işlənilməsi və mənimsənilməsi haqqında Anlaşma Memorandumunun imzalanması ilə bağlı Azərbaycan Prezidenti İlham Əliyevlə Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədov arasında videokonfrans formatında görüş keçirilib.***

Türkmənistan və Azərbaycan prezidentləri görüşdə çıxış etdilər.

**Prezident Qurbanqulu Berdiməhəmmədovun çıxışı:**

-Hörmətli İlham Heydər oğlu, ilk növbədə, Sizi salamlamaq və bu görüşdə iştirak etdiyinizə görə təşəkkürümü bildirmək istərdim.

Məlum olduğu kimi, 2020-ci ilin mart ayında mənim Bakıya rəsmi səfərim zamanı Sizinlə birlikdə Xəzər dənizində energetika sahəsində ikitərəfli əməkdaşlıq imkanlarını ətraflı müzakirə və təhlil etdik. Nəticədə Xəzərdə iri karbohidrogen resursları yataqlarından birində birgə iş barədə razılaşma əldə edildi. Həm də vurğulandı ki, həmin fəaliyyətin əsas prinsipləri həmrəylik, qarşılıqlı hörmət və dəstək olacaq. Buna görə də həmin yatağı “Dostluq” adlandırmaq barədə bizim ümumi qərarımız dərin rəmzi məna daşıyır. Şübhə yoxdur ki, yuxarıda qeyd etdiyim razılaşmalar, qəbul olunmuş qərarlar bizim münasibətlərimizin, dövlətlərimizin tarixinə həqiqi mehriban qonşuluğun, məsuliyyətin və uzaqgörənliyin, hüquq bərabərliyinin və bir-birinin mənafelərini nəzərə almağın parlaq nümunəsi kimi daxil olacaq. Onlar, əlbəttə, Türkmənistan və Azərbaycan xalqları, həmçinin bizim dövlətlərimiz arasında dostluğu və qardaşlığı daha da möhkəmlədəcək.

Şübhəsiz ki, Memorandumun imzalanması Xəzərdə Türkmənistan ilə Azərbaycanın energetika sahəsində əməkdaşlığında prinsipcə yeni mərhələ deməkdir. Möhkəm beynəlxalq hüquqi bazaya əsaslanan birgə iş üçün yeni imkanlar açılır, bizim regiona sistemli və uzunmüddətli əsasda iri xarici investisiyalar axını üçün əlavə ciddi stimullar yaranır, ölkələrimizin milli iqtisadiyyatlarının inkişafına və dinamik artımına, yeni, yeni iş yerlərinin yaradılmasına, insanların həyat səviyyəsinin və keyfiyyətinin yüksəldilməsinə güclü təkan verilir. Fürsətdən istifadə edib iki ölkənin mütəxəssislərinə və ekspertlərinə, həmçinin məhz bu sənədin hazırlanmasına töhfə verənlərin hamısına dərin minnətdarlığımı bildirmək istəyirəm.

Hörmətli İlham Heydər oğlu, bu gün Türkmənistan ilə Azərbaycan Respublikası arasında münasibətlər ardıcıl və dinamik inkişaf edir. Biz beynəlxalq arenada ümumi sülhün, sabitliyin və təhlükəsizliyin möhkəmlənməsinin tərəfdarları kimi uğurla əməkdaşlıq edirik. Bizim ölkələr qlobal gündəliyin prinsipial əhəmiyyətli mövzusu olan enerji təhlükəsizliyi, beynəlxalq enerji axınlarının konfiqurasiyası barədə təsəvvürlər və bütövlükdə dünya energetikasının arxitekturası haqqında eyni fikirdədirlər. Burada iki dövlətin beynəlxalq təşkilatlarda da fəal və səmərəli qarşılıqlı fəaliyyətini xüsusi qeyd etmək lazımdır. Türkmənistan onun beynəlxalq təşəbbüslərinin daim dəstəklənməsinə və Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyasının qətnamələrinin Türkmənistan tərəfindən irəli sürülmüş bir sıra layihələrinin həmmüəllifi kimi Azərbaycana təşəkkürünü bildirir. Öz növbəmdə mən də Türkmənistanın Azərbaycanın beynəlxalq qurumlarda irəli sürdüyü təşəbbüsləri və təklifləri dəstəkləməyə hazır olduğunu təsdiq edirəm. Bu kontekstdə Azərbaycan Respublikasının Qoşulmama Hərəkatında parlaq sədrliyini qeyd etmək istərdim. Bu, Azərbaycanın və onun rəhbərliyinin yüksək nüfuzunu təsdiq etdi. 2019-cu ilin oktyabr ayında Qoşulmama Hərəkatının uğurla keçirilmiş Zirvə görüşünün gedişində Türkmənistan ədalətli və şəffaf prinsiplərə, enerji mənbələrindən, onların çatdırılması vasitələrindən bərabərhüquqlu istifadəyə, həm istehsalçıların, həm də enerji resurslarını nəql edənlərin və istehlakçıların maraqlarının nəzərə alınmasına və tanınmasına əsaslanan qlobal enerji təhlükəsizliyi sisteminin formalaşmasında qoşulmayan dövlətlərin fəal iştirakının tərəfdarı kimi çıxış edib.

Diqqətinizə görə təşəkkür edirəm. İmzalama mərasiminin hörmətli iştirakçıları, icazə verin, çıxış üçün sözü dərin hörmətlə Zati-aliləri, Azərbaycan Respublikasının Prezidenti İlham Heydər oğlu Əliyevə verim. Buyurun, qardaş.

**Prezident İlham Əliyevin çıxışı:**

- Çox sağ ol, qardaş. Hörmətli cənab Prezident, hörmətli Qurbanqulu Məlikquluyeviç. Sizi görməyimə çox şadam. Təəssüf edirəm ki, bu gün qardaş Türkmənistanda keçirilən mərasimdə iştirak edə bilmədim, lakin aydındır ki, pandemiya səbəbindən bu, hələ mümkün deyil. Bununla belə, bu gün biz videokonfrans formatında yenidən görüşmək, mühüm məsələləri müzakirə etmək, bizim qardaşlıq, dostluq münasibətlərinin xarakterini və ruhunu əks etdirən əlamətdar sənədin imzalanmasında iştirak etmək imkanına malikik. Qəti əminəm ki, ölkələrimiz arasında bütün səviyyələrdə, ilk növbədə, Prezidentlər səviyyəsində sıx siyasi qarşılıqlı fəaliyyət olmasaydı, bugünkü sənədin imzalanması mümkün olmazdı.

Hörmətli Qurbanqulu Məlikquluyeviç, Sizinlə birlikdə səy göstərmişik ki, ölkələrimizin müvafiq strukturları məhz Prezidentlərin onlara göstərdiyi kimi - əməkdaşlıq, dostluq, qarşılıqlı dəstək və qarşılıqlı maraqların düzgün başa düşülməsi ruhunda işləsinlər. Ona görə də mən bugünkü sənədi tarixi sənəd adlandırardım, çünki Azərbaycan və Türkmənistan ilk dəfə olaraq Xəzər dənizindəki yatağın mənimsənilməsi üzrə birgə işə başlayır və bu yataq, həmin yataqdakı iş ölkələrimizi və xalqlarımızı daha da yaxınlaşdıracaq, həm Türkmənistan, həm də Azərbaycan xalqlarına xeyir gətirəcək.

Son illərdə ölkələrimiz arasında münasibətlər çox müsbət dinamikaya malikdir. Ali səviyyədə qarşılıqlı səfərlərimizin xronologiyasına nəzər salmaq kifayətdir. Son 3 ildə Türkmənistan və Azərbaycan prezidentlərinin 5 qarşılıqlı səfəri olub. Bu səfərlər çərçivəsində 50-dən çox sənəd imzalanıb. Müqayisə üçün deyim ki, bizim qarşılıqlı münasibətlərimizin bütün tarixi ərzində 100-dən çox sənəd imzalanıb, onların yarısı son 3 ildə imzalanıb. Ən sevindirici hal ondan ibarətdir ki, bütün bu sənədlər, o cümlədən enerji sahəsində əməkdaşlığa dair əldə etdiyimiz razılaşmalar yerinə yetirilir. Bugünkü imzalama Xəzərin karbohidrogen resurslarının mənimsənilməsində yeni səhifə açır. Bu layihə ölkələrimizin, habelə qonşularımızın enerji təhlükəsizliyinin möhkəmlənməsinə şərait yaradacaq. Bu layihə ixrac üçün böyük imkanlar açır, ona görə də xalqlarımızın rifahının yüksəlməsinə şərait yaradacaq.

İkitərəfli qarşılıqlı fəaliyyət məsələlərinə də toxunmaq istərdim. Siz bu barədə danışdınız. Mən Sizin sözlərinizi tamamilə dəstəkləyirəm ki, biz beynəlxalq strukturlarda bir-birimizi fəal dəstəkləyirik. Fürsətdən istifadə edib Sizi və bütün qardaş türkmən xalqını keçən il qeyd etdiyiniz Türkmənistanın neytrallığının yubileyi münasibətilə təbrik etmək istərdim. Bir daha qeyd etməliyəm ki, Azərbaycan BMT Baş Assambleyasının Türkmənistanın əbədi neytrallığı barədə Qətnaməsinin həmmüəllifi olub. Qoşulmama Hərəkatının sədri kimi Azərbaycanın fəaliyyətini qiymətləndirdiyinizə görə də Sizə təşəkkürümü bildirirəm. Sədrlik çərçivəsində bizim təşəbbüsləri, xüsusən Qoşulmama Hərəkatının Zirvə görüşünün, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Sammitinin, həmçinin BMT Baş Assambleyasının koronavirusa qarşı mübarizə məsələləri üzrə xüsusi sessiyasının keçirilməsi təşəbbüslərini dəstəklədiyinizə görə Sizə təşəkkürümü bildirirəm. Belə qarşılıqlı dəstək bizim münasibətlərimizin ruhunu və xarakterini əks etdirir. Əminəm ki, biz milli maraqlarımızın təmin edilməsi üçün gələcəkdə də beynəlxalq arenada fəal qarşılıqlı əlaqə saxlayacağıq.

Hörmətli Qurbanqulu Məlikquluyeviç, nəqliyyat sahəsində əməkdaşlığımızı Siz artıq qeyd etdiniz. Bu əməkdaşlıq həm bizim ölkələr, həm də qonşularımız üçün böyük perspektivlər açır. Türkmənistan və Azərbaycan nəqliyyat infrastrukturunun, məhz sıx qarşılıqlı əlaqəli şəkildə işləyən və bizim ərazilərimizdən keçməklə yüklərin tranzitini təmin edən, habelə Azərbaycan ilə Türkmənistan arasında əmtəə dövriyyəsi imkanlarını artıran müasir beynəlxalq dəniz limanları yaradılması layihələrini bir növ sinxronlaşdırıblar. Əminəm ki, ölkələrimiz arasında nəqliyyat-logistika sahəsində əməkdaşlıq bizim regionda yaranmış yeni şərait və yeni nəqliyyat yollarının açılması imkanları nəzərə alınmaqla daha yüksək səviyyəyə çatacaq. Düşünürəm ki, bu, bizim bütün tərəfdaşlarımız və qonşularımız üçün əlavə imkanlar yaradacaq.

Türkmənistanın nəqliyyat-logistika potensialının möhkəmlənməsi işində Sizin şəxsi xidmətlərinizi xüsusi qeyd etmək istərdim. Ona görə ki, tranzitlə bağlı məsələlərdə qonşu ölkələrlə qarşılıqlı fəaliyyət olmasa, nəticə əldə etmək mümkün deyil. Bu gün bizim nəqliyyat-logistika infrastrukturunun yüksək səviyyəsini qeyd etməyimiz Türkmənistanın və Azərbaycanın bu sahədə məqsədyönlü fəaliyyətinə dəlalət edir. Bu, bizim regionda və hətta bu regiondan uzaqda - Avrasiya məkanında yerləşən bütün ölkələr üçün çox böyük imkanlar yaradır. Ona görə ki, nəqliyyat sferası da enerji sferası kimi, ölkələri birləşdirir. Bir daha demək istəyirəm, bu gün bizim bu Memorandumu imzalamağımız əlamətdar hadisədir, onun müsbət nəticələri olacaq.

Sizin dediyiniz regional əməkdaşlıq məsələsinə də toxunmaq istərdim. Azərbaycan, Türkmənistan və Türkiyə arasında, həmçinin Azərbaycan, Əfqanıstan və Türkmənistan arasında üçtərəfli əməkdaşlıq formatı artıq mövcuddur. Bu əməkdaşlıq konkret nəticəyə, biznes fəaliyyəti, iri infrastruktur layihələrinin reallaşdırılması üçün daha əlverişli şərait yaradılmasına yönəlib.

Hörmətli Qurbanqulu Məlikquluyeviç, əlbəttə, Sizin müdrik rəhbərliyinizlə Türkmənistanın durmadan inkişaf etməsini xüsusi qeyd etmək istərdim. Siz öz ölkənizi inamla inkişaf, sosial həyatın ən mühüm məsələlərinin həlli, dövlətinizin sərhədləri ilə məhdudlaşmayan infrastruktur layihələrinin həyata keçirilməsi yolu ilə irəli aparırsınız. Həmhüdud dövlətlərdə də Sizin investisiya siyasətiniz barədə bilirəm. Bunsuz Lapis-Lazuli layihəsini bu gün reallaşdırmaq mümkün olmazdı. Mən bilmirəm, bəlkə də çoxları bilmir ki, bu gün Əfqanıstandan yüklərin Türkmənistana, Azərbaycana və daha sonra digər ölkələrə çatdırılmasını təmin edən dəmir yolu məhz Türkmənistanın qonşu Əfqanıstanda investisiyalara dair müdrik siyasəti nəticəsində inşa edilib. Buna görə də bu gün qeyd etmək istərdim ki, məhz region ölkələri ilə əməkdaşlığa bizim ümumi yanaşmalarımız və həm bizim üçün, həm də qonşularımız üçün vacib məsələlərin həlli tamamilə yeni reallıqlar yaradır.

Siz qeyd etdiyiniz kimi, Xəzər mehriban qonşuluq dənizi, əməkdaşlıq dənizidir. Əminəm ki, Xəzər ölkələrimiz arasında təbii sərhəd olduğuna baxmayaraq, bundan sonra da ölkələrimizi və xalqlarımızı birləşdirəcək. Fürsətdən istifadə edib Sizdən xahiş etmək istərdim ki, qardaş Türkmənistan xalqına ən xoş arzularımı, firavanlıq, inkişaf, sülh və rifah diləklərimi çatdırasınız.

Diqqətinizə görə sağ olun.

Prezident Qurbanqulu Berdiməhəmmədov: Məzmunlu çıxışınıza, Türkmənistanın və onun xalqına ünvanlanan xoş sözlərinizə görə Sizə təşəkkür edirəm. İndi isə biz Sizin razılığınızla, Türkmənistan ilə Azərbaycan Respublikası arasında mühüm tarixi sənədin imzalanması mərasiminə başlayırıq.

***

Azərbaycan Respublikası Hökuməti ilə Türkmənistan Hökuməti arasında Xəzər dənizində “Dostluq” yatağının karbohidrogen resurslarının birgə kəşfiyyatı, işlənilməsi və mənimsənilməsi haqqında Anlaşma Memorandumu imzalandı.

Sənədi Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov və Türkmənistan Nazirlər Kabinetinin sədr müavini, xarici işlər naziri Rəşid Meredov imzaladılar.



## Milli Məclisin qanunvericilik işlər planı - Siyahı

***Azərbaycan Milli Məclisinin 2021-ci il yaz sessiyasının qanunvericilik işlər planı müəyyənləşib.***

Məlumata görə, sessiyada yeni qanun layihələrinə baxılması, habelə əvvəlki sessiyadan qalan layihələrin növbəti oxunuşlarda müzakirəsi nəzərdə tutulur.

Bunlar "Daxili Qoşunlar haqqında", "Hərbi qulluqçuların statusu haqqında", "Lombardlar haqqında", "Ali təhsil haqqında", "Qida təhlükəsizliyi haqqında", "Reproduktiv sağlamlıq haqqında", "Kinematoqrafiya haqqında", "Azərbaycan muğam sənətinin qorunması və inkişaf etdirilməsi haqqında", "Yazılı abidələr haqqında", "Diaspora haqqında", "Turizm haqqında" və s. qanun layihələridir.

Sessiya ərzində həmçinin Azərbaycan Prezidentinin, Milli Məclis deputatlarının, Ali Məhkəmənin, Baş Prokurorluğun, Naxçıvan Ali Məclisinin qanunvericilik təşəbbüsü qaydasında təqdim etdikləri və edəcəkləri qanun layihələrinə də baxılması planlaşdırılır.

Qeyd edək ki, parlamentin yaz sessiyası fevralın 1-də başlayacaq.

## Hesablayıcı komissiyasının tərkibi açıqlandı

***Milli Məclisin Hesablayıcı komissiyasının tərkibi məlum olub.***

"Report"un əldə etdiyi məlumata görə, bununla bağlı "Azərbaycan Respublikası Milli Məclisi Hesablayıcı komissiyasının yenidən təşkil edilməsi haqqında" məsələ parlamentin fevralın 1-də keçiriləcək plenar iclasında müzakirə ediləcək.

Qərarla Milli Məclisin Hesablayıcı komissiyası aşağıdakı tərkibdə yaradılacaq:

1. Allahverdiyev Elnur Marat oğlu,
2. Əliyev Rauf Asif oğlu,
3. Hacıyev Emin Məcid oğlu,
4. Quliyev Eldar Allahyar oğlu,
5. Hüseynova Sevinc Əmirəhməd qızı,
6. Vəliyeva Sədaqət Süleyman qızı,
7. Zabelin Mixail Yuryeviç.

## Əhəd Abıyev onu sektor müdiri təyin etdi

***Daşkəsən Rayon İcra Hakimiyyətində yeni təyinat olub.***

Unikal.org-un əldə etdiyi məlumata görə, bununla bağlı RİH-nin başçısı Əhəd Abıyev əmr imzalayıb. Əmrə əsasən, Əsəd Yusifov Daşkəsən RİH-nin İnformasiya təminatı və təhlil sektorunun müdiri təyin olunub.

***Murad İbrahimli***

# "Rusiya Dağlıq Qarabağda özünü sülhməramlı kimi yox, işğalçı kimi aparır"

## Partiya sədri: "...erməni silahlı qüvvələrinin ərazimizdə hələ də qalmasına nəinki göz yumur, hətta onlara himayəçilik edir"

***44 günlük müharibə nəticəsində əldə etdiyimiz möhtəşəm qələbə Azərbaycanımızın ərazi bütövlüyünün de-yure bərpasını təmin etsə də, təəssüf ki, "sülhməramlı" adı altında Rusiya qoşunlarının Dağlıq Qarabağa yeridilməsi bütün ərazimizdə suverenliyimizin de-fakto təmin edilməsinə müəyyən maneələr yaratmaqdadır. Bu barədə fikirlərini "Unikal" qəzetilə bölüşən Təkamül Partiyasının sədri Teyyub Qənioğlu mühüm məqamlara toxunub.***

***-Teyyub bəy, Vətən Müharibəsi başa çatsa da, savaşı yekun sənədi ilə bağlı narazılıqlar hələ də davam etməkdədir. Sizcə, cəmiyyət nədən bütövlükdə bu razılaşmanı qəbul etmir?***

- Biz, Azərbaycan dövləti və xalqı olaraq bu maneələrin müvəqqəti olduğuna qəti inanırıq və heç kəsin buna şübhəsi olmasın: "Təbiidir ki, "sülhməramlı" adı altında Rusiya qoşunlarının Dağlıq Qarabağa soxulmasına həm xalqımızın, həm də, əsasən müxalifət partiyalarının münasibəti birmənalı deyildir, əksəriyyət onları işğalçı hesab edir və haqlıdırlar da. "Sülhməramlılara" bu cür münasibətin formalaşması birbaşa onların davranışı ilə bağlıdır. Məlumdur ki, 10 noyabr 2020-ci ildə Dağlıq Qarabağ münaqişəsi zonasında atəşin və bütün hərbi əməliyyatların tam dayayandırılması ilə bağlı Azərbaycan Prezidenti İlham Əliyev, Ermənistanın Baş Naziri Nikol Paşinyan və RF Prezidenti Vladimir Putin tərəfindən üçtərəfli bəyanat imzalanıb. Bəyanatın 3-cü bəndinə uyğun olaraq Dağlıq Qarabağda təmas xətti və Laçın dəhlizi boyu RF-nın sülhməramlı adı altında 1960 sayda odlu silahlı hərbi qulluqçuların və müəyyən sayda hərbi texnikanın yerləşdirilməsi nəzərdə tultulub.

***-Bəyanatda həmçinin erməni silahlı qüvvələrinin regiondan çıxarılması, daxili məcburi köçkünlərin və qaçqınların Dağlıq Qarabağ ərazisinə və ətraf rayonlara BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının Ofisinin nəzarəti altında geri qayıtmaları nəzərdə tutulur. Ancaq reallıqda bunların heç birinə əməl olunmur...***

-Təəssüf ki, belədir. Reallıq ondan ibarətdir ki, Rusiya Dağlıq Qarabağda özünü sülhməramlı kimi yox, işğalçı kimi aparır. Bu əraziyə, müxtəlif adlar altında bəyanatda nəzərdə tutulduğundan xeyli çox silahlı qüvvələr cəlb edib; erməni silahlı qüvvələrinin ərazimizdə hələ də qalmasına nəinki göz yumur, hətta onlara himayəçilik edir; "fəaliyyətlərini" qondarma "arsax"ın cinayətkar "rəhbərləri" ilə koordinasiya edir; Azərbaycanın etirazlarına baxmayaraq Ermənistan yetkililərinin, xaricilərin Dağlıq Qarabağa səyahətlərini təşkil edir; ərazidə məskunlaşmış və zorla Ermənistandan gətirdikləri ermənilərə humanitar yardımlar göstərir, onlar üçün evlər tikir, məktəblər, xəstəxanalar açır; sülhməramlıların mandatına uyğun olmayaraq zəbt etdiyi ərazilərdə təmirbərpa işlərini həyata keçirir; Azərbaycanın qəti etirazına baxmayaraq ermənilərə hansısa status veriləcəyini vəd edir və s.

Bunlarla yanaşı, "sülhməramlılar" azərbaycanlı köçkünlərin Dağlıq Qarabağa qayıdışına hər vəclə mane olurlar, yerləşdikləri ərazilərdə Azərbaycanın mülki hakimiyyətinin qurulmasına imkan vermirlər, bu əraziləri Azərbaycanın yox, Rusiyanın və qondarma "arsax"-ın "qanunları" ilə idarə edirlər; Azərbaycanın qəti etirazına baxmayaraq, S.Lavrovun timsalında,"Ermənistan yetkililərinin Dağlıq Qarabağa maneəsiz gəlişində heç bir maneə olmadığını" bəyan edirlər və s. Bütün bunlar nəzərə alınaraq Rusiya "sülhməramlılarının" Dağlıq Qarabağa yeridilməsinə imkan verən 10 noyabr 2020-ci il bəyanatının imzalanmasının Azərbaycanın mənafelərinə tam uyğun olmadığını qeyd edənlər ilk baxışda haqlıdırlar. Ancaq bir şeyi untmamaq lazım: ən düzgün qərar reallığa uyğun qəbul edilən qərardır.



***-Bəs əslində məsələnin real üzü nədir?***

-Reallıq isə bunlardan ibarətdir: Rusiya xarici siyasətində həmişə beynəlxalq hüquqa deyil, gücə arxalanan təcavüzkar dövlətdir; hələ də, keçmiş sovet respublikalarını öz təsir dairəsində saxlamağa çalışır, buna "xoşluqla" nail olmadıqda gücdən istifadə edir.

***-Bir çoxları 10 noyabr 2020-ci il bəyanatının imzalandığı real şəraitin nəzərə alınmasının da zəruri olduğunu iddia edirlər. Sizcə, bu mövqedə olanlar haqlıdırlarmı?***

-Bir fakt var ki, Azərbaycan ordusu sürətlə irəliləyib torpaqlarımızı erməni faşistlərindən azad edirdi. KİV-də yayılan məlumatlara görə Rusiya Prezidenti V.Putin dəfələrlə Azərbaycan ordusunun irəliləməsinə mane olmağa cəhd etmişdi və bununla əlaqədar həm Azərbaycan, həm də Ermənistan rəhbərlərinə müraciət etmişdi. Amma müxtəlif səbəblərdən buna nail olmadığını, Azərbaycanın Dağlıq Qarabağı tamamilə azad etmək ərəfəsində olduğunu, bunun nəticəsində Cənubi Qafqazdan birdəfəlik çıxmaq perspektivi ilə qarşılaşacağını gördükdə, yenə də, "ənənəsinə" sadiq qalaraq təcavüz üçün bəhanəyə əl atdı, Ermənistan ərazisində Rusiyaya məxsus "sülhməramlı kontingenti müşayət edən"(?) helikopterin vurulmasını təşkil etdi! Bununla da, Azərbaycan ərazisinə təcavüz etmək üçün "tutarlı fakt" əldə etmiş oldu. 10 noyabr 2020-ci il bəyanatının imzalanmasının yanlış olduğunu, müharibənin tam qələbəyədək davam etdirilməli olduğunu düşünənlərə müraciət edirəm: bu "tutarlı faktdan" istifadə edərək Rusiya Azərbaycana təcavüz etsəydi və biz bu təcavüzkar dövlətlə hərbi qarşıqarşıya girsəydik, Dağlıq Qarabağın hazırda "sülhməramlıların" nəzarəti altında olan ərazilərimizi azad edə biləcəkdikmi? Belə olduqda müharibə dalğası ölkəmizin digər əraizilərinə yayılmayacaqdımı? Deyə bilərlər ki, Tükiyə amili var və buna görə Rusiya Azərbaycana təcavüz etməyə cəsarət etməzdi. Biz türk qardaşlarımızın Vətən Müharibəsində Azərbaycan verdiyi hərtərəfli dəstəyi yüksək qiymətləndirirk. Bu dəstək olmasaydı, bizim qələbəmiz də çox çətin olardı. Amma Türkiyənin imkanlarını, onun Rusiya ilə yeni bir cəbhədə qarşı-qarşıya gəlməkdə maraqlı olmadığını da nəzərdən qaçırmaq olmaz, hərçənd qəti əminik ki, bu baş versəydi, Türkiyə seyirçi qalmayacaqdı. Amma "nəyin nə vaxt edilməli olduğunu yaxşı bilən" Azərbaycan Prezidenti İlham Əliyevin qeyd edilən bəyanatı imzalamamışdan əvvəl Türkiyə Prezidenti cənab Ərdoğanla məsləhətləşdiyinə əminəm. Və hesab edirəm ki, regionda yaranmış real vəziyyət nəzərə alınaraq 10 noyabr bəyanatının imzalanması yeganə düzgün qərar idi və bu Azərbaycanımızı daha böyük bəlalardan hifz etmiş oldu. Bir məsələni də nəzərdən qaçırmaq olmaz.

***-Bəzi müxalifət nümayəndələri deyir ki, bu cür anlaşmaya gedilməsə idi, Azərbaycana hər hansı təhlükə ola bilməzdi...***

-Hesab edək ki, 10 noyabr bəyanatı imzalanmasaydı və biz dana çox canlı qüvvə itkisinə məruz qalaraq Dağlıq Qarabağımızı təmamilə erməni vandallarından azad edə, onları birdəfəlik və həmişəlik torpaqlarımızdan qova bilərdik. Amma bu zaman həm bizim üçün , həm də Türkiyəmiz üçün çox vacib olan Naxçıvan dəhlizi də olmayacaqdı, bizim, bizə qarşı münasibətdə Ermənistandan "heç də geri qalmayan" İrandan asılılığımız da davam edəcəkdi. Torpaqlarımızın çox hissəsinin azad edilməsi və Naxçıvan dəhlizinin açılması Azərbaycanın əldə etdiyi ən böyük naliyyətdir. O ki, qaldı "sülhməramlıların" yerləşdiyi əraizilərimizə-biz onları da mütləq azad edəcəyik! Sadəcə bunun müəyyən zamana eytiyacı var.

***Z.Məmmədli***

# Hacıbala Abutalıbovun başı qalmaqallı qohumları...

## Keçmiş merin yaxın adamlarından şikayətlər səngimək bilmir

***Yola salmaq üzrə olduğumuz həftə Bakı Şəhər İcra Hakimiyyətinin sabiq başçısı, Baş nazirin keçmiş müavini Hacıbala Abutalıbovun bir qohumu ilə bağlı mediada şikayət xarakterli məlumat yayıldı. Hacıbala Abutalıbovun qohumu yolkəsənliklə ittiham edilirdi.***



Bakı şəhəri, Yasamal rayonu, M.A.Əliyev küçəsi, 45 saylı binada yaşayan Natiq Ələsgərovun verdiyi məlumatda qeyd olunurdu ki, yaşayış binasının altında yerləşən qeyri-yaşayış sahəsinin Azadxan adlı sahibi dükanın M.Əliyev küçəsinə çıxış hissəsində piyadalar üçün nəzərdə tutulmuş hissəni zəbt edib.

Vətəndaş bildirib ki, sakinlər dəfələrlə Azadxandan piyada yolunun zəbtinə son qoyulmasına tələb ediblər: “Azadxan da deyir ki, heç kimdən və heç nədən qorxmur, piyada yolunu kəsməyə ona ”Memar-2” MTK-nın keçmiş sahibi Xədicə Mamant qızı Nəsirli icazə verib. Xədicə Nəsirli Bakı Şəhər İcra Hakimiyyətinin başçısı olmuş Hacıbala Abutalıbovun yaxın qohumudur. Deyirlər ki, bibisi qızıdır. Fakt odur ki, Yasamal rayonu, M.Əliyev küçəsi, 45 ünvanında piyada yolu zəbt edilib, özbaşına tikili tikilib və piyadalar məcbur qalıb həmin hissədə maşın yoluna çıxırlar. Bu isə hər an təhlükə deməkdir. Üstəlik, mövcud tikinti qaydalarından, bu ünvandakı layihədən kənar çıxaraq Bakı şəhərinin gözəlliyini korlayır”.

Vətəndaş şikayətində həmçinin Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizova müraciət edərək özbaşına tikilinin sökülməsini, piyadaların təhlükəsizliyinin təmin edilməsini, gediş-gəliş yolu açılmasını xahiş edib.

Maraqlıdır ki, bu şikayət sabiq merin yaxın qohumları ilə bağlı son vaxtlar ictimailəşən ilk narazılıq deyil. ”Unikal”ın araşdırması nəticəsində məlum olub ki, bundan əvvəl yerli mətbuatda Abutalıbovun başqa bir qohumu Binəqədi rayonu Rəsulzadə qəsəbəsində uzun müddətdir ki, fəaliyyətdə olan qanunsuz bazarı himayə eləməkdə günahlandırılıb. Bazardan daha çox küçə ticarətini xatırladan həmin məkanda antisanitariya hökm sürdüyü, elə bu antisanityariya şəraitində də kənd təsərrüfatı məhsulları ilə bərabər qida məhsullarının satışının həyata keçirildiyi bildirilib. Qeyd edilib ki, ət, pendir, yağ, şor, qatıq, süd, kustar üsulla hazırlanmış və heç bir gigiyenik sertifikatı olmayan müxtəlif növ turşular gigiyenik normalara cavab verməyən şəraitdə alıcılara təklif edilir. ”Bazar” görkəmli həmin küçə ticarətinin əsas himayədarları arasında isə məhz Hacıbala müəllimin qohumunun adı hallandırılıb. Elə onun fəaliyyətinə əlaqədar qurumlar tərəfindən göz yumulması da bununla izah edilib.

Daha əvvəl isə Hacıbala müəlliminin başqa bir qohumunun Binə atçılıq qəsəbəsində, hava limanının arxasında yerləşən və hündür hasarla əhatəyə alınmış 6 hektardan çox ərazini bu ərazini ələ keçirdiyi barədə məlumat yayılıb. Sabiq merin həm də köməkçisi olmuş bu qohumunun paytaxtın müxtəlif yerlərində, xüsusilə də Suraxanı rayonunda xeyli torpaq sahəsini qeyri-qanuni yollarla ələ keçirməsi, bu zaman hətta qanunsuz olaraq çoxsaylı söküntü işlərinə göstəriş verməsi, nəticədə onlarla ailəni evsiz qoyması vurğulanıb.

Belə nümunələri davam etdirmək olar. Əslində, bütün bunlarda təəccüblü heç nə yoxdur: Azərbaycanda bir çox iri məmurların yaxınları yüksək vəzifədə qohumlarının olmasından istifadə edib qanunlara yuxarıdan aşağı münasibət sərgiləyirlər. Lakin elə ki həmin qohumları işdən azad edilir, ”vurulur”, bu cür adamlar da, necə deyərlər, ”qınlarına çəkilirlər”.

Lakin deyəsən, Hacıbala müəllimin bəzi qohumları ilə bağlı vəziyyət fərqlidir. Hətta Abutalıbovun vəzifəsiz qalması da onları sakitləşdirmir, qalmaqallara imza atmaqdan çəkindirmir. Görünür, onlara sabiq mer və vitse-premyerin çoxdan təqaüdə göndərildiyini xatırlatmaq lazımdır. Əks halda, biz onlarla bağlı şikayət, narazılıq, tənqid xarakterli məlumatları hələ çox oxuyacağıq...

Onu da deyək ki, Hacıbala müəllim vəzifədə ikən qohumlarına kifayət qədər səxavətli davranıb. Abutalıbov hələ vəzifədəikən ki, mətbuat onun dövlət əhəmiyyətli bir neçə binanı belə öz qohumlarının adına rəsmiləşdirdiyi, həmçinin, sahibkarların əmlaklarını qanunsuz olaraq yaxınlarının adına keçirdiyi barədə yazıb. Düzdür, Hacıbala müəllim bu iddiaları şəxsən təkzib edib, şantaj və böhtan adlandırıb. Lakin sabiq mer və keçmiş vitse-premyerin qohumlarının adlarının hələ də mətbuat səhifələrinə qalmaqallı xəbərlərin ”qəhrəmanı” kimi çıxması onun səmimiyyətini şübhə altına alır...

***Orxan Həsənli***

# Liviyada saxlanılan azərbaycanlı gəmiçilər sərbəst buraxıldı

***Liviya Dövlətində həbsdə olan vətəndaşlarımız Elmixan Bağırov və Əliağa Babayev Vətənə geri qayıdıb.***

Bu barədə Unikal.org-a Azərbaycan Xarici İşlər Nazirliyindən məlumat verilib.

Qeyd olunub ki, 2016-cı ilin mart ayında Türkiyə Respublikasında qeydiyyatda olan şirkətə məxsus olan və Syerra-Leone bayrağı altında üzən gəmi Liviya-Malta-Türkiyə istiqamətində hərəkət edən zaman Liviya Dövlətinin sahil qüvvələri tərəfindən saxlanılıb və 3-ü Azərbaycan Respublikası vətəndaşı olmaqla 12 nəfərdən ibarət gəmi heyəti neft məhsullarının qaçaqmalçılığına görə 5 il müddətinə həbs olunublar. Əfsuslar olsun ki, gəmini matrosu Elşad Hüseynov Liviyada dünyasını dəyişib.



Həbsdə olan vətəndaşlarımız - gəmi kapitanı Elmixan Bağırov və matros Əliağa Babayevin ölkəyə geri qaytarılması ilə bağlı Azərbaycan Respublikası hökuməti tərəfindən həyata keçirilmiş tədbirlər nəticəsində Liviya Baş Prokurorluğunun 29 dekabr 2020-ci il tarixli qərarı ilə sözügedən şəxslər həbsdən azad edilib və müvəqqəti saxlama mərkəzinə yerləşdiriliblər.

Vətəndaşlarımızın təcili təxliyəsi üçün Xarici İşlər Nazirliyi və Azərbaycan Respublikasının İstanbul şəhərindəki Baş konsulluğu tərəfindən görülmüş zəruri tədbirlərin nəticəsində, Elmixan Bağırov və Əliağa Babayevin 2021-ci ilin 21 yanvar tarixində Tripoli-İstanbul-Bakı reysi ilə vətənə geri qayıtması mümkün olub. Təxliyə prosesi Türkiyə Respublikası və Liviya Dövlətinin yardımı, Ukraynanın əlaqələndirici fəaliyyəti və gəmi şirkətinin dəstəyi nəticəsində həyata keçirilib.



# Ombudsman Səhiyyə Nazirliyinə müraciət edəcək

***Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Səbinə Əliyevanın tapşırığı əsasında Ombudsmanın Milli Preventiv Qrupunun üzvləri tərəfindən əvvəlcədən xəbərdarlıq etmədən Səhiyyə Nazirliyinin 1 saylı Körpələr Evinə planlı başçəkmə həyata keçirilib.***

Ombudsman Aparatından “Unikal”a bildirilib ki, başçəkmədə məqsəd saxlanma şəraitinin və rəftar məsələlərinin araşdırılması, müəssisədə saxlanılan valideyn himayəsindən məhrum olmuş uşaqların hüquqlarının təmini vəziyyətinin öyrənilməsi olub.

Başçəkmə çərçivəsində müəssisənin bütün ərazisinə, o cümlədən yataq və tibb otaqlarına, oyun zalına, mətbəxə, camaşırxanaya və digər yerlərə baxışlar keçirilib, qidalanma səviyyəsi, tibbi yardımın və psixoloji işin təşkili ilə bağlı mövcud vəziyyət və sənədləşmə araşdırılıb.

Başçəkmə zamanı müəssisənin əsaslı təmir olunduğu və müasir avadanlıqla təchiz olunduğu müşahidə olunub. Eyni zamanda bir sıra çatışmazlıqlar aşkar edilib. Belə ki, mövcud maddi-texniki bazanın səmərəli istifadəsinin təşkil olunmadığı müşahidə olunub. Tibbi hissədə ilkin tibbi yardım üçün tibbi çantanın olmaması, dərmanların qeydiyyatında nöqsanlar, fizioterapiya, masaj və manipulyasiya otaqlarının istifadə olunmaması, fizioterapiya üçün nəzərdə tutulmuş aparatların işlək vəziyyətdə olmadığı müəyyən olunub.

Uşaqların əsasən tibbi müayinədən keçdiyi,lakin yaşlarına uyğun olaraq psixoloji inkişaflarına yönəlmiş işlərin aparılmadığı müəyyən olunub. Eyni zamanda, müəssisədə loqoped və psixoloqun olmaması uşaqların inkişafına hərtərəfli və fərdi yanaşmanın tətbiqində çətinliklər törədir.

Başçəkmənin yekununda müəssisə rəhbərliyi və əməkdaşları ilə hüquqi maarifləndirici söhbətlər aparılıb,saxlanma şəraiti, sənədləşmədə olan nöqsanların aradan qaldırılması ilə bağlı qanunvericiliyin tələbləri izah olunub, habelə yerində aradan qaldırılması mümkün olan məsələlərlə bağlı tövsiyələr verilib.

Başçəkmənin nəticəsi ilə bağlı Səhiyyə Nazirliyinə müraciət olunacaq.

***Murad***

# Qarabağda son 30 ildə məhv edilən erməni hərbçilərin sayı...



***Ermənistanda 1991-ci ildən bəri Qarabağda məhv edilən erməni hərbçilərin sayı açıqlanıb.***

Ölkənin birinci prezidenti Levon Ter-Petrosyanın zamanında (1991-1998) Ermənistan Qarabağ döyüşlərində təxminən 7 min hərbi qulluqçu itirib.

Bundan başqa, Robert Koçaryan vaxtında (1998-2008) 92, Serj Sarkisyan dönəmində isə (2008-2018) 228 erməni hərbçi Qarabağ istiqamətində məhv edilib.

Baş nazir Nikol Paşinyanın (2018-) hökumət rəhbəri olduğu dövrdə isə Ermənistan mediasının tərəfinin təxmini məlumatlarına görə, 5 min hərbi qulluqçu bu regionda ölüb.

Beləliklə, tam olmayan məlumatlara görə, Qarabağda 1991-ci ildən bu günə qədər 12 320 hərbçi ölüb.

# Tələbə və şagirdlərlə bağlı statistika: təqaüd alanlar, əcnəbilər...



***2021-ci il yanvar ayının 1-i vəziyyətinə ölkədə fəaliyyət göstərən 1684 dövlət və 156 qeyri-dövlət məktəbəqədər təhsil müəssisəsində 129 min uşaq tərbiyə alır.***

Dövlət Statistika Komitəsindən (DSK) verilən məlumata görə, 2020/2021-ci tədris ilinin əvvəlinə ölkənin 4397 dövlət və 34 qeyri-dövlət ümumi təhsil müəssisələrində (hazırlıq siniflərində oxuyanlar da daxil olmaqla) 1,7 milyon şagird təhsil alıb.

Bundan əlavə, sağlamlıq imkanları məhdud olan 6,4 min uşağın təhsil aldığı 16 xüsusi məktəb və ya ümumi təhsil müəssisələrində təşkil edilmiş xüsusi siniflər fəaliyyət göstərib.

Ümumi təhsil müəssisələrində ikinci və üçüncü növbələrdə təhsil alan şagirdlərin xüsusi çəkisi 22,1 faiz olub.

2020/2021-ci tədris ilinin əvvəlinə şagirdlərinin sayı 79,2 min nəfər olan 113 dövlət liseyi və gimnaziyası fəaliyyət göstərib.

Dövlət müəssisələrinin ümumi sayında məcburi köçkün uşaqlar üçün 582 əyani ümumi təhsil müəssisəsi fəaliyyət göstərir və burada 103,7 min nəfər şagird təhsil alır.

2020-ci ildə əyani ümumi təhsil müəssisələrini bitirən 74,1 min nəfər məzundan 73,6 min nəfəri və ya 99,3 faizi tam orta təhsil haqqında attestat alıb.

Rəsmi məlumata görə, 2020/2021-ci tədris ilinin əvvəlinə ölkədə fəaliyyət göstərən 61 orta ixtisas təhsil müəssisəsində 60 min tələbə təhsil alıb, onların 62,4 faizini qadınlar təşkil edib.

Azərbaycanda bakalavr və magistrlərin hazırlanmasını həyata keçirən 40 dövlət və 12 qeyri-dövlət ali təhsil müəssisəsində, eləcə də 26 elmi təşkilatda təhsil alanların sayı 198,7 min nəfər olub ki, onların da 48,9 faizini qadınlar təşkil edib.

2020-ci ildə ölkənin ali təhsil müəssisələrinə 45 min nəfər tələbə qəbul olunmuş və qəbul geniş profilli ixtisas siyahısına uyğun olaraq həyata keçirilib.

Bakalavriata qəbul olunan tələbələrin ümumi sayında ödənişli əsaslarla təhsilə qəbul olunanların xüsusi çəkisi 50,4 faiz olub ki, onların da 77,8 faizi dövlət ali təhsil müəssisələrinin payına düşür.

Hazırda dövlət ali təhsil müəssisələrinin əyani şöbələrində oxuyan tələbələrin 48,9 faizi təqaüd alır.

Ölkənin ali təhsil müəssisələrində Azərbaycan vətəndaşları ilə yanaşı 84 xarici ölkədən 5,7 min tələbə də təhsil alır. Əcnəbi tələbələrin sırasında Türkiyə, İran, Gürcüstan, Rusiya, Türkmənistan, Nigeriya və Pakistan İslam Respublikasının vətəndaşları üstünlük təşkil edirlər.

2020/2021-ci tədris ilinin əvvəlinə xarici ölkələrdə dövlət xətti ilə təhsil alan tələbələrin sayı 975 nəfər təşkil edib. Xaricdə təhsil alan gənclərin 37,5 faizi Bakı, 62,5 faizi isə Azərbaycanın müxtəlif regionlarında yerləşən məktəblərin məzunlarıdır. Tələbələrin əksəriyyəti Macarıstan, Türkiyə, Rusiya, Çin, Latviya və Birləşmiş Krallığın ali təhsil müəssisələrində təhsil alır.

# Abdolbari Goozalın qızının bankında nə baş verir?

## Xalis mənfəəti 2,5 milyon manat azalan "Azərbaycan Sənaye Bank" xeyli kiçilib

***"Azərbaycan Sənaye Bank" (ASB) ASC-nin 2020-ci ilin yekunları ilə bağlı bir çox əhəmiyyətli göstəriciləri ürəkaçan səviyyədə olmayıb. Bankın maliyyə göstəricilərindən belə məlum olur ki, ASB ötən ili 5 milyon 184 min manat xalis mənfəət ilə başa vurub. Nəticədə 2019-cu illə müqayisədə 2020-ci ildə "Azərbaycan Sənaye Bank"nın xalis mənfəəti 2 milyon 504 min manat və ya 32,6% azalıb.***

"Azərbaycan Sənaye Bank" ASC 2019-cu ili 7 milyon 688 min manat xalis mənfəət ilə bağlamışdı. Xalis mənfəətin azalması qeyri-faiz gəlirlərinin azalması ilə bərabər xərclərin artması ilə əlaqədardır.

"Azərbaycan Sənaye Bankı"nın faiz gəlirləri 2019-cu ildə 28 milyon 283 min manat ikən 2020-ci ildə 32 milyon 306 min manata yüksəlib. Qeyri-faiz gəlirləri isə 10 milyon 361 min manatdan 5 milyon 318 min manata geriləyib.

2019-cu ildə faiz xərcləri 15 milyon 880 min manat ikən, 2020-ci ildə 16 milyon 783 min manat, 2019-cu ildə qeyri-faiz xərcləri 12 milyon 976 min manat ikən 2020-ci ildə 14 milyon 980 min manat təşkil edib.

"Azərbaycan Sənaye Bankı"nın əməliyyat mənfəəti 9 milyon 788 min manatdan 5 milyon 861 min manata düşüb. Ötən il aktivlər üzrə mümkün zərərlərin ödənilməsi üçün xüsusi ehtiyatdan azad olmuş 688 min manat hesabına mənfəət artıb. Bank mənfəətindən 1 milyon 365 min manat vergi ödəyib.

O da maraqlıdır ki, ötən il "Azərbaycan Sənaye Bankı"nın cəmi aktivləri 73 milyon 647 min manat azalaraq 911 milyon 504 min manata düşüb. Bank tərəfindən müştərilərə verilmiş cəmi kreditlər 14 milyon 411 min manat azalaraq 316 milyon 991 min manata, "Azərbaycan Sənaye Bankı"nın digər banklardakı depozitləri isə 99 milyon 236 min manat azalaraq 444 milyon 38 min manat enib. Bu da bankın kiçilməsi deməkdir.



Daha bir diqqətçəkən məqam ondan ibarətdir ki, 2019-cu illə müqayisədə 2020-ci ildə "Azərbaycan Sənaye Bankı"dakı cəmi depozitlər 75 milyon 195 min manat azalaraq 639 milyon 932 min manata geriləyib. Deməli, xeyli depozit geri götürülüb ki, bunun səbəbi də maraq doğurur. Ümumiyyətlə isə "Azərbaycan Sənaye Bankı" "Azərbaycan Depozit Bankı" adlandırılsa, adı, hazırkı fəaliyyətini daha dolğun əks etdirər. Çünki bank sənayeni kreditləşdirməkdən daha çox digər banklara depozit yerləşdirmək fəaliyyətilə məşğuldur.

31 dekabr 2020-ci il tarixində "Azərbaycan Sənaye Bankı"nın cəmi müştərilərə verdiyi kreditlər 319 milyon 27 min manat ikən, digər banklar da daxil olmaqla, maliyyə institutlarındakı depozitləri 448 milyon 552 min manat təşkil edib. Qısası, digər banklara yerləşdirilmiş depozitlər müştərilərə verilmiş kreditləri 129 milyon 525 min manat üstələyib.

2019-cu ilin sonu ilə müqayisədə "Azərbaycan Sənaye Bankı"nın müştərilərə verdiyi kreditlərin və depozitlərinin məbləği azalıb. Belə ki, 2019-cu ilin sonunda cəmi kreditlər 331 milyon 402 min manat, digər banklardakı depozitləri 543 milyon 274 min manat təşkil etmişdi.

"Azərbaycan Sənaye Bankı" 2020-ci ilin sonunda 101 milyon 528 min manat məcmu kapitala malik olub. Bank 2019-cu ilin sonunda 96 milyon 837 min manat məcmu kapitala malik idi. Bir sözlə, digər göstəricilərlə müqayisədə məcmu kapitalın həcmində artım qeydə alınıb.

"Azərsun Holdinq"in "çətiri" altında fəaliyyət göstərən "Azərbaycan Sənaye Bankı" ASC-nin səhmlərinin 98,4252%-i "Anadolu İnvestment Kompani" MMC-yə, 1%-i Leyla Goozala, 0,5748%-i Azərbaycan Sənaye Lizinq Şirkətinə məxsusdur. Leyla Goozal "Azersun Holdinq" rəhbəri Abdolbari Goozalın qızıdır.

L.Goozal ötən ilin sonlarınadək "Azərbaycan Sənaye Bankı"nın əsas səhmdarı olan "Anadolu Investment Kompani"nin Baş direktoru (CEO) kimi çalışıb. Lakin 2020-ci ilin axırlarında onun bu vəzifədən kənarlaşdırıldığı barədə məlumat yayılıb. Bildirilib ki, Leyla xanımın yerinə Səidə Bayramova təyin edilib. S.Bayramova Beynəlxalq Bankda 2018-ci ilə qədər Müşahidə Şurası üzvü kimi çalışıb.

Bir neçə gün öncə isə A.Goozalın qızının yenidən Baş direktor (CEO) vəzifəsinə qayıtdığı bildirilib.

"Anadolu İnvestment Kompani" MMC 2003-cü ildə yaradılıb, 22 milyon manat nizamnamə kapitalı var. Bu şirkət "Azərbaycan Sənaye Sığorta Şirkətinin" də 75%-lik səhmlərinə sahibdir.

***Toğrul Əliyev***

# Nazirlik 1 milyon manatdan çox cərimə yazıb

***Ekologiya və Təbii Sərvətlər Nazirliyinin monitorinq xidmətləri tərəfindən 2020-ci ildə 1 553 müəssisədə müvafiq müayinələr aparılıb.***



Dövlət Statistika Komitəsindən "Unikal"a bildirilib ki, nəticədə su hövzələrinin çirkləndirilməsi üzrə tədqiq olunan müəssisələrin 38,2 faizində, atmosfer havasının çirkləndirilməsi üzrə tədqiq olunmuş müəssisələrin 35,7 faizində, torpaq ehtiyatlarının çirkləndirilməsi üzrə isə müayinəyə cəlb olunmuş müəssisələrin 28,7 faizində atılan tullantıların icazə verilən həddən artıq olması qeydə alınıb. Təbiəti mühafizə qanunvericiliyinin pozulmasına görə ötən il inzibati məsuliyyətə cəlb olunan 1 004 nəfər vəzifəli şəxs və vətəndaşlardan 1 milyon 140 min manat məbləğində cərimə tutulub.

# Rafael Cəbrayılov həbsin bir addımlığında...

## Sabiq deputatın ətrafında həlqə daralır; yeni ilginc məqamlar ortaya çıxdı

***Bir neçə gün əvvəl məlumat yayıldı ki, keçmiş deputat Rafael Cəbrayılov həbs təhlükəsi ilə üzləşib. Bunun isə səbəbi var: Cəbrayılovun borclu olduğu vətəndaşlardan biri bütün məhkəmə instansiyalarında deputata qalib gəlib. Artıq məhkəmə qərarının icrasına start verilib.***

Ötən il dekabrın 30-da Rafael Cəbrayılov icra şöbəsinə çağırılıb və ona yanvarın 10-na kimi vaxt verilib. Lakin keçmiş deputat yanvarın 10-na kimi də borcunu ödəməyib. Məlumata görə, bu dəfə də Rafael Cəbrayılova möhlət verilib. Bildirilir ki, keçmiş deputat borcunu ödəməyəcəyi təqdirdə əvvəlcə barəsində inzibati qaydada tədbir görüləcək, növbəti dəfə isə məhkəmə qərarını icra etmədiyi üçün barəsində yeni cinayət işi başlana bilər.

Məlumatda qeyd edilir ki, keçmiş deputatın borclu olduğu digər şəxslər Baş Prokurorluq yanında Korrupsiyaya Qarşı Mübarizə İdarəsinə müraciət edib. Faktla bağlı cinayət işi başlanıb. Rafael Cəbrayılov borclarını qaytarmaq niyyətində olduğunu iddia etsə də, şikayətçilər onun səmimiyyətinə inanmır.

Rafael Cəbrayılovun toplam olaraq 1 milyon 550 min dollar borcu var. Onun borclu olduğu şəxslər aşağıdakılardır:

Təranə Fətəliyeva - 300 000 dollar

Məlahət Qurbanova - 580 000 dollar

Xatirə Nəcəfova - 200 000 dollar

Yusif Orucov - 200 000 dollar

Aynur Kazımova - 100 000 dollar

Şəfa Məmmədova - 80 000 dollar,

Bəşir Məmmədov - 60 000 dollar

Allahverdi Səfərəliyev - 30 000 dollar.



Xatırladaq ki, Rafael Cəbrayılov borcu vaxtında qaytaracağına zəmanət olaraq III və IV çağırış deputat vəsiqəsini girov qoymuşdu. Vədinə əməl etmədiyinə görə borclu olduğu şəxslər məsələni ictimailəşdirmişdi. Olay ictimai rezonansa səbəb olmuş, nəticədə Rafael Cəbrayılov deputat mandatından imtina etmək məcburiyyətində qalmışdı.

Mövzu ilə bağlı "Unikal"a maraqlı bilgilər daxil olub. Həmin məlumata görə, sabiq deputat özünün çox sayda mülklərini satışa çıxarıb. Onlardan bəzilərinin satışı həyata keçirilsə də, qalmaqallı biznesmen vədinə əməl etməyib: həmin vəsaitlə borclarını qaytarmaq əvəzinə, satılan mülklərin pulunu başqa istiqamətə yönəldib. Sözügedən mülklərin başqa şəxslərin adlarına rəsmiləşdiyini deyən mənbələr bu səbəbdən də Cəbrayılovun guya həmin əmlaklarla heç bir bağlılığının olmadığını iddia etdiyinə diqqət çəkib.

Qaynaqlarımız xatırladır ki, ötən ilin sentyabrında Baş Prokurorluq yanında Korrupsiyaya Qarşı Mübarizə İdarəsində keçmiş deputat barəsində cinayət işi başlanıb. Cəbrayılov 178.2.3 (dələduzluq əməli şəxs tərəfindən öz qulluq mövqeyindən istifadə etməklə törədildikdə) və 308.1-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə) maddələri ilə ittiham olunur. Hətta sabiq millət vəkilinin borclarını ödəyəcəyi təqdirdə belə onun məhkəmə qarşısına çıxarılması qaçılmazdır.

Rafael Cəbrayılovun borclu olduğu şəxslərin Baş prokuror Kamran Əliyevə müraciətindən sonra başlanan cinayət işi çərçivəsində sabiq deputat barədə həbs qətimkan tədbirinin seçilməsi ehtimalının yüksək olduğuna diqqət çəkən mənbələrin bildirdiyinə görə, o, hələlik özünü arxayın aparır. Belə ki, Cəbrayılov kimlərəsə güvənir və belə düşünür ki, barəsindəki cinayət işi həbslə yekunlaşmayacaq.

Lakin sabiq deputatın bu arxayınlığı əbəsdir. Son bir ildə Azərbaycanda kifayət qədər yuxarı vəzifəli şəxslər korrupsiya faktlarına görə həbs olunub. Onların arasında icra başçıları da var, nazir müavini, yaxud nazirliklərin yüksək post sahibləri də... Bu həbslər təsdiqləyib ki, qanunsuzluğa, korrupsiyaya yol verən şəxslər hansı vəzifə tutur tutsun, hansı nüfuza, imtiyaza malik olursa olsun, hüququn aliliyi qarşısında gücsüzdürlər. Yəni, qanunvericiliyə əsasən mütləq cəzalandırılır, cavab verməli olurlar. Belədə Rəfael Cəbrayılovun sonadək toxunulmaz qalacağını düşünməsi sadəlövhlükdür. O, vətəndaşlardan aldığı pulları geri qaytarmalı, illər uzunu onlara vurduğu maddi və mənəvi ziyanı ödəməlidir" deyən qaynaqların üşbhəsi yoxdur ki, proseslər məhz həmin istiqamətdə inkişaf edəcək...

***Sənan Mirzə***

# Polis 4 rayonda əməliyyat keçirdi: Saxlanılanlar var

***Daxili işlər orqanları tərəfindən 4 rayonda qanunsuz silah saxlayanlara qarşı əməliyyat keçirilib.***

Daxili İşlər Nazirliyinin (DİN) Mətbuat Xidmətindən Unikal.org-a verilən məlumata görə, Şəmkir Rayon Polis Şöbəsinin əməkdaşlarının daxil olmuş məlumat əsasında keçirdikləri əməliyyat-axtarış tədbiri nəticəsində Dəllər Cırdaxan kəndi ərazisində Əliyaqublu kənd sakini A.Abdullayevdən müvafiq sənədləri olmayan "İJ-18E" markalı ov tüfəngi aşkar edilərək götürülüb.

Salyan Rayon Polis Şöbəsinin əməkdaşlarının daxil olmuş məlumat əsasında keçirdikləri əməliyyat tədbirləri nəticəsində rayon sakinləri X.Qurbanovdan və V.Qurbanovdan "BM" markalı ov tüfəngləri və 13 ədəd patron, Q.Orucovdan "TOZ-16", S.Eyvazovdan "İJ-16", R.Sultanovdan "İJ-17", N.Əhmədovdan isə "İJ-58" markalı ov tüfəngləri aşkar edilərək götürülüb.




Beyləqan Rayon Polis Şöbəsinin əməkdaşlarının daxil olmuş məlumat əsasında keçirdikləri əməliyyat-axtarış tədbiri nəticəsində Günəşli kənd sakini A.Həsənovdan müvafiq sənədləri olmayan ov tüfəngi aşkar edilərək götürülüb.

Qax Rayon Polis Şöbəsinin əməkdaşlarının daxil olmuş məlumat əsasında keçirdikləri əməliyyat-axtarış tədbiri nəticəsində Qaxingiloy kənd sakini, əvvəllər məhkum olunmuş F.Mustafazadədən 33 qramdan artıq marixuana və "Makarov" tipli tapança, habelə gizlətdiyi 435 qram marixuana aşkar edilərək götürülüb.



# Dövlət Agentliyi yeni layihəyə başlayır

***Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi tərəfindən Kürdəmir rayonunda 18 km uzunluğu malik Ərəb Qubalı-Çöl Qubalı-Məhərrəmli avtomobil yolunun yenidən qurulması işləri artıq sonuncu mərhələ üzrə icra olunur.***

Agentlikdən "Unikal"a verilən məlumata görə, başlanğıcını Bakı-Ələt-Gürcüstan Respublikası ilə dövlət sərhədi avtomobil yolunun 170-ci km-dən götürən Ərəb Qubalı-Çöl Qubalı-Məhərrəmli avtomobil yolunun əhatə etdiyi yaşayış məntəqələri 4 minə yaxın əhalinin yaşadığı 3 kənddir. Bu kəndlər arasında nəqliyyat əlaqəsi çox pis vəziyyətdə olub. Çünki torpaq və çınqıl örtük əsaslı yolla gediş-gəliş çox çətin olub. 18 km uzunluğa malik avtomobil yolu boyu deformasiyaya uğramış örtüyün bərpası məqsədi ilə zəruri yerlərdə yol yatağı qazılaraq çıxarılıb, genişləndirmə işləri aparılmaqla 10 metr enində yeni yol yatağının inşası istiqamətində addımlar atılıb. Yol yatağı hazır olan hissələrdə yol əsasının tikintisi işləri həyata keçirilir. Bunun üçün qum-çınqıl və optimal-qırmadaş qarışığından istifadə olunur.

Texnoloji ardıcıllıqla aparılan tikinti işlərinin növbəti, sonuncu mərhələsi üzrə artıq yolun asfaltlanmasına da başlanılıb. Yol örtüyünün alt layının 7 sm qalınlıqda iri dənəli, üst layının isə 5 sm qalınlıqda xırda dənəli asfalt-beton örtüyü ilə tikintisi aparılır. Bu işlər 100 min kv.m-dən çox ərazini əhatə edir.

Layihə çərçivəsində yol boyu yararsız vəziyyətdə olan suötürücü boruların yeniləri ilə əvəz edilməsi və yenilərinin quraşdırılması işləri də görülüb. Bunun üçün müxtəlif diametrli dairəvi dəmir-beton borulardan istifadə olunub.

Yol boyu avtonəqliyyat vasitələrinin normal hərəkətini təmin etmək məqsədi ilə avtobus dayanacaqlarının tikilməsi, yol nişanı, km göstəricisi və məlumatverici lövhələrin, həmçinin siqnal dirəklərinin quraşdırılması işlərinin aparılması da layihə üzrə nəzərdə tutulur.

Bu tədbirlərin icrası, ilk növbədə, Ərəb Qubalı-Çöl Qubalı-Məhərrəmli marşrutu üzrə yaşayan əhalinin rahatlığını təmin edir, onların mənzil başına təhlükəsiz çatmalarına imkan yaradır. Bundan başqa, yolların bu cür müasir səviyyəyə çatdırılması, təkcə yol üzərində olan kəndləri deyil, ümumilikdə, həmin rayonun sosial-iqtisadi inkişafına töhfə verir və yolboyu yerləşən yaşayış məntəqələrində sakinlərə əlavə iqtisadi imkanlar açır.

***Zaurə***

# Ov mövsümü açıq elan edilir

***Ov Məsələləri üzrə Koordinasiya Şurasının növbəti iclası keçirilib və ov mövsümünün açıq elan edilməsinə qərar verilib.***

Unikal.org-a verilən məlumata görə, Bioloji Müxtəlifliyin Qorunması Xidmətinin rəisi Firuddin Əliyev bildirib ki, Azərbaycan Milli Elmlər Akademiyasının, aidiyyəti dövlət qurumlarının, beynəlxalq təşkilatların və ictimai birliklərin nümayəndələrinin təmsil olunduğu iclasda Şura üzvlərinin yekdil fikri ilə ov mövsümünün 22 yanvar 2021-ci il tarixindən etibarən açılması qərara alınıb.

# Alimpaşa Məmmədovun müəmmalı yaşı...

## Yaxud Şəmkirin icra başçısına niyə tibb işçilərindən öncə peyvənd vurulub?

***Dünən qəzetimiz çapa hazırlanarkən maraqlı məlumat yayıldı. Məlumatdan belə aydın olurdu ki, Şəmkirdə koronavirusa qarşı ilk peyvəndlənən tibb işçiləri deyil, icra başçısı olub.***



Belə ki, Şəmkir Rayon İcra Hakimiyyətinin (RİH) başçısı Alimpaşa Məmmədov koronavirus əleyhinə peyvənd olunub.

Bildirilib ki, Şəmkir Rayon Mərkəzi Xəstəxanasında reallaşdırılan vaksinasiya prosesində A.Məmmədov rayonda ilk peyvəndlənən şəxs olub.

Məlumata görə, icra başçısı vaksin vurulduqdan sonra 30 dəqiqə gözləmə otağında saxlanılıb və özünü yaxşı hiss etdiyi üçün xəstəxanadan buraxılıb.

Daha sonra rayonun tibb işçilərinə peyvənd vurulub. Qeyd olunub ki, ümumilikdə, 150-yə yaxın tibbi işçisi peyvəndlənib.

Xatırladaq ki, Azərbaycanda koronavirusa qarşı vaksinasiya prosesinə yanvarın 18-dən başlanılıb. Bundan əvvəl isə bildirilib ki, peyvənd ilk mərhələdə risk qrupuna aid səhiyyə işçilərinə, 65 yaşdan yuxarı şəxslərə və hüquq-mühafizə orqanları tərəfindən əks-epidemik tədbirlərə cəlb olunan heyətə vurulacaq.

Lakin Şəmkirdə əksi baş verib: koronavirusa qarşı ilk peyvənd icra başçısına vurulub. Alimpaşa müəllim tibb işçisi olmadığına və hüquq-mühafizə orqanları tərəfindən əks-epidemik tədbirlərə cəlb edilmədiyinə görə güman etmək olardı ki, onun belə bir öncəlik qazanmasında yaş faktoru rol oynayıb.

Ancaq bunu da dəqiqləşdirmək mümkün deyil. Çünki nə qədər qəribə də olsa, Şəmkirin icra başçısı doğum tarixini gizlədir! Bəli, məhz gizlədir, çünki internetə açıq mənbələrin heç birində onun nə vaxt anadan olduğu yazılmayıb. Ancaq ən qəribəsi odur ki, rayonun İcra Hakimiyyətinin rəsmi saytında da bu tarix göstərilməyib. Orada Məmmədov barədə sadəcə iki cümlə oxumaq mümkündür: "Alimpaşa Adil oğlu Məmmədov Azərbaycan Respublikası Vergilər Nazirliyi Bakı şəhər Vergilər Departamentinin rəisi vəzifəsində çalışıb.

Azərbaycan Respublikası Prezidentinin 8 oktyabr 2014-cü il tarixli Sərəncamı ilə Şəmkir Rayon İcra Hakimiyyətinin başçısı təyin edilib".

Vəssalam!

Halbuki digər şəhər və rayonların yerli icra hakimiyyətlərinin saytlarında icra başçıları barədə ətraflı məlumat var ikən, Alipaşa Məmmədovla bağlı sadəcə bu iki cümlə ilə kifayətlənilməsi maraq doğurur.

Bir sözlə, dəqiqləşdirmək mümkün deyil ki, Şəmkirdə koronavirusa qarşı ilk peyvəndin tibb işçilərinə deyil, icra başçısına vurulmasının sirri onun yaşının 65-dən çox olması ilə əlaqədardır ya yox?

Hər bir halda Alimpaşa müəllimin peyvəndləmə ilə bağlı qaydalara zidd olaraq tibb işçilərindən, 65 yaşdan yuxarı şəxslərdən və hüquq-mühafizə orqanları tərəfindən əks-epidemik tədbirlərə cəlb olunan heyətdən qabağa düşməsi xeyli maraqlıdır. Ümid edək ki, Şəmkirin yerli icra hakimiyyəti buna aydınlıq gətirəcək...

***Orxan Həsənli***

# Rövşən Rzayev müharibədə iştirak edən əməkdaşlarla görüşüb

***Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli ordumuzun işğalçı Ermənistana qarşı apardığı "Dəmir yumruq" əks-həmlə hərbi əməliyyatında - Vətən Müharibəsində Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin müxtəlif strukturlarının 13 əməkdaşı iştirak edib.***



Hərbi səfərbərlik zamanı könüllü şəkildə Silahlı Qüvvələrimizin sıralarına qoşulan bu cəsur və vətənpərvər gənclərin hamısı hərbi xidmətdən tərxis olunduqdan sonra öz iş yerlərinə qayıdıb.

"Unikal" xəbər verir ki, düşmən üzərində möhtəşəm zəfərin qazanılmasına öz töhfəsini verən Vətən Müharibəsi iştirakçıları ilə Dövlət Komitəsində görüş keçirilib. Komitə sədri Rövşən Rzayev onları qələbə münasibətilə təbrik edib, torpaqlarımızın işğaldan azad olunması üçün göstərdikləri fədakarlığa görə hər birinə minnətdarlıq bildirib.

Xalqımızın haqq işi uğrunda canını qurban verən şəhidlərin xatirəsi ehtiramla yad edilib.

Möhtərəm Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin müdrik və qətiyyətli siyasəti, hərbi-diplomatik məharəti sayəsində ölkəmizin ərazi bütövlüyünün və suverenliyinin təmin olunduğu, otuz ilə yaxındır yurd həsrəti ilə yaşayan məcburi köçkünlərin öz ata-baba torpaqlarına qayıtmasına imkan yarandığı sevinc və qürur hissi ilə qeyd edilib. Diqqətə çatdırılıb ki, Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva şəhid ailələrinə, əlillərə, müharibə veteranlarına xüsusi diqqət və qayğı göstərirlər. Bu kateqoriyalara aid vətəndaşlarımızın sosial müdafiəsi daim gücləndirilir. Vurğulanıb ki, komitənin sifarişi ilə inşa edilmiş yeni yaşayış sahələrinin şəhid ailələrinə verilməsi barədə ölkə rəhbərinin qərarını məcburi köçkünlər rəğbətlə qarşılayıblar. Onlar tezliklə bərpa ediləcək, yenidən qurulacaq doğma yurd yerlərinə qayıdacaqlar, ata-baba torpaqlarında yeni həyata başlayacaqlar.

Komitənin müharibədə iştirak edən əməkdaşlarının hərbi əməliyyatlarda göstərdikləri şücaətə görə müxtəlif dövlət təltiflərinə layiq görülməsinin kollektivdə qürur və iftixar hissi doğurduğu qeyd edilib.

Görüşdə Vətən Müharibəsi iştirakçıları Nicat Cəlilova, ƏliHəbibzadəyə, Toğrul Əliyevə, Eyvaz Novruzova, Ömür Mehdiliyə, İlqarQuliyevə, Bayram Vəliyevə, Mübariz Əliyevə, Elşən Vəliyarzadəyə, Arif Abbasova, Elşad Şirinova, Zamiq Cəfərova, Elxan Xankişiyeva, həmçinin arxa cəbhədə göstərdikləri xidmətlərə görə5 nəfərə - komitə sədrinin müşaviri Nəsimi Nərimanova, Miqrasiya, məskunlaşma, status və sosial təminat şöbəsinin müdir müavini Xəyyam Hüseynova, Füzuli rayon sektorunun müdiri Elmir Allahyarova, Tərtər rayon sektorunun müdiri Möhlət Nəzərova, Mənzil-İstismar Departamentinin direktor müavini Azər Eminova komitə rəhbərliyi tərəfindən təşəkkürnamə və qiymətli hədiyyələr təqdim olunub. Vətən Müharibəsində ön və arxa cəbhələrdə fədakarlıq göstərən komitə əməkdaşları dövlətimizin qüdrətlənməsi, ölkəmizin çiçəklənməsi, doğma Qarabağın dirçəlişi, xalqımızın rifahı naminə bundan sonra da böyük məsuliyyətlə çalışacaqlarına bildiriblər.

***Famil***



# Postlardan keçmək istəyən 2 315 nəqliyyat vasitəsi geri qaytarıldı

***Koronavirus (COVID-19) infeksiyasının yayılmasının qarşısının alınması məqsədilə xüsusi karantin rejiminin tətbiq edildiyi 5 şəhərin və 12 rayonun giriş və çıxışlarında quraşdırılmış xüsusi postlarda Daxili İşlər Nazirliyinin hərbi qulluqçuları və polis əməkdaşları tərəfindən nəzarət-profilaktiki yoxlamalar davam etdirilir.***

Bu barədə Unikal.org-a Daxili İşlər Nazirliyinin (DİN) Mətbuat xidmətindən məlumat verilib.

Dəfələrlə edilən xəbərdarlıqlara baxmayaraq, bəzi vətəndaşlar tərəfindən 2021-ci il yanvarın 20-də də karantin rejimi qaydalarının və tələblərinin pozulması halları aşkarlanıb.

Nəzarət-profilaktik tədbirlər nəticəsində postlardan müvafiq qaydada icazə almadan keçməyə cəhd göstərən 2 315 nəqliyyat vasitəsi müəyyən olunaraq geri qaytarılıb.

Eləcə də qeyd olunan müddətdə ölkə üzrə karantin rejimi qaydalarını pozan 3 nəfər barəsində həbs, 1 296 nəfər barəsində digər inzibati tənbeh tədbirləri tətbiq olunub.

Ev şəraitində müalicə təyin edilən 2 nəfər aktiv COVID-19 xəstəsi ictimai yerlərdə müəyyən olunaraq evə qaytarılıb və barələrində cinayət işi başlanılıb.

"Bu istiqamətdə həyata keçirilən bütün tədbirlər əhalinin təhlükəsizliyinin təmin edilməsi və onların sağlamlığının qorunmasına xidmət edir", Mətbuat xidmətindən bildirilib.

***Murad***

# Sumqayıtda qazinin başına oyun açdılar

***Sumqayıt şəhər sakininin bank hesabından pul oğurlanıb.***

Unikal.org xəbər verir ki, məlumata görə, Vətən uğrunda gedən döyüşlər zamanı yaralanan Qəhrəman Ağacanovun adına yardım üçün bank hesabı açılıb.

Daha sonra həmin bank hesabından yığılan vəsait oğurluq yolu ilə ələ keçirilib. Q.Ağacanov bu barədə Daxili İşlər Nazirliyinə müraciət edib.

Bildirilib ki, müraciətə dərhal reaksiya verilərək müvafiq araşdırma aparılıb və görülən təxirəsalınmaz tədbirlərlə oğurlanan həmin məbləğ Q.Ağacanova geri qaytarılıb.

# Karantini pozaraq həbs edilənlərin sayı açıqlandı

***Ölkə üzrə karantin rejimi qaydalarını pozan şəxslərin sayı açıqlanıb.***

Bu barədə Unikal.org-a Daxili İşlər Nazirliyinin (DİN) Mətbuat xidmətindən məlumat verilib.

Bildirilib ki, yanvarın 20-də ölkə üzrə karantin rejimi qaydalarını pozan 3 nəfər barəsində həbs, 1296 nəfər barəsində digər inzibati tənbeh tədbirləri tətbiq olunub.

# "Bizi güllə yağışına tutanlar uzun saçlı əsgərlər idi" - 20 Yanvar şahidi

***Azərbaycana qarşı 70 il davam edən sovet təcavüzü 1990-cı ilin 20 yanvar tarixində dəhşətli faciə ilə nəticələndi. 31 il öncə törədilən qətliam tariximizin xronologiyasına ən ağır cinayətlərdən biri kimi həkk olundu. Milli azadlıq və ərazi bütövlüyü uğrunda minlərlə insan həmin gün mübarizəyə qalxdı. Nəticədə 137 günahsız insan amansızlıqla qətlə yetirildi, yüzlərlə mülki şəxs yaralandı. Bakı bir anda qan gölünə döndü...***

Həmin günün şahidləri qanlı gecənin dəhşətli xatirələrini 31 ildir unuda bilmirlər. Dünən olmuş kimi ürəkyanğısı ilə xatırlayır, xalqımızın başına gətirilən müsibətləri gözyaşları ilə ifadə etməyə çalışırlar.

Həmsöhbətimiz II qrup 20 yanvar əlili Sahib Əlizadə faciə gecəsinin canlı şahididir. O zaman Bakı Baş Tikinti İdarəsinin kommunal şöbəsində işləyən S.Əlizadə Azvision.az -a bildirib ki, kiçik qardaşı ilə birlikdə həmin gecə meydanlara çıxaraq, silahlı rus əsgərlərinin qarşısında durub.



"20 Yanvar faciəsi birdənbirə olmadı. Bu, 1988-ci ildən başlayan azadlığa gedən yol idi. Əsgəranda iki vətəndaşımızı ermənilərin vəhşicəsinə öldürməsi, Topxana hadisələri, ermənilərin Qarabağı Ermənistana birləşdirmək niyyətləri, mərkəzi orqanların buna laqeyd münasibəti xalqı hiddətləndirdi, minlərlə insanın ayağa qalxmasına səbəb oldu. Azərbaycanın SSRİ-nin tərkibindən çıxması haqqında siyasi tələb qoyuldu. Artıq görürdük ki, ermənipərəst qüvvələr mərkəzdən güclü işləyir. Qorbaçov ermənilərə satılmış insan idi.

Bu hadisələrin fonunda mərkəzdə Bakı, Azərbaycana silahlı qüvvələrin yeridilməsi, xalqa təcavüz olunması planları gedirdi. İmperiyanın qoşun yeritmək istəməsi xəbərləri artıq xalqın içərisində yayılmışdı. Nəticədə insanlar ordunun girməsi mümkün olan istiqamətlərdə sipərlər qurmağa başladı. Həmin hadisələr baş verən gecə mən də meydanda idi. Gündüz yorulmuşdum, evə gəldim ki, yemək yeyim, yenidən qayıdım. Yanvarın 19-u axşam 8-ə işləyirdi. Televizor vasitəsilə informasiyanı alırdıq. Yazov, Baqatin gəlmişdi və söz verilmişdi ki, xalqa təcavüz olunmayacaq, ordu şəhərə girməyəcək. Lakin deyilən vədlərə inanmırdıq, çünki 35 min ordu şəhərə girməyə hazır idi. Saat 8 radələrində televiziyaya baxdığımız yerdə yayım kəsildi. İşıq saçan güllələrin göydə hiss olunması məndə fikir yaratdı ki, xalqa hücum etmək istəyirlər. Evdə dedim ki, mən gedirəm, kiçik qardaşım də mənimlə gəldi. O zaman Elmi Tədqiqat Göz Xəstəlikləri İnstitutunun yanında qalırdıq. Oradan XI Qızıl Ordu meydanına qaça-qaça gəldik. Həmin gün hava çiskinli, yağıntılı idi. Meydanda böyük izdiham var idi, iynə atsan yerə düşməzdi".

Hazırda 66 yaşı olan S.Əlizadə qeyd edib ki, Sovet ordusunun şəhərə girişi mümkün olan yollar maşınlarla bağlanmışdı, yalnız Mətbuat prospekti açıq idi: Çünki qoşunların Biləcəridən və Salyan kazarmasından gəlişi gözlənilirdi.

Həmsöhbətimizin dediyinə görə, artıq gecə saat 12-də vəziyyət dəyişdi, işıqlar söndü və ordu meydana daxil oldu.

"İnsanlara amansızcasına qəsd edən, öldürən, güllə yağışına tutanlar uzun saçlı əsgərlər idi. Sonradan bildik ki, bunlar Stavropol, Krasnodardan gətirilən ehtiyatda olan ermənilər idi. Onlara narkotik, içki verib azğınlaşdırmışdılar və xalqın üstünə hücuma salmışdılar. Həmin qüvvələri Azərbaycan xalqını qırmaq üçün gətirmişdilər. Onlar xalqa qarşı qadağan olunmuş odlu silahlardan istifadə edirdilər. Bunlar mərkəzdən qaçan güllə, zəhərli güllə, bədənə girib qumbara kimi partlayıb dağıdan güllələr idi.

Orada "Jiquli" var idi, baqajını açmışdı, deyirdi ki, "molotof kokteyli var, kim istəyirsə götürsün". Birini də mən götürdüm, çünki əlimizdə başqa heç nə yox idi. Tanklar meydana girdi və kənara çəkilib, onu meydana girən ikinci BTR-in üstünə atdım. Atmağımla kiçik qardaşıma dedim ki, başımızı ağacın gövdəsinə qoyaq, çünki işıq projektorunu çöndərib güllə atırdılar. Özüm uzandım, qardaşımı da yanımda uzandırdım ki, nəsə olsa mənə olsun, ona heç nə olmasın. Bir saniyə keçmədi, gördüm ki, sol ayağım sallandı. Bədənə girib bomba kimi partlayan güllə atılmışdı. Həmin an yanımıza bir nəfər gəldi, dedi "narahat olma mən həkiməm" və iynə vurdu. Ayağımı xilas edən o iynə oldu. Sonradan qardaşım bir nəfərin köməyi ilə məni Respublika Xəstəxanasına apardı".

S.Əlizadə vurğulayıb ki, silahsız insanları qətlə yetirmək vəhşilikdir:

"Oradan bir zabit çıxıb deyə bilərdi ki, dağılışın və yaxud tələblərinizi yazılı sürətdə verin, nümayəndə göndərin və s. Lakin onlar amansızlıqla insanları öldürməyi üstün tutdular. Məni xəstəxanaya apardılar. İşıqlar söndürüldüyü üçün həkimlər qəzet yandırıb, məni onun işığında əməliyyat edirdilər. Onlar ilk dəfə güllə yarası görürdülər. Bütün xəstələr ayağa qalxmışdı ki, yerlərini həmin gün yaralı vəziyyətdə gətirilənlərə versinlər. Xəstəxananın bütün qapılarını bağlamışdılar, çünki hərbçilərin gələcəyini bilirdilər. Hərbçilər gəlib xəstəxananın qapılarını döyürdülər ki, açsınlar. Onlar izi itirmək istəyirdilər. Yaralı, şəhid varsa aparmaq istəyirdilər. Plan belə idi, hərbi gəmilər Bakı buxtasına girməli və onlar daşınmalı idi. Burada isə böyük qəhrəmanlıq bizim gəmiçilərin üzərinə düşdü. Onlar, gəmi kapitanı Sabit Orucov başda olmaqla böyük şücaət, qəhrəmanlıq göstərdi. Buxtanı bağladılar, hərbi gəmilərin girməsinə icazə vermədilər".

Həmsöhbətimiz qeyd edib ki, 20 yanvar gecəsi Bakı qan gölünə dönmüşdü, hər tərəfdə yaralı insanlar var idi.

"Hər yerdə silahsız insanların qışqırtıları, harayları eşidilirdi. O gecə sanki insan qırılmırdı, canlıların üstündən keçilirdi. Bununla belə onlar xalqın iradəsini sındıra bilmədilər. Komendant saatında milyonlarla insan şəhidlərin dəfnində iştirak etdi.

Bu gün ona sevinirəm ki, müzəffər Ordumuz Qarabağı geri qaytardı. O zaman biz xəstəxanada yatanda yüzlərlə insan yanımıza gəlirdi. Qarabağda yaşayanlar, Şuşadan, Kəlbəcərdən gələnlər bizi ziyarət edirdilər. Onlarla bərabər məktəblilər gəlirdi. Həmin məktəblilər bu gün Vətən Müharibəsində iştirak edib torpaqlarımızı geri qaytardı. Bizim, şəhidlərin qanını yerdə qoymadılar".

# Ədəbiyyat müsabiqəsinin qalibləri

***Mədəniyyət Nazirliyinin elan etdiyi "Vətənvərpərlik mövzusunda ədəbiyyat müsabiqəsi"nin qalibləri müəyyənləşib.***

Nazirlikdən "Unikal"a verilən məlumata görə, müsabiqəyə 321 əsər təqdim edilib. 53 əsər müsabiqə qaydalarına cavab vermədəyi üçün (bir müəllifin bir neçə janr və müxtəlif kateqoriya üzrə göndərdiyi əsərlər, məqalələr, publisistik yazılar, rus dilində olan ədəbi mətnlər və s.) qəbul olunmayıb.

Müsabiqədə "Peşəkar yaradıcı şəxslər" kateqoriyası üzrə 50, "Həvəskar yaradıcı şəxslər" kateqoriyası üzrə 193, "10-15 yaş arası uşaqlar" kateqoriyası üzrə 25 əsər iştirak edib. 268 əsərdən 67-si esse janrı üzrə, 75-i hekayə janrı üzrə, 126-sı poeziya janrı üzrə iştirakçı olub.

Müsabiqədə obyektivliyi və şəffaflığı təmin etmək üçün təqdim olunan bütün əsərlər və onların müəllifləri xüsusi ştrix ilə şifrələnmişdir. Komissiyanın 9 üzvü tərəfindən 268 əsərin mövzu, bədii və peşəkar yaradıcılıq baxımından dəyərləndirilməsi aparılıb və mətnlərə müəyyən edilmiş qiymətləndirmə cədvəlinə müvafiq olaraq qiymət verilib. "Vətənvərpərlik mövzusunda ədəbiyyat müsabiqəsi"nin komissiyasının fərdi qiymətləndirmə cədvəlinə əsasən alınmış ümumi nəticəyə və komissiyanın yekun qərarına müvafiq olaraq aşağıdakı əsərlər müsabiqənin qalibləri elan edilib.

**"Peşəkar yaradıcı şəxslər" kateqoriyasında**

**Esse janrı üzrə**

Ramil Əhməd "Şuşaya məktub"
Mina Rəşid "Verməręm Qarabağı!"
Cəlil Cavanşir "Nostalgiyanın sonu: Biz qayıdırıq"

**Hekayə janrı üzrə**

Fərhad Kərimli "Bir qucaq torpaq"
Sevinc Nuruqızı "Ölərəm dərdindən, onu bil!"
Təvəkgül Boysunar "Xoşbəxt göyərçinlər, xoşbəxt bayraqlar"

**Poeziya janrı üzrə**

Balayar Sadiq "Şəhid məktubu"
Akif Azalp "Şəhid öygüsü"
Elçin Mirzəbəyli "Azərbaycan əsgəri!"

**"Həvəskar yaradıcı şəxslər" kateqoriyasında**

**Esse janrı üzrə**

Müzəffər Müzəffərli "Üzümüzü ağ edən Qarabağ"
Elgiz Abbasov "Sen gedəli..."
Fidan Gözəlova "Qarabağ Azərbaycandır!"

**Hekayə janrı üzrə**

Tural Azimzadeh "Bozdar əfsanəsi"
Gülmirə Məmmədova "Snayper"
Şəbnəm Türbəndəzadə "Gopçu Mahir"

**Poeziya janrı üzrə**

Yusif Ərəbsoy "Zəfər simvolu"
Mülayim Hümmətova "Atalar və oğullar"
Qabil Əliyev "Çoxdandı Qarabağa belə payız gəlmirdi"

**"10-15 yaş arası uşaqlar" kateqoriyasında**

**Esse janrı üzrə**

Dilbər Rəfi "Qarabağdan namə"
Alpaslan Cahangir "Qarabağdan namə"
İsmayıl Qululu "Qarabağdan əsgər naməsi"
İsmayıl Miryusifzadə "Qarabağ"
Zəhra Rzayeva "Qarabağdan namə"

**Hekayə janrı üzrə**

Abdullah Hüseynli "Kaş ki, yuxum çin olaydı"
Mömünəxatun Məmmədova "Coşqun dəniz"
Aysu Əlisoy "Nə gözəldir ölmək bizə sevgili Vətən üçün"
Ömər Məmmədzadə "Sadəcə Elnur"
Səma Quliyeva "Ana, zəfər bizimdir"

**Poeziya janrı üzrə**

Ayan Əlyarlı "Şəkillərdən gördüyüm Qarabağ"
Nəzrin Cəlilova "Gəlin gedək Qarabağa"
Sadiq Qəzənfərli "Azəri oğlu"
Yeva Fərəcova "Vətən"
Sevindik Əliyev "Zəfərin nişanəsi"

Nazirliyinin müvafiq əmrinə əsasən müsabiqənin "Peşəkar yaradıcı şəxslər" kateqoriyasında hər bir janr üzrə qaliblərə 1500 (bir min beş yüz), "Həvəskar yaradıcı şəxslər" kateqoriyasında hər bir janr üzrə qaliblərə 800 (səkkiz yüz) manat məbləğində pul mükafatı və nazirliyin xüsusi diplomu təqdim olunacaq. "10-15 yaş arası uşaqlar" kateqoriyasında hər bir janr üzrə qaliblərə fəxri fərman və nazirliyin tabeliyində olan muzeylərə bir illik ödənişsiz ziyarət kartı təqdim ediləcək. Qısa müddət ərzində qaliblərin mükafatlandırılması Azərbaycan Respublikasında elan olunmuş xüsusi karantin rejimi və sosial izolyasiya qaydalarına müvafiq olaraq təşkil ediləcək.

***Zaurə Əmirova***

# “Aqrar İnkişaf Könüllüləri” Təşkilatı Qarabağla bağlı layihəyə başlayır

***“Aqrar İnkişaf Könüllüləri” Təşkilatı “AİM-Qarabağ” layihəsinin icrasına başlamağı planlaşdırır. “Unikal” bununla bağlı “Aqrar İnkişaf Könüllüləri” Təşkilatının sədri Kamran Əliyevin müsahibəsini təqdim edir:***

***- Kamran bəy, son illərdə Azərbaycanda könüllülük hərəkatı geniş vüsət alıb. Aqrar sektorun inkişafına ictimai dəstək vermək məqsədilə yaradılan “Aqrar İnkişaf Könüllüləri” Təşkilatının əsas vəzifələri hansılardır?***

- Könüllülük Azərbaycan xalqı üçün yad olmayan bir dəyərdir. Xalqımız əsrlər boyu gündəlik həyatında məhz könüllülük fəlsəfəsi və dəyərlərini özündə rəhbər tutaraq yaşayıb və tariximizin müxtəlif dövrlərində bunun şahidi olmuşuq. Bu hadisələrdən biri də 2020-ci ildə xalqımızın şərəflə tarixə yazdığı Vətən Müharibəsidir. 27 ildən çox düşmən tapdağı altında olan torpaqlarımızın Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə işğaldan azad edilməsinin məhz dövlət başçısı tərəfindən elan edilmiş “Könüllülər ili” ərzində baş tutması, düşmənlə ön və arxa cəbhədə döyüşən könüllülərimizə ayrı bir qürur hissi yaşadırdı. Bu gün cəmiyyətimizdə bilikli, vətənpərvər, kamil və kreativ düşüncəli bir gənclik formalaşmaqdadır.

Son illər ölkədə gənclər arasında könüllülük fəaliyyətinin geniş vüsət alması onların tələbəlik dövrünün özlərini inkişaf etdirməsi və daha məhsuldar keçməsinə maraqlarının artmasından irəli gəlir. Hazırda Azərbaycan gəncliyi müxtəlif istiqamətlər üzrə könüllü fəaliyyətinə qoşula, özlərini maraq göstərdikləri sahə üzrə inkişaf etdirə bilərlər.

2018-ci ildən etibarən fəaliyyətə başlayan “Aqrar İnkişaf Könüllüləri” Təşkilatı regionda və paytaxtda yaşayan gənclərimizin aqrar sahəyə marağının artırılması, habelə onların şəxsi inkişafının təmin edilməsi məqsədilə yaradılıb. Hazırda ölkənin 51 regionunda nümayəndəliyi fəaliyyət göstərən “Aqrar İnkişaf Könüllüləri” Təşkilatına bugünədək 4000-ə yaxın könüllü üzv olub. Təşkilatımız tərəfindən müxtəlif layihə, aksiya və tədbirlərin həyata keçirilməsində 7000-ə yaxın gəncin iştirakı təmin edilib.

***- Azərbaycan gənci Aqrar İnkişaf Könüllüsü olmaq üçün nə etməlidir? Könüllülük fəaliyyətini uğurlu karyeranın başlanğıcı saymaq olarmı?***

- Aqrar İnkişaf Könüllüləri sırasına qoşulmaq üçün 16-26 yaş aralığında olan hər bir gənc veb saytımız (http://agrovolunteers.az )vasitəsilə qeydiyyatdan keçib digər mərhələlərə dəvət olunurlar. Regionlar üzrə DAİM-lərdə fəaliyyət göstərən Aqrar İnkişaf Könüllüləri üç ay ərzində fermerlərdən sorğuların götürülməsi, Elektron Kənd Təsərrüfatı İnformasiya Sisteminin tətbiq edilməsində fermerlərə dəstək göstərilməsi prosesində, aqrar sahə üzrə spesifik təlimlərdə iştirak edərək, bu sahə üzrə biliklərini artırır, vətənpərvərlik istiqamətində müxtəlif aksiya və tədbirlərdə iştirak edirlər.

Gənclərin cəmiyyətdə layiqli iş yeri tapması, sevdikləri işdə uğur qazanmasında onların könüllü kimi fəaliyyətinin rolu danılmazdır. Bu baxımdan, könüllülük fəaliyyəti uğurlu karyeranın təməlidir. Təşkilatımızın üzvləri olan gənclərin cəmiyyətə inteqrasiyası, işlə təminatı baxımından onlara faydalı olub. Hazırkı statistikaya əsasən, 700-dək könüllümüz aqrar sahədə müxtəlif müəssisələrdə işlə təmin olunub və bu sahə üzrə çalışırlar. Aqrar İnkişaf Könüllülərinin 200-ə yaxın məzunu tərəfindən fermer təsərrüfatı formalaşdırılıb, hazırda onlar bu istiqamətdə fəaliyyətlərini davam etdirirlər.

***- Adətən, könüllülük fəaliyyəti üçün daha çox gənclər müraciət edir. Yaşı çox olan şəxslərdən sizin təşkilata üzv olmaq istəyənlər olurmu?***

- Fəaliyyətimiz ərzində qeyd etdiyiniz xarakterli müraciətlər qeydə alınıb. Regionlarda yaşayan könüllülərimizin fəaliyyətinə daim dəstək olan, təsərrüfatlarında ekskursiyalar təşkil edən və öz təcrübələrini bölüşən fermerlərimiz mövcuddur. Həmin fermerlərə göstərdikləri dəstəyi ictimailəşdirərək, onlara minnətdarlığımızı bildirmək məqsədilə “Ayın könüllü fermeri” layihəmizə start vermişik. Bu layihə çərçivəsində qeyd etdiyimiz istiqamətdə fəaliyyət göstərən fermerləri müəyyənləşdirərək, aidiyyəti üzrə “Ayın könüllü fermeri”ni seçəcəyik.



***- 2020-ci ilin ölkəmizdə “Könüllülər ili” elan edilməsi təşkilatın fəaliyyətinə necə təsir göstərdi?***

- 2020-ci il ərzində Aqrar İnkişaf Könüllüləri ölkədə karantin rejimi müəyyən olunmamışdan öncə “Gənc Əkinçilər”, “Laza Qış Düşərgəsi” və region nümayəndələri tərəfindən müxtəlif təlimlər, ekskursiyalar həyata keçirib. Mart ayından etibarən ölkədə koronavirus pandemiyasının yayılması və kütləvi tədbirlərin təxirə salınması ilə Aqrar İnkişaf Könüllüləri də fəaliyyətini məhdudlaşdırmaq məcburiyyətində qalsa da, Prezidentin “Könüllülər ili”ndə könüllülərə çağırış edərək, pandemiya ilə mübarizə tədbirlərində aktiv olmağa dəvət etməsi, Nazirlər Kabineti yanında operativ qərargahın qərarına əsasən, bir sıra məhdudiyyətlərin tətbiq olunmasına baxmayaraq, Aqrar İnkişaf Könüllülərinin hərəkətinə icazənin verilməsi bu istiqamətdə bizim var gücümüzlə çalışmağımızı stimullaşdırdı.

Nəticədə, təşkilatımız tərəfindən müxtəlif layihələrin icrasına başlanıldı. Belə ki, könüllülərimiz tərəfindən karantin dövründə “Kənd Sovqatı” layihəsi çərçivəsində müxtəlif özəl şirkətlərin dəstəyi ilə 700-dən çox aztəminatlı ailəyə ərzaq yardımı çatdırıldı.

Bundan başqa, yaşı 65-dən yuxarı olan fermerlərimizin xüsusi risk qrupuna aid edilməsini nəzərə alaraq, həmin yaş qrupuna məxsus fermerlərimizin ehtiyaclarının öyrənilməsi və bu ehtiyacların təminatına dəstək göstərmək məqsədilə tərəfimizdən “Fermerin Dostu” layihəsi həyata keçirilib. Layihə çərçivəsində ümumilikdə 500-dən çox fermerə könüllülərimiz tərəfindən sosial xidmət göstərilib.

Həmçinin, xüsusi karantin rejimi müddətində gənclərin vaxtlarının səmərəli təşkil olunması, “evdə qal” çağırışına dəstək məqsədilə “Oxu Paylaş” aksiyası həyata keçirilib. Aksiyada bugünədək 300 nəfərdən çox gənc iştirak edib və öz sevdikləri kitablar haqqında qısa videolar çəkərək, digər gənclərlə fikirlərini bölüşüblər. Aksiyaya fermerlər, tanınmış şəxslər də qoşulub. Eyni zamanda, karantin dövründə fermer təsərrüfatlarının effektivliyini artırmaq üçün təşkilatımız tərəfindən “Öyrənən Fermer” layihəsi çərçivəsində onlayn məsləhət xidməti fəaliyyətə başlayıb. Təlimlər Kənd Təsərrüfat Nazirliyinin müxtəlif Elmi-Tədqiqat İnstitutlarının tərəfdaşlığı ilə keçirilib.

Ənənələri əsas tutaraq aqrar sahədə yaradıcı fəaliyyətin stimullaşdırılması məqsədilə “Aqroart” Proqramının icrasına başlanılıb. Proqram çərçivəsində uşaqların aqrar sahəyə marağının artırılması məqsədilə “Kids Agro Art” layihəsi keçirilib. Proqram çərçivəsində aqrar sahə üzrə incəsənət nümunələri, filmlər, şəkillər, festivallarda hazırlanmış ekspozisiyalar haqqında mütəmadi olaraq məlumatlar paylaşılıb. Həmçinin, plastik tullantılardan istifadə etməklə yaradılan incəsənət nümunələri ilə bağlı müxtəlif məlumatlandırıcı videolar hazırlanıb.

Ötən il gənclərin aqrar sahə üzrə biliklərin artırılması, aqrar sahədə kadr potensialının inkişafına dəstəyin göstərilməsi məqsədilə peşəkar mütəxəssislər ilə birgə ölkə üzrə gənclər üçün fikir mübadilə platforması olan Aqrar İnkişaf Könüllülərin I Ümumrespublika Veb Forumu təşkil olunub. Forumda 100 gənc iştirak etdi. Forum müddətində gənclər mütəxəssislərin vasitəsilə lazımi biliklərə yiyələndilər və peşəkar kadrların təcrübələri ilə tanış olmaq imkanı əldə edə bildilər.

Əsas məqsədi gənclərin aqrar sahə barədə məlumatlandırılması, qeyri-neft sektorunun inkişaf etdirilməsi olan və “Azərbaycan Gənclər Fondunun” dəstəyilə həyata keçirilən “Səyyar Aqro Məktəb” layihəsi çərçivəsində mütəxəssislər tərəfindən iştirakçılara təsərrüfatların yaradılması, idarə edilməsi və gələcəkdə inkişaf etdirilməsi, aqrar təhsilin önəmi və imkanlar haqqında geniş məlumat verilib. Layihə Zaqatala, Şəki, Qax, Balakən, Oğuz və Şamaxı rayonlarında həyata keçirilib. Layihədə 300 gənc iştirak edib.

Vətən Müharibəsi başlandığı gündən etibarən “Aqrar İnkişaf Könüllüləri” Təşkilatının və “ASAN Könüllüləri” Təşkilatının təşəbbüsü, “Azərbaycan Könüllü Təşkilatları” İttifaqının dəstəyilə “Mətbuat Səngəri” platforması fəaliyyətə başlayıb.

Layihə Qarabağ haqqında həqiqətləri dünyaya çatdırmaq, Ermənistan mediasının yaydığı dezinformasiyaların qarşısını almaq, vətənpərvərlik ruhunun təbliğini özündə ehtiva edib. Layihə çərçivəsində ümumilikdə 100-dən çox gənc bir araya toplaşaraq, Qarabağ haqqında həqiqətləri və Ermənistan tərəfindən törədilən təxribatlar haqqında məlumatları “Twitter”, “Facebook” platformaları vasitəsilə dünyaya çatdırırdılar.

Məlum olduğu kimi, şanlı qələbə ilə yekunlaşan Vətən Müharibəsində 2855 soydaşımız qəhrəmancasına vuruşaraq, şəhidlik zirvəsinə ucalıblar. Aqrar İnkişaf Könüllüləri olaraq ölkə ərazisində şəhidlərimizin xatirəsinə həsr olunmuş ağacəkmə aksiyasına start verdik. Aksiya çərçivəsində hər bir bölgəmizdə qəhrəmanlarımızın ruhunu şad etmək və gənclərimizə vətənpərvərlik ruhunu aşılamaq məqsədilə şəhidlərimizin sayı qədər ağac əkilib.

Ötən il ən vacib hadisələrdən biri də təşəbbüs qrupunda Aqrar İnkişaf Könüllülərinin yer aldığı Azərbaycan Könüllülərinin Əlaqələndirmə Mərkəzi yaradıldı. Mərkəz çərçivəsində “Böyüklərimizi qoruyaq”, “Könüllü Qonşu”, “Birbirimizi qoruyaq”, “Könüllü donor” aksiyaları həyata keçirilib və Aqrar İnkişaf Könüllüləri bu proseslərdə xüsusi aktivlik göstəriblər.

***- Torpaqlarımızın işğaldan azad edilməsi fəaliyyətinizə necə təsir edəcək? Bu il üçün planlarınız nələrdən ibarətdir?***

- Öncə nəzərinizə çatdırmaq istərdim ki, Vətən Müharibəsində cəbhəyə yollananlar arasında 11 nəfər Aqrar İnkişaf Könüllüsü var. Könüllülərimizdən iki nəfər ərazi bütövlüyümüzün bərpası uğrunda qəhrəmancasına şəhid olub.

Şəhid olan könüllülərimizin xatirəsini əbədiləşdirmək məqsədilə “ZəfərimİZin memuarları” layihəsinə başlamağı planlaşdırırıq. Layihə çərçivəsində şəhidlərimizin ailə üzvlərindən, eləcə də, qazilərimizin keçdikləri döyüş yolu ilə bağlı məlumatlar ictimaiyyətə açıqlanacaq, onların göstərdikləri qəhrəmanlıq və şücaətdən bəhs olunacaq.

Bundan başqa, ən mühüm layihələrimizdən biri olan, işğaldan azad olunan ərazilərdə kənd təsərrüfatının inkişaf etdirilməsinə dəstək göstərmək məqsədilə Azərbaycan Gənclər Fondunun tərəfdaşlığı ilə “AİM-Qarabağ” layihəsinin icrası nəzərdə tutulur. Layihə çərçivəsində işğaldan azad edilmiş ərazilər üzrə qeydiyyatda olan 50 gəncin müəyyən ediləcək, mütəxəssislər tərəfindən onlara təlimlərin keçirilməsi, həmin gənclərə öz doğma torpaqlarında fermer təsərrüfatlarının formalaşdırmaları istiqamətində dəstəyin göstərilməsi planlaşdırılır.

Bundan başqa, bu ərazilərin tarixən Azərbaycan xalqına məxsus olması, Azərbaycan tarixini dünya ictimaiyyətinə tanıtmaq məqsədilə Azərbaycan Respublikasının Gənclər Fondunun dəstəyilə üç dildə (rus, inglis və fransız) “Keçmişin gələcəyi” adlı animasiya filmi üzərində işləyirik. Bu filmi yaxın zamanlarda ictimaiyyətə təqdim edəcəyik. Filmdə Səfəvilər dövründən bu günədək baş verən proseslər, tarixi-mədəni irsimiz haqqında məlumatlar öz əksini tapacaq. Ümid edirəm ki, bu film Azərbaycan həqiqətlərinin dünyaya tanıdılması işinə az da olsa töhfə vermiş olacaq.

***- Bu ilin “Nizami Gəncəvi ili” elan edilməsi fəaliyyətinizdə hansı dəyişikliklərə səbəb olacaq?***

- Fəaliyyət göstərdiyimiz dövrdə könüllülərimizə milli-mənəvi dəyərlərin aşılanması istiqamətində daim iş aparmışıq. Hazırda cari il ərzində bu istiqamətdə görəcəyimiz işlər arasında Nizami Gəncəvinin həyat və yaradıcılığının könüllülərimiz və fermerlərimiz arasında təbliğ etmək də var. Belə ki, Nizami Gəncəvi Azərbaycan ədəbiyyatına dəyərli əsərlər bəxş edib.

Dahi şairin “Xəmsə”si ədəbiyyatımızın inkişafında, dünya miqyasında tanınmasında çox mühüm rol oynayıb. Nizami Gəncəvi ili çərçivəsində fermerlərlə sorğu və maarifləndirmə işləri aparılacaq, şairimizin həyatı və yaradıcılığı haqqında onlara məlumatlar veriləcək. Könüllülərin bacarıqlarının üzə çıxması və onların inkişafında mühüm rol oynayacağını nəzərə alınaraq, Nizami Gəncəvinin şeirləri əsasında “Könüllülər arasında şeir yarışması”nı həyata keçirməyi planlaşdırırıq. Həmçinin, dahi şairimizin anadan olmasının 880 illik yubileyi ilə əlaqədar 880 ağacın əkilməsini nəzərdə tuturuq.

***“Gülə-gülə dedi ki, Xocalının qisasını almışam. Murovdan Kəlbəcərin qoxusu gəlir”. Vətən müharibəsində Azərbaycanın yeni qələbə tarixini yazan igidlərimizdən biri də Xüsusi Təyinatlı Qüvvələrin giziri, şəhid Şəhriyar Abdullayev olub. O, Murov yüksəkliyinin, Füzulinin, Hadrutun, Cəbrayılın azadlığı uğrunda qəhrəmancasına döyüşüb. Ölümündən sonra “Vətən uğrunda”, ”Döyüşdə fərqlənməyə görə”, “Cəbrayılın azad olunmasına görə”, “Kəlbəcərin azad olunmasına görə” medalları ilə təltif olunub.***



# Hadrut qəhrəmanı: “Ermənilər onu nişan alıb vura bilmirdi”

Şəhriyar Abdullayev 1987-ci ilin martın 2-də Tərtər rayonunun Cəmilli kəndində anadan olub. Sonradan ailəsi Kəlbəcər rayonunun Məmmədsəfi kəndinə köçüb. O, doğma kəndini düşmən tapdağından azad etmək, 30 illik yurd həsrətinə son qoymaq üçün döyüşlərə qoşularaq işğalçıların başına od ələyib.



Şəhidin xanımı: “1993-cü ildə Kəlbəcər işğal olunandan sonra ailəsi yenidən Tərtərin Cəmilli kəndinə köçüb.1999- cu ildən isə Daşkəsən rayonunun Bayan kəndində məskunlaşıblar. Orta məktəbi orada bitirib, sonra hərbi xidmətə gedib. 2012-ci ildən Xüsusi Təyinatlı Qüvvələrdə gizir kimi xidmətə başlayıb. Kəşfiyyatçı idi. Aprel döyüşlərində də iştirak edib, general-leytenant Hikmət Mirzəyev tərəfindən medal və diplomla təltif olunub.

Vətən müharibəsindən əvvəl onları 9 günlük məzuniyyətə buraxdılar. Bizi rayondan şəhərə gətirdi, gəzdirdi, övladlarımıza geyimlər aldı və sentyabrın 25-i yenidən rayona qaytardı. Sentyabrın 26-da sağollaşıb gedəndə dedi ki, “uşaqlara yaxşı bax, mən necəyəmsə, sən də elə ol”. Çıxanda mənimlə görüşmədi. Bunun səbəbini soruşdum. Bildirdi ki, vidalaşmağı xoşlamır və tezliklə geri qayıdacaq. Növbəti dəfə ayın 27-si gecə saat 1-də zəng edib dedi ki, telefonuna zəng çatmasa, narahat olmayaq. Bir də məndən halallıq istədi.

Evdən ayrılıb gedəndə müharibə haqqında heç nə deməmişdi. Ancaq hiss edirdim ki, nəsə olacaq, hazır idim. Qonşular da deyirdi ki, sənin gözlərində qəm, kədər var. Ayın 10-da mən hamıya yazırdım ki, bu gün pis xəbər eşidəcəm”.

Şəhid xanımı həyat yoldaşı ilə sonuncu dəfə ölümündən bir saat əvvəl danışıb.

Zülfiyyə Abdullayeva: “Oktyabrın 10-da saat 10-a 10 dəqiqə qalmış mənə şəklini göndərdi və vəziyyət etdi. Bildirdi ki, mənə arxayındır, uşaqlarımızı qoruyum və ona nəsə olsa, başımı dik tutum, əyilməyim. Mənimlə yazışandan bir saat sonra, saat 11-ə 10 dəqiqə qalmış Hadrut alındıqdan sonra yüksəkliklərdə aparılan döyüşlərdə şəhid olub. Qonşular bilib, amma mənə deməyiblər. Sonuncu yazışmada böyük qızımız Zəhranın canına and içdi ki, iki gündən sonra evə gələcəyəm. Dediyi vaxtda evimizə onun tabutu girdi.

Üzbəüz döyüşdə birinci dəfə güllə “kaska”sına dəyib. Deyiblər ki, yerə uzan, uzanmayıb. Növbəti gülləni üzündən vurublar. Elə vəziyyətdə yenə atışma davam edib. Daha sonra alnından vurublar və həmin an canını tapşırıb. Bir təsəllim var ki, əzab çəkməyib”.

Şəhidin döyüş yoldaşı (hazırda xidmətdə olduğundan adının açıqlanmasını istəmədi - red) Şəhriyarın qəhrəmanlığından danışaraq, onunla bağlı xatirələrini bölüşüb:

“Əsl qəhrəmandır. Düşmənin üstünə qışqıraraq, yürüyərək gedib şəhid oldu. Hadrutun yüksəkliklərinin alınmasında böyük əməyi var. Ondan əvvəl də Horadiz, Daşkəsən, Kəlbəcər ərazilərində, Murovun ətəklərində qəhrəmancasına döyüşlərdə iştirak edib. Sonuncu döyüşündə təxminən 10-dan çox düşmən əsgərini məhv edib, sonra şəhid oldu. O elə qəhrəman idi ki, ermənilər onu asanlıqla nişan alıb vura bilmirdi. Biz Hadrutdakı yüksəkliyi alanda xəbər tutduq ki, Şəhriyar şəhid olub”.

Şəhidimizin 4 və 5 yaşlarında iki qızı yadigar qalıb. Onun övladları ilə bağlı böyük arzuları, planları var idi...

Zülfiyyə Abdullayeva: “Böyük qızımı həkim, kiçik qızımı isə polis kimi görmək istəyirdi. Deyirdi, onların tərbiyyəsi sənlikdir. Görüm, qızlarımı necə böyüdəcəksən. Döyüş yoldaşları danışır ki, həyatda necə idisə, döyüşdə də elə haylı-küylü adam idi. Qorxmadan, çəkinmədən döyüşürdü. Mən ona son danışığımızda dedim ki, ehtiyatlı ol. Cavabı isə belə oldu: ”Mən ehtiyatlı olum, o ehtiyatlı olsun, bəs bu torpaqları kim alsın?”.

Ayın 9-u zəng edəndə mənə gülə-gülə dedi ki, “Xocalının qisasını almışam”. Sonra əlavə etdi ki, “Murovdan Kəlbəcərin iyini alıram”. Yenə də xahiş etdim ki, ehtiyatlı ol. Bildirdi ki, bu dəfə qayıdış yoxdur. Hamı onun ölümünə yanır. Haylı-küylü, çox sadə, qayğıkeş insan idi. Övladlarım cəmi 4-5 il ata nəfəsini duydular, amma bir ömür onların bəsləridir. Yoldaşım həqiqətən bizə şərəfli ad qoyub getdi”.



# Oğlu döyüşdən qayıdan ananın sevincdən ürəyi dayandı

## Şəhid anası: “Oğlunun gəlişi münasibətilə şirniyyatlar bişirmişdi. Ancaq qismət olmadı, öz yasında süfrəyə qoyuldu”

***Nurlan Quliyev 1998-ci ildə Bakının Kürdəxanı qəsəbəsində anadan olub. O, Vətən müharibəsi iştirakçısıdır. Hadrut, Xocavənd, Şuşa və Laçın uğrunda döyüşüb. Bir neçə gün əvvəl - yanvarın 14-də tərxis olunaraq evinə qayıdıb.***

Ancaq Nurlan digər qalib əsgərlər kimi qələbə sevincini ailəsi ilə birlikdə yaşaya bilməyib. 3 aydan sonra evə qayıdan könüllü əsgər onu qucaqlayıb bağrına basan anası Əfqanə xanımı itirib.

Nəcibə Babayeva Azvision.az-a bildirib ki, bacısı Əfqanə Quliyeva 46 yaşında dünyasını dəyişib. O, 3 aydan çox idi ki, döyüşə gedən oğlunun yolunu gözləyirdi.

Ailə üzvləri, qohumlar, kənd sakinləri ona təskinlik versələr də, övlad həsrətini heç nə ilə ovuda bilmirdilər. Oğlunun evə qayıtdığı gün həyəcandan yerə-göyə sığmayan ana Nurlanı bağrına basdıqdan bir neçə dəqiqə sonra ürək tutmasından dünyasını dəyişib.

Nəcibə Babayeva: “Bir gün qabaq bacımgilə gəldim ki, Nurlanı birgə qarşılayaq. Həm də Əfqanəni sakitləşdirmək istəyirdim. Üç ay yarım idi ki, bala həsrəti çəkirdi, çox darıxırdı. Övladı ilə bir gün əlaqə kəsilən kimi özünə yer tapmırdı. Deyirdi, bircə səsini eşidim ki, sağdır. Yanvarın 14-ü həyəcanlı idi, əlində “Qurani Kərim” evdə gəzişirdi. Axşam oğlunu təntənə ilə qarşılayıb gətirdilər. Balasını öpüb bağrına basdı. Birdən bacımın halının dəyişdiyini, boğulduğunu gördüm. Qışqırdım ki, təcili yardım çağırın. Bir saat sonra təcili yardım gəldi, ancaq heç nə edə bilmədilər. Əfqanə artıq keçinmişdi. Bizim anamız yox idi, o,mənim sirdaşımı idi. Mən həm də dostumu itirdim”.

Elnarə Quliyeva ailənin qız övladıdır. Onun sözlərinə görə, anasının ölümü hər kəsi sarsıdıb: “Biz ailədə iki uşaq olmuşuq. Mənim 25 yaşım var, ailəliyəm. Anamla qardaşım bir-birilərinə çox bağlı idilər. Qayıdan kimi onu evləndirmək istəyirdi, arzuları çox idi. İndi hər kəs şok vəziyyətindədir, vəfatı hamını sarsıtdı. Qardaşım da özünü bağışlamır, ancaq onun günahı yoxdur.

Bronxial astma xəstəliyi var idi, amma bu vaxta qədər hər hansı ürək problemi və ya ağrısı olmayıb. Çox nigaran idi, deyirdi, “təki balam gəlsin, mənə nə olur olsun”. Atam anamı təsəlli edirdi, qoruyurdu, bir dəqiqə tək qoymurdu”.

Ailənin yaxın qohumu Lətif Quliyev əmisi gəlininin vaxtsız ölümündən kədərləndiyini bildirib: “Bu, ana sevgisindən irəli gələn bir məsələdir. Namazı, duası ilə balasını ölümdən qorudu, amma özü şəhid oldu. Bizim ailənin gözündə Əfqanə xanım bir şəhiddir. Ananın balaya olan sevgisi bu cür nəticələndi. Oğlunun gəlişi münasibəti ilə şirniyyatlar bişirmişdi. Deyirdi, hamıya paylayacaq. Ancaq qismət olmadı, öz yasında süfrəyə qoyuldu”.

***Şahanə Rəhimli***

# Ərdoğan yeni administrasiyanın siyasətinə uyğunlaşmalıdır

## ANKARANIN CƏNUBİ QAFQAZDAKI SİYASƏTİ NECƏ POZULA BİLƏR?

***Yanvarın 20-də ABŞ Prezidenti Co Baydenin andiçmə mərasimindən sonra xarici siyasət mütəxəssisləri son illərdə uzun şikayət siyahısı ilə yadda qalan ABŞ-Türkiyə münasibətlərində yenidənqurma gözləyirlər.***

Suriya münaqişəsi, Ankaranın 2019-cu ildə Rusiya istehsalı olan "S-400" raket sistemini satın alması və digər məsələlərlə bağlı fikir ayrılığının nəticəsi olaraq, ənənəvi NATO müttəfiqləri arasındakı məsafə artıb və Bayden rəhbərliyi fikir ayrılığı nöqtələrini həll etmək üçün - Ankaranı özündən daha da uzaqlaşdırmadan - həssas bir tarazlıq yaratmalıdır.

Prezident Donald Tramp türkiyəli vəzifədaşı Rəcəb Tayyib Ərdoğanla ümumi dil tapsa da, analitiklər Bayden komandasının qarşıdakı aylarda ikitərəfli əlaqələrdə daha sərt bir mövqe tutacağını gözləyirlər.

ABŞ-ın yeni dövlət katibi Antoni Blinken yanvarın 19-da Vaşinqtonda "S-400" alışından sonra Türkiyənin strateji tərəfdaş statusuna şübhəni vurğulayıb. "Sözdə strateji tərəfdaşımızın ən böyük strateji rəqiblərimizdən biri olan Rusiya ilə ortaqlığı fikri qəbuledilməzdir".

Blinken yeni komandanın ABŞ-ın keçən ay tətbiq etdiyi sanksiyaların təsirlərini qiymətləndirəcəyini söyləyib. "Satınalmaya cavab olaraq tətbiq edilməsi lazım olan daha çox şeyin olub-olmadığını müəyyənləşdirəcəyik".

Yeni "S-400"-lər ABŞ rəsmiləri üçün narahatlıq nöqtəsi olaraq qalır.

Bir çoxları radar sistemlərinin bölgədəki NATO hərbi texnikasına təhdid olduğunu söyləyib. Vaşinqton İnstitutunun Türkiyə Araşdırmaları Proqramının direktoru Soner Cagaptayın fikrincə, bu məsələ yaxın vaxtlarda həll olunmaz qalacaq.

"Ərdoğanın hazırda bu razılaşmadan uzaqlaşmasının heç bir yolu yoxdur. Kursun dəyişməsi Ərdoğanın Rusiya prezidenti Vladimir Putinlə əlaqələrini və Ankaranın Cənubi Qafqazda, habelə türk qüvvələrinin aktiv oduğu Liviya və Suriyakı maraqlarını poza bilər".

Çaqaptayın sözlərinə görə, Ərdoğan ikitərəfli əlaqələri gücləndirməyə çalışacaq. "Ərdoğan forma dəyişdiricidir. O, ABŞ prezidentlərinin türkiyəli vəzifədaşından görmək istədiyi şəkli alacaq. Bayden üçün o, qlobalist, islahatçı, xilaskar olacaq".

Bununla belə, dostluq münasibətlərinə aparan yolda bir çox problem var. Tramp administrasiyası Ankaranın Aralıq dənizinin şərqindəki mübahisəli bölgələrdə enerji axtarışı fəaliyyətini qınayıb və Aİ-Türkiyə əlaqələri, ehtimal ki, Vaşinqtonda gələcək siyasi qərarlara təsir göstərəcək. 2016-cı ilin çevriliş cəhdindən sonra baş verən qanunsuzluqlar da. "New York Times"-a 2019-cu ildə verdiyi bir müsahibədə Bayden türk liderini "avtokrat" adlandırıb.

Ankaranın nöqteyi-nəzərindən ABŞ Ərdoğanın uğursuz çevrilişi təşkil etməkdə günahlandırdığı Fətullah Gülənin ekstradisiya tələbini yerinə yetirməyib. Eyni zamanda, ABŞ-ın Suriyada kürd milislərinə verdiyi dəstək onları qanunsuz Kürdüstan Fəhlə Partiyasının qolu olaraq görən Ankarada təhlükəsizlik narahatlığını artırıb.

Baydenin Brett MakQurku ABŞ-ın Yaxın Şərq siyasətinin rəhbəri təyin etməsi (əvvəllər o, Suriyada İŞİD-i məğlub etmək üçün kürd döyüşçüləri ilə əməkdaşlığı dəstəkləyib) türk millət vəkilləri arasında narahatlıq doğurub.

Əlavə olaraq, martın 1-də dövlətə məxsus "Halkbank"-ın ABŞ-ın İrana qarşı tətbiq etdiyi sanksiyaları pozması ilə bağlı məhkəmə prosesi başlayacaq və bu, Türkiyə iqtisadiyyatı üçün yeni sanksiyalara səbəb ola bilər.

Amerika Tərəqqi Mərkəzinin milli təhlükəsizlik və beynəlxalq siyasət üzrə direktoru Maks Hoffman son hesabatında ABŞ və Türkiyənin fikir ayrılıqlarını azaltmaq üçün potensial yolları açıqlayıb. O yazıb ki, Birləşmiş Ştatlar "dayandırıla bilməyən eskalator dövrlərini ləngitməyə, çox vaxt emosional mübahisələrə səbəb olanları bürokratlaşdırmağa və ölkələrin qarşılaşdığı bir çox ayrı fikir ayrılıqlarını bölüşməyə" çalışmalıdır.

Hoffman "Al-Monitor"-a bildirib: "ABŞ-ın marağı bir sıra məsələlərdə əməkdaşlıq edə biləcəyi və Türkiyə iqtisadiyyatına ciddi ziyan vuracaq cəza tədbirlərinin irəli sürülmədiyi, sabit, demokratik bir Türkiyədədir".

O əlavə edib: "Ərdoğanın Qərb və ya imperialist müdaxiləyə müqavimət iddialarına dair kifayət qədər dəlillərimiz var və bu, türk vətəndaşları arasında ABŞ-a qarşı mənfi hissləri gücləndirir".

Vaşinqtonda yerləşən Yaxın Şərq Demokratiyası Layihəsinin Türkiyə proqramı koordinatoru Merve Tahiroğlunun sözlərinə görə, yeni administrasiyanın ABŞ-da və xaricdə demokratik hüquqlara və qurumlara yenidən vurğu etməsi gözlənilir. "Bayden Türkiyəni ABŞ tərəfdaşı kimi qəbul və mümkün olduğu qədər onunla əməkdaşlıq etmək istəsə də, bu əməkdaşlıq son nəticədə Ərdoğanın Türkiyədə və qonşuluğunda demokratiyaya və insan haqlarına hörmətdən asılı olacaq".

***Dieqo Kapulo***
***"Al-Monitor", 20.01.2021***

# BAYDENDƏN DÜNYAYA AÇIQ MESAJLAR

## ABŞ-ın yeni prezudenti:"Daha güclü, örnək və lider ölkə olacağıq"



***Çərşənbə günü Vaşinqtonda koronavirus pandemiyası səbəbi ilə miqyası azaldılmış inaqurasiya mərasimində Co Bayden ABŞ-ın yeni prezidenti, Kamala Harris isə ilk qadın vitse-prezidenti olaraq and içiblər.***

"Unikal" "Amerikanın Səsi"nə istinadla xəbər verir ki, mərasim ənənəyə uyğun olaraq, Kapitoli qarşısında yüksək rütbəli dövlət rəsmiləri və görkəmli siyasi xadimlərin iştirakı ilə keçirilib.

78 yaşlı Bayden 36 il senator, 8 il vitse prezident qismində fəaliyyət göstərdikdən sonra ölkə tarixində ən yaşlı prezident olaraq fəaliyyətə başlayır.

Soyuq yanvar günündəki andında Bayden ABŞ Konstitutsiyasına riayət edəcəyini, ölkəni bütün düşmənlərdən qoruyacağını bəyan edib.

Birlik notunda söylədiyi nitqdə Bayden "bütün amerikalıların" prezidenti olacağını, ölkədə qütbləşməyə son qoymaq üçün çalışacağını vəd edib.

Ondan az öncə isə Kaliforniya ştatını təmsil etmiş sabiq senator Kamala Harris vitse-prezident kimi and içib. O, iki əsrdən çox müddətlik ABŞ tarixində ən yüksək vəzifə tutan qadındır. Harrisin etnik mənşəyi Afrika və Hindistandan qaynaqlanır.

Öz inauqurasiya nitqində Bayden deyib: "Bu gün Amerikanın, demokratiyanın günüdür. Bu gün namizədin deyil, hədəflərin zəfərini qeyd edirik. Məqsəd demokratiyadır. Xalqın iradəsi dinlənildi. Yenidən demokratiyanın qiymətli, kövrək olduğunu anladıq. Və bu saat dostlar, demokratiya qalib gəldi".

Bayden bildirib ki, hələ qarşıda görəcəkləri çox işlər var: "Önümüzə baxırıq. Vacib imkanlar var. Çox məsələləri yaxşılaşdırmalıyıq, yenidən inşa edib, qazanmamız lazımdır. Daha güclü olacağıq".

Bayden daha sonra dünyaya səslənib: "Bütün dünya bizi seyr edir. Sərhədlərimizin kənarında olanlara səslənirəm: biz bir kəs daha müttəfiqlərimizlə birlikdə çalışacağıq. Dünənki deyil, bu günün və sabahın çətinliklərinə baxacağıq. Örnək olaraq liderlik göstərəcəyik, örnək bir ölkə olacağıq. Güclü və güvənilən tərəfdaş olacaq, sülh və rifah üçün hərəkət edəcəyik".

Ölkədə son illərdə dərinləşən siyasi qütbləşməyə toxunan Bayden qeyd edib: "Siyasət öz yolundakı hər şeyi yandırıb yaxan alov olmalı deyil. Hər bir fikir ayrılığı total müharibə üçün əsas olmalı deyil. Və biz faktların manipulyasiya olunduğu, hətta uydurulduğu mədəniyyəti rədd etməliyik."

Andiçmə mərasiminə Birləşmiş Ştatların üç sabiq prezidenti - Barak Obama, Corc W. Buş və Bill Klinton qatılıb. Vəzifəsini tərk etməkdə olan Donald Tramp 152 il sürən ənənədən ayrılaraq, varisinin andiçmə mərasmində iştirak etməyib. Vitse Prezident Mayk Pens isə mərasimdə olub.

Budəfəki inaqurasiya mərasimi, adəti üzrə olduğu kimi, Kapitolidən Milli Xiyabana qədər yüz minlərin izdihamı ilə müşayiət olunmayıb. Onun yerinə ABŞ-ın ştat və bölgələrini təmsil edən 200 min bayraq taxılıb.

Vəzifəyə başlamazdan əvvəl Bayden xalqa ABŞ-da 400 min insanın ölümünə və iqtisadiyyatda böhrana səbəb olan pandemiyanın qarşısında dayanmaqla bağlı birlik mesajını çatdırmışdı.

"Sağalmaq üçün bunu xatırlamalıyıq. Bəzən xatırlamaq çətin olur, lakin biz bu şəkildə sağala bilərik" - deyə, Bayden pandemiya səbəbindən həyatlarını itirənlərin xatirəsini anmaq üçün təxminən 400 işığın yandırıldığı Linkoln Memorialının qarşısında etdiyi çıxışı zamanı bildirib.

"Bunu bir dövlət olaraq etməliyik, bu səbəbdən bu gün buradayıq. Gün batandan gün doğana qədər qaranlıqda bu hovuz boyunca işıqları yandıraraq, itirdiklərimizin hamısının xatirəsini anaq,"- Bayden deyib.

"Bir millət olaraq qarşılaşdığımız böhranlarla mübarizə aparmaq üçün bir saniyə belə itirməməliyikr" deyərək, and içdikdən sonra dərhal işə başlayacağına söz verib

Bayden və həyat yoldaşı Cill, Kamala Harris və əri Doq Emhoff birlikdə çərşənbə günü Vaşinqtondakı "St. Matthew the Apostle" kilsəsindəki ibadətdə iştirak edib.

İbadətin başlandığı vaxt vəzifəsindən gedən prezident Donald Tramp Ağ Evi tərk edib və Floridadakı iqamətgahına yola düşüb.

Bir gün öncə Özünün Oval Ofisdə son tam günündə Prezident Donald Tramp varisi Demokrat Co Baydenə onun adını çəkmədən dualarını və xoş arzularını çatdırıb.

"Bu həftə biz yeni administrasiyanı inauqurasiya edirik və Amerikanı təhlükəsiz və firavan saxlamaq üçün onun uğuruna dua edirik," - Tramp prezidentlik dönəminin bitməsinə 20 saat qalmış internetdə yerləşdirdiyi videoda deyib: "Biz həm də xoş arzularımızı çatdırırıq. Və biz istəyirik ki, onların bəxti gətirsin - çox mühüm sözdür."

**Ermənistan-Azərbaycan, ərazilərin işğaldan azad olunması haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi.**




# Qarabağı həm dirçəltməli, həm də bu həqiqətləri dünyaya car çəkməliyik!

## Musa Quliyev: "Azərbaycan Ermənistanın işğalçı simasını viran qoyduğu yurd yerlərini dünyaya nümayiş etdirməklə göstərməlidir"

***Azərbaycan 28 ildir ki, Dağlıq Qarabağ həqiqətlərini, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi zamanı işğalçı dövlətin həmin ərazilərdə törətdiyi vəhşiliklər barədə dünya ictimaiyyətini məlumatlandırır. 2020-ci ildə tariximizə qızıl hərflərlə yazılan 44 günlük Vətən Müharibəsinin şanlı Azərbaycan Ordusunun əzmkar qələbəsi ilə başa çatması isə vəziyyəti kökündən dəyişdi. Azərbaycan indiyədək bəhs etdiyi işğalçılıq siyasətini dünyaya əyani sübut etmək imkanı əldə etdi. Müharibə Azərbaycanın qələbəsi ilə başa çatsa da, işğalçı dövlətin ərazilərimizdə insanlıq və bəşəriyyət əleyhinə törətdiyi cinayətlər cəzasız qalmamalıdır. Elə Azərbaycanın millət vəkilləri, ziyalılar da Azərbaycanın digər cəbhədə düşmənə qarşı müharibəni davam etdirməli olduğunu söyləyir.***

Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri, millət vəkili Musa Quliyev deyir ki, müharibədən sonra Azərbaycanın ilk görməli olduğu iş, işğaldan azad edilmiş torpaqlarımızın minalardan təmizlənməsi, təhlükəsiz vəziyyətə gətirilməsi və abadlıq-quruculuq işlərinin başlanmasıdır. Deputat deyir ki, Azərbaycan Qarabağın dirçəlişinə başlamalıdır: "İlk növbədə nə qədər tez mümkündürsə Qarabağda məskunlaşmanı təmin etməliyik. 28 ildir ki, məcburi köçkünlər öz dədə-baba yurdlarına həsrətdirlər. Biz Qarabağın həm təbii sərvətlərinin, həm də təbiətinin bizə verdiyi imkanlardan istifadə edərək o bölgəni nəinki Azərbaycanın, regionun inkişaf etdiyi məkana çevirməliyik. Bilirsiniz ki, cənab prezident Qarabağ Dirçəliş Fondunun yaradılması ilə bağlı sərəncam imzalayıb. Fondun yaradılması dövlət, özəl sektor və vətəndaş həmrəyliyinin bir ifadəsidir. Təbii ki, dövlət tərəfindən ilbəil ora vəsait ayrılacaq. Qarabağın dirçəldilməsi ilə bağlı 2 milyard 200 milyon manat bu il üçün nəzərdə tutulub, əlavə mənbələr də var və onlardan da istifadə olunacaq. Bu fondun yaradılması isə özəl sektorun, o cümlədən hər bir Azərbaycan vətəndaşının bu işdə öz töhfəsini verməyə hesablanıb. Bu da tamamilə məntiqi bir məsələdir. Çünki hər bir Azərbaycan vətəndaşı uzun illərdir gözləyirdi ki, Qarabağ işğaldan azad olunsun. İndi Qarabağ azaddır. Biz orada həyatı yenidən canlandırmalıyıq".



Deputat bildirir ki, Qarabağın dirçəldilməsi işi ilə yanaşı, Ermənistanın işğalçılıq siyasəti nəticəsində Azərbaycana vurduğu ziyanla bağlı da iş aparılmalıdır: "Ermənistan təkcə 28 il Azərbaycan torpaqlarını işğalda saxlamaqla bizə iqtisadi baxımdan ziyan vurmayıb. Düşmən o torpaqlardan Azərbaycanın tarixini, izini silməyə çalışıb. Tarixi abidələrimiz yerlə-yeksan edilib. Məscidlərimizə qarşı təhqiredici addımlar atılıb, dağıdılıb. Bunu işğaldan azad edilən torpaqlarımızda viranə qalmış yurd yerləri də sübut edir. Beynəlxalq miqyasda buna hüquqi qiymət verilməlidir. Ona görə də, Azərbaycan işğalçı dövlətə qarşı beynəlxalq məhkəmələrdə vurduğu ziyanı ödəməsi üçün iddialarla çıxış etməlidir. Biz Qarabağı dirçəltməklə yanaşı, düşmənin əməllərinə beynəlxalq hüquqla qiymət verilməsini, işğalçı dövlətin cəzalandırılmasını təmin etməliyik. 44 günlük müharibə zamanı Ermənistan döyüş meydanında məğlub olmasının acığını dinc insanları artilleriya atəşinə tutması ilə çıxdı. Bu əməllərinə görə onlar cavab verməlidirlər. Tərtərə, Gəncəyə yağdırılan mərmilər zamanı onlarla insan həyatını itirdi. Bu əməlləri törədənlər cəzasız qalmamalıdır. Azərbaycan bütün dünyaya Azərbaycanın necə barbar bir dövlətlə qonşu olduğunu, onun işğalçılıq siyasətindən əziyyət çəkdiyini car çəkməlidir".

M. Quliyev deyir ki, Qarabağ tarixini dünya ictimaiyyətinə çatdırmaq üçün son illər ərzində böyük işlər görülübdür. Bu işlər sayəsində artıq dünyada məsələ ilə bağlı daha obyektiv təsəvvür var. Amma torpaqlarımızın işğaldan azad edilməsi düşmənin əsl simasını dünyaya göstərmək imkanı yaradır.

Deputat deyir ki, bizim torpaqlarımızda Ermənistanın qanunsuz məskunlaşma aparması özü böyük cinayətdir: "Qanunsuz məskunlaşma beynəlxalq cinayətdir, Cenevrə konvensiyalarına ziddir. Minsk qrupunun cinayətə susması torpaqlarımızı erməniləşdirməyə, Azərbaycan mədəni irsini silməyə təşviq mesajıdır. Azərbaycan BMT Təhlükəsizlik Şurasının qətnamələrini təkbaşına yerinə yetirir. Halbuki bu, BMT Təhlükəsizlik Şurasının vəzifəsidir. Güc dövlətləri də bilməlidir ki, tək Azərbaycan üçün deyil, bütünlükdə regionun təhlükəsizliyi, stabilliyi üçün problem idi. Ona görə də Azərbaycanın öz torpağını işğaldan azad etməsi region üçün də çox əhəmiyyətli məsələdir".

Qeyd edək ki, beynəlxalq sülhün və təhlükəsizliyin əsas təminatçısı kimi çıxış edən BMT Təhlükəsizlik Şurası Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar 1993-cü ildə - 822, 853, 874 və 884 saylı dörd qətnamə qəbul edib. Bu qətnamələr münaqişənin beynəlxalq hüququn norma və prinsipləri əsasında həlli üzrə siyasi prosesin hüquqi çərçivəsini müəyyən edib. Qətnamələrdə Azərbaycan ərazilərinin işğalı pislənilib, güc tətbiqi vasitəsilə ərazi iddialarının reallaşdırılmasının qəbuledilməzliyi vurğulanıb, Azərbaycanın ərazi bütövlüyü, suverenliyi və sərhədlərinin toxunulmazlığı bir daha təsdiq edilib və işğalçı qüvvələrin Azərbaycanın işğal olunmuş bütün ərazilərindən dərhal, tam və qeyd-şərtsiz çıxarılması tələb olunub. Azərbaycan ərazilərini işğal etmək məqsədilə həyata keçirilən hərbi əməliyyatlar hüquqi müstəvidə təcavüz kimi dəyərləndirilir. Məlumat üçün onu da qeyd edək ki, BMT Baş Assambleyasının Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı 2006-cı il sentyabrın 7-də qəbul etdiyi "Azərbaycanın işğal olunmuş ərazilərində vəziyyət" adlı qətnaməsində işğal edilmiş ərazilərdə ermənilər tərəfindən törədilən yanğınlar pislənilib. Baş Assambleyanın 2008-ci il martın 14-də qəbul etdiyi eyniadlı növbəti qətnamə münaqişənin hüquqi, siyasi və humanitar aspektlərini əhatə edir və həlli prinsiplərini yenidən təsdiqləyir. Bu prinsiplər Azərbaycanın suverenliyinə və ərazi bütövlüyünə hörməti, erməni qoşunlarının Azərbaycanın işğal edilmiş ərazilərindən dərhal, tam və qeyd-şərtsiz çıxarılmasını, işğal edilmiş ərazilərdən məcburi köçkün düşmüş insanların öz doğma yurdlarına qayıtmaq hüququnu, hər iki icmanın Azərbaycanın tərkibində muxtar idarəetmə formasına malik ərazidə birgəyaşayış şərtlərinin təmin edilməsini və ərazilərin işğalı nəticəsində yaradılmış vəziyyətin qeyri-qanuniliyini vurğulayır. Qəbul edilmiş beynəlxalq qətnamələr bir daha Azərbaycanın öz torpaqlarını işğalçıdan azad etməsini, öz ərazi bütövlüyünü təmin etməsini sübut edir.

Qarabağın Azərbaycan torpağı olduğu işğaldan azad edilmiş torpaqlara gətirdiyimiz yeni nəfəsdə də hiss olunur. Şuşaya çəkilən yol özündə bir çox məna kəsb edir. Bu yol, 2016-cı ildə Cocuq Mərcanlıya çəkilmiş yolun davamı kimi görünür. Ali Baş Komandanın dediyi kimi: "Bu 44 gün ərzində demək olar ki, müntəzəm surətdə müxtəlif mənbələrdən, müxtəlif ünvanlardan müxtəlif təzyiqlər, təhdidlər olurdu, sifarişlər, mesajlar, siqnallar göndərilirdi. Mən demişdim ki, heç kim bizim qabağımızda dura bilməz, sona qədər gedəcəyik. Haqq-ədalət zəfər çaldı. Müzəffər Azərbaycan Ordusu zəfər çaldı. Düşmənin beli qırıldı. Düşmən torpaqlarımızdan qovuldu. Azərbaycan bayrağı işğaldan azad edilmiş torpaqlarda qaldırıldı və əbədi dalğalanacaq. Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!".

***Mələk Eyvazlı***

**Səhifə Azərbaycan Respublikası Medianın İnkişafı Agentliyinin ayırdığı maliyyə əsasında hazırlanır.**

# Azərbaycanda nə qədər korona xəstəsinə cinayət işi açılıb?



***Ötən il ölkə üzrə daxili işlər orqanları əməkdaşları tərəfindən saxlanılan aktiv koronavirus xəstələrinin sayı açıqlanıb.***

Bu barədə Teleqraf.com-a Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən bildirilib.

2020-ci ildə karantin rejimini pozamaqla xəstəliklərin yayılması üçün real təhlükə yaratmaları faktlarına görə 689 aktiv koronavirus xəstəsi saxlanılıb.

Qeyd edilib ki, ictimai yerlərdə hərəkət edən aktiv COVID-19 xəstələri ilə bağlı Cinayət Məcəlləsinin müvafiq maddələri ilə 674 cinayət işi başlanılıb.

Həmin şəxslərdən 46 nəfər cinayət məsuliyyətə cəlb olunub, qalanları barəsində isə istintaq araşdırması aparılır.

Bundan başqa, yanvarın 20-də ölkə üzrə daxili işlər orqanları əməkdaşları tərəfindən ictimai yerlərdə 2 aktiv COVID-19 xəstəsi müəyyən müəyyən olunub saxlanılaraq evə qaytarılıblar.

Onlar barəsində Cinayət Məcəlləsinin müvafiq maddəsi ilə maddəsi ilə cinayət işi başlanılıb.

Hazırda istintaq araşdırmaları davam etdirilir.

# Ağsu sakini həmkəndlisini tüfənglə güllələyib



***Yanvarın 20-i saat 14 radələrində Ağsu rayonu, Qaraqoyunlu kənd sakini Hacıyev Mürvət Zabit oğluna odlu silahdan açılan atəşlə çoxsaylı bədən xəsarətlərinin yetirilməsi barədə rayon prokurorluğuna məlumat daxil olub.***

Bu barədə "Report"a Ağsu rayon Prokurorluğundan məlumat verilib. Cinayət prosessual qanunvericiliyinin tələblərinə əsasən, prokurorluq əməkdaşları tərəfindən hadisə yerinə baxış keçirilib və digər zəruri prosessual hərəkətlər yerinə yetirilib.

Aparılan araşdırmalarla zərərçəkmişin həmkəndlisi 1968-ci il təvəllüdlü Hacıyev Qaya Seyidəhməd oğlunun şəxsi münasibətlər zəminində aralarında yaranmış mübahisə zamanı ov tüfəngindən atəş açaraq Mürvət Hacıyevi qəsdən öldürməyə cəhd etməsinə əsaslı şübhələr müəyyən edilib.

Faktla bağlı Ağsu rayon Prokurorluğunda Cinayət Məcəlləsinin 29, 120.1-ci (qəsdən adam öldürməyə cəhd) maddəsi ilə cinayət işi başlanıb, müvafiq ekspertizalar təyin edilib.

Qaya Hacıyev şübhəli şəxs qismində tutularaq istintaqa cəlb edilib. Hazırda cinayət işi üzrə zəruri istintaq tədbirləri davam etdirilir.

# Şabranda karantini pozan kafe sahibi və müştəriləri cərimələndi

***Şabranda karantin rejimi qaydalarını pozaraq fəaliyyət göstərən kafe aşkar edilib.***

Daxili İşlər Nazirliyin Mətbuat Xidmətinin Quba regional qrupundan v erilən məlumata görə, Şabran Rayon Polis Şöbəsinin əməkdaşları rayon ərazisində karantin rejiminə əməl etməyərək fəaliyyət göstərən kafe aşkarlayıblar.

Qanunvericiliyə uyğun olaraq obyektin sahibi M.Əsədullayev və orada olan müştərilər saxlanılaraq polis şöbəsinə gətiriliblər.

Həmin şəxslər barəsində İnzibati Xətalar Məcəlləsinin 211.1-ci maddəsi üzrə protokollar tərtib edilib və onların hər biri 200 manat miqdarında cərimə olunublar.

# Gəncədə "Eliş" ləqəbli narkotacir həbs edildi

***Gəncə şəhər Baş Polis İdarəsinin Cinayət Axtarış İdarəsinin əməkdaşları tərəfindən narkotiklərin qanunsuz dövriyyəsinin qarşısının alınması istiqamətində növbəti uğurlu əməliyyat tədbiri həyata keçirilib.***

Bu barədə "Unikal"a Daxili İşlər Nazirliyinin mətbuat xidmətinin Gəncə regional qrupundan bildirilib.

Gəncə şəhər sakini Etibar Yaqubov saxlanılaraq polis idarəsinə gətirilib və üzərinə baxış keçirilən zaman 76 qram narkotik vasitə olan marixuana aşkar edilərək götürülüb.

# Xırdalanda maklerin oğlu müştərini döydü - Təfərrüat

***Xırdalan şəhərində xuliqanlıq etməkdə ittiham olunan 1989-cu il təvəllüdlü İntiqam İbrahimovun cinayət işi üzrə məhkəmə prosesi başa çatıb.***



Teleqraf.com-un xəbərinə görə, İntiqam İbrahimov Xırdalan şəhəri, "Köhnə bazar" adlanan ərazidə bir müddət əvvəl onun üçün kirayə ev tapmış, daşınmaz əmlak vasitəçisi Möhübbət Baxşıyevlə başqa bir mənzil axtarması mövzusunda söhbət edən zaman onun oğlu Hikmətə yaxınlaşıb.

Hikmətə ayağını pilləkənə qoymuş vəziyyətdə söhbət etməsi ilə atasına qarşı hörmətsizlik göstərdiyini bəhanə gətirib, onu əvvəl söyüb, sonra isə sifət nahiyəsinə kəllə zərbəsi vurub.

İstintaq orqanı tərəfindən İntiqam İbrahimovun barəsində Cinayət Məcəlləsinin 221.1-ci (xuliqanlıq) maddəsi ilə ittiham elan edilib.

Cinayət işi üzrə təqsirləndirilən şəxs qismində ifadə verən İntiqam İbrahimov elan olunmuş ittiham üzrə özünü təqsirli bilib. O, qeyd edib ki, saat 19 radələrində "Köhnə bazar" adlanan ərazidə, atası İlham İbrahimovun işlədiyi ofisin yaxınlığında olan zaman sonradan adını bildiyi Hikmət Baxşıyevin atası İlhamı ələ salıb, aşağılayıcı tərzdə yersiz zarafat etdiyini görüb: "Onlara yaxınlaşaraq bu hərəkətlərinin səbəbini soruşdum. Hikmət "get işinlə məşğul ol" dedi, aramızda mübahisə yarandı.

Mübahisə zamanı Hikmət üzərimə gəldiyimdən kəllə ilə onun sifət nahiyəsinə vurdum. Orada olan tanımadığım şəxslər bizi ayırdı".

Zərərçəkmiş şəxs qismində ifadə verən Hikmət Baxşıyev deyib ki, təxminən hadisədən bir həftə əvvəl o, ev alqı-satqısı və kirayəsi ofisinə yaxınlaşaraq sonradan adını bildiyi İlham adlı şəxsə kirayə ev axtardığını bildirib: "İlham mənə yaxın ərazilərdə bir neçə ev göstərdi. Lakin təklif olunan evlərdən heç birini bəyənmədiyim üçün oradan getdim. Sonradan Aqil adlı tanışıma məxsus, Xırdalan şəhəri, "Quşçuluq" yaşayışmassivində yerləşən evdə yaşamağa başladım".

Hikmət Baxşıyev qeyd edib ki, hadisədən üç gün əvvəl İlham hazırda yaşadığı evi ona təklif edib: "Həmin evə yerləşdim və oraya yerləşməyimə rəğmən nə üçün zəhmət haqqını verməyimi soruşdu. Mənə irad bildirdi, bu hərəkətinə görə öz oğlanlarına məni döydürəcəyini dedi. Lakin yaxın günlərdə başqa bir evə köçməkdə köməklik etməsi üçün yenidən müraciət edəcəyimi İlhama dedim, 20 manat təşkil edən zəhmət haqqını da verəcəyimi bildirdim".

Zərərçəkmişin ifadəsinə görə, hadisə günü, saat 18 radələrində İlhamın ofisinə gedərək 20 manat pulu onun dediyi şəxsə verib: "İlhamdan mənim üçün başqa ev tapmasını istədim. Həmin vaxt ayağımı pilləkənə qoydum, söhbət etdiyim üçün İlham mənəı irad bildirdi.

Mən iraddan nəticə çıxarıb, ayağımı aşağı salan zaman İlhamın oğlu İntiqam mənə yaxınlaşdı, eyni məsələ ilə bağlı irad bildirdi, məni söydü. Bu səbəbdən aramızda mübahisə yarandı,İntiqam kəllə zərbəsi ilə sifət nahiyəmə zərbə vurdu. Zərbənin təsirindən müvazinətimi itirərək yerə yıxıldım".

Hikmət Baxşıyev qeyd edib ki, olayla bağlı Daxili İşlər Nazirliyinin "102" xidməti-zəng mərkəzinə müraciət edib. O, təqsirləndirilən şəxsdən şikayətçi olduğunu bildirib, onun qanuna müvafiq qaydada cəzalandırılmasını xahiş edib.

Abşeron rayon Məhkəməsinin hökmü ilə İntiqam İbrahimov 10 ay müddətə azadlığın məhdudlaşdırılması cəzasına məhkum olunub.

Təqsirləndirilən şəxs üzərinə Bakı şəhəri və Abşeron rayonu hüdudlarını və saat 23.00-dan saat 07.00-dək yaşayış yerini tərk etməmək, elektron nəzarət vasitəsini gəzdirmək və həmin vasitənin işlək vəziyyətdə saxlanılması üçün ona xidmət etmək, müvafiq məhkəmə qərarı olmadan yaşayış yerini dəyişdirməmək, habelə cəzanın icrasına nəzarət edən orqanı iş yerinin dəyişdirilməsi barədə əvvəlcədən məlumatlandırmaq vəzifəsi qoyulub.

Hökmün icrası Sumqayıt şəhər Probasiya Şöbəsinə həvalə olunub.

# Azərbaycan dövlət sərhədini pozan əcnəbilərlə bağlı qərar

***Azərbaycan dövlət sərhəddini pozaraq ölkəmizə külli miqdarda narkotik vasitə gətirməkdə ittiham olunan İran İslam Respublikasının vətəndaşları - Rəhmanpur Cəlal Rəhman və Məhəmmədpur Amid Ömərin barəsində həbs qətimkan tədbirinin seçilməsi ilə bağlı istintaq orqanını vəsatətinə baxılıb.***



Səbail rayon Məhkəməsində hakim Azər Tağıyevin sədrliyi ilə baş tutan iclasda istintaq orqanını vəsatəti təmin olunub.

Hər iki şəxsin barəsində həbs qətimkan tədbiri seçilib.

Hər iki şəxsin barəsində Cinayət Məcəlləsinin 206.3.2-ci (qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən qaçaqmalçılıq törətmək), 234.4.1-ci (qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən və ya mütəşəkkil dəstə tərəfindən narkotik vasitələri, psixotrop maddələri və ya onların prekursorlarını hazırlama, istehsal etmə, əldə etmə, saxlama, daşıma, göndərmə və ya satma) və 234.4.3-cü (külli miqdarda narkotik vasitələri, psixotrop maddələri və ya onların prekursorlarını hazırlama, istehsal etmə, əldə etmə, saxlama, daşıma, göndərmə və ya satma) maddələri ilə ittiham elan edilib.

İstintaq gedir.

# Azərbaycan həm iqtisadi, həm də hərbi-siyasi cəhətdən daha qüdrətli dövlətə çevriləcək



***Sumqayıt Kimya Sənaye Parkının təməli 10 il bundan əvvəl Prezident İlham Əliyev tərəfindən qoyulub. Ötən müddətdə sənaye parkında onlarca iri müəssisə yaradılıb. Bu müəssisələrdə istehsal edilən məhsullar xarici ölkələrə də ixrac edilir. Bütün bunlar Azərbaycan iqtisadiyyatının yüksəlməsində, istər neft, istərsə də qeyri-neft sektorunun inkişafında önəmli rol oynayıb.***

Prezident İlham Əliyevin birbaşa təşəbbüsü və memarlığı ilə yaradılmış Kimya Sənaye Parkı nəinki Sumqayıt şəhərinin, eləcə də respublikamızın iqtisadi inkişafında mühüm yer tutur.

Əvvəllər çirkli şəhərlər sırasında olan Sumqayıt bu gün ekoloji cəhətdən ən təmiz və yaraşıqlı, eyni zamanda, regionda ən böyük sənaye şəhərinə çevrilib.

Yanvarın 18-də Prezident İlham Əliyev Sumqayıt Sənaye Parkında daha bir neçə müəssisənin açılışı və təməlqoyma mərasimində iştirak edi. Bu, özlüyündə böyük bir məna kəsb edir.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Milli Məclisin deputatı Kamilə Əliyeva bildirib.

K.Əliyeva vurğulayıb ki, bunu ölkəmizin Qarabağda hərbi və siyasi qələbəsindən sonra iqtisadi və sosial sahələrdə inkişafımızın uğurlu davamı kimi qiymətləndirmək olar. Bu müəssisələrin fəaliyyətə başlaması ölkəmizdə qeyri-neft sektorunun inkişafına böyük təsiri olacaq. Bu müəssisələrin istehsal etdiyi qeyri-neft məhsullarının xaricdən ixracına son qoyulacaq, bununla da ölkədən valyuta axınının qarşısı alınmış olacaq. Daimi iş yerləri yaranacaq və bu da ölkəmizdə işsizlərin sayının minimuma enməsinə töhfə verəcək.

Deputatın sözlərinə görə, 2021-ci il üçün təsdiq edilmiş dövlət büdcəsinin təxminən 65-70 faizi qeyri-neft sektorundan gələn gəlirlərin hesabına formalaşıb: "2020-ci ildə neftin qiymətinin kəskin aşağı düşməsi və pandemiya ilə əlaqədar bütün dünya ölkələri iqtisadi tənəzzülə uğradı. Azərbaycanda da iqtisadi geriləmələr baş verdi. İnkişaf etmiş bir sıra ölkələrdə iqtisadi tənəzzül 10-20 faiz arasında olsa da, Azərbaycanda bu, az faizlə ifadə olundu. Sevindirici haldır ki, 2020-ci ildə Azərbaycanda valyuta ehtiyatları azalmadı, əksinə, az da olsa, artım oldu. Bu da Prezident İlham Əliyevin apardığı uzaqgörən və dayanıqlı iqtisadi islahatların nəticəsi idi", - deyən K.Əliyeva bildirib ki, Azərbaycan 2021-ci ilə uğurla qədəm qoydu. Prezident İlham Əliyev bu il ilk səfərini Şuşa şəhərinə etdi və Şuşanı Azərbaycanın mədəniyyət paytaxtı elan etdi. Dövlətimizin başçısının bu səfəri və orada etdiyi çıxışlar tarixi hadisə kimi qiymətləndirilir. Prezident İlham Əliyev çıxışında Azərbaycana qarşı qərəzli mövqe tutan beynəlxalq təşkilatları və ölkə başçılarını, Ermənistanın Qarabağda törətdiyi vəhşilikləri öz gözləri ilə görməyə və bir neçə ildən sonra yenidən bu ərazilərə dönəcəkləri təqdirdə, cənnət bir diyar görəcəklərini diqqətə çatdırdı. Artıq bu işlərə start verilib. Şuşanın yenidən qurulması və bərpası ilə əlaqədar plan hazırlanıb və işlərə başlanılıb".

Kamilə Əliyeva diqqətə çatdırıb ki, dövlətimizin başçısı Şuşaya səfəri zamanı Füzuli şəhərində tikiləcək beynəlxalq aeroportunun inşasının və Füzuli - Şuşa avtomobil yolunun tikintisinin təməllərini qoyması da mühüm hadisələrdir. Dağlıq Qarabağ və ətraf rayonların yenidən qurulması və bərpası nəticəsində Azərbaycan iqtisadiyyatı gələcək illərdə daha da güclənəcək, ölkəmiz istər iqtisadi, istərsə də hərbi-siyasi cəhətdən dünyada öz sözünü deyə biləcək daha qüdrətli bir dövlətə çevriləcək.

# "Azərbaycan 2030-cu ilədək ÜDM-ni iki dəfə artıracaq" - Mikayıl Cabbarov



***Azərbaycanın vəzifəsi 2030-cu ilədək yeni 10 illik inkişaf planına uyğun olaraq ölkənin ÜDM-sini iki qat artırmaqdır. Bu isə orta illik iqtisadi artım tempi 7 faizə bərabər olmasını tələb edir.***

"Unikal" Trend-ə istinadən bildirir ki, bunu "Bloomberg"ə müsahibəsi zamanı Azərbaycanın iqtisadiyyat naziri Mikayıl Cabbarov deyib.

Onun sözlərinə görə, bu il Azərbaycanın azad edilmiş ərazilərinin yenidən qurulması üçün 2,2 milyard manat (1,3 milyard dollar) ayırılacaq: "Koronavirusun yayılması və Azərbaycanın daha əvvəl işğal altında olan əraziləri üzərində nəzarəti bərpa etdiyi Ermənistanla müharibə nəticəsində yaranan tənəzzüldən sonra bu il Azərbaycanda iqtisadi artımın bərpa olunacağı gözlənilir".

Onun sözlərinə görə, ümumi daxili məhsulun 2020-ci ildə 4,3 faiz azalmasından sonra 3,4 faiz artması proqnozlaşdırılır: "2021-ci il üçün proqnozlarımız Beynəlxalq Valyuta Fondu və Dünya Bankının proqnozlarına nisbətən daha optimistikdir".

M.Cabbarov qeyd edib ki, Dünya Bankı bu il Azərbaycanda iqtisadi artımı 1,9 faiz, BVF isə 2 faiz proqnozlaşdırır: "Artımın ölkədə bazar ertəsi başlayan uğurlu vaksinasiya proqramından asılı olmağına baxmayaraq, biz Azərbaycan iqtisadiyyatının rifahı üçün vacib olan digər sahələrə də çox inanırıq".

Onun sözlərinə görə, keçmiş Sovet İttifaqında üçüncü ən böyük neft istehsalçısının iqtisadiyyatı 2016-cı ildən bəri ilk dəfə keçən il azaldı. Buna isə epidemiya fonunda izolyasiya tədbirləri və neftin qiymətinin düşməsi səbəb oldu.

Nazir bildirib ki, müharibədən sonra "yeni geosiyasi reallıq" Azərbaycanda artımın və əhalinin məşğulluğuna əhəmiyyətli dərəcədə kömək edəcək.

# Qazi kiçik biznesini qurması üçün özünüməşğulluq proqramına cəlb edilib

***Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin əməkdaşları İkinci Qarabağ müharibəsində yaralanmış hərbi qulluqçu Abdullayev Kamran Kamil oğlunu (Beyləqan rayonu) ziyarət edib, ailəsinin sosial vəziyyətini öyrəniblər.***

Nazirlikdən "Unikal"a verilən məlumata görə, qazi özü müddətdən artıq xidmətdə olan hərbi qulluqçu kimi fəaliyyət göstərib. Anası işləyir, nənəsi pensiyaçıdır, qazinin həyat yoldaşı isə azyaşlı uşaqlarına baxır.

Kamranın əlilliyi yaxın günlərdə qiymətləndiriləcək və əlillik təyin olunduğu halda birdəfəlik sığorta ödənişi, aylıq təqaüd və müavinətlə, reabilitasiya xidmətləri ilə təmin ediləcək. Bu barədə ona məlumat verilib.

İstəyi nəzərə alınmaqla Kamran poliqrafiya üzrə kiçik biznesini qurması üçün özünüməşğulluq proqramına cəlb edilib. Bununla bağlı sənədləşdirimə işləri aparılır.

# Qazaxıstan Azərbaycandan pomidor idxalını dayandırıb

***Qazaxıstan Azərbaycandan qeyri-müəyyən müddətə pomidor idxalını dayandırıb.***

Bu barədə Qazaxıstanın Kənd Təsərrüfatı Nazirliyi bildirib.

Qeyd olunur ki, yanvarın 2-dən 12-dək Azərbaycandan idxal olunan pomidorlarda qəhvəyi meyvə qırışı virusu aşkar edilib.

İdxalın dayandırılması qərarı yanvarın 16-da qəbul edilib. Qadağa müvəqqəti xarakter daşıyır.

# Bu məhsullar üzrə ticarət dövriyyəsi artıb - Statistika

***2020-ci ildə pərakəndə ticarət şəbəkəsində istehlakçılara 40,2 milyard manatlıq, o cümlədən 21,7 milyard manatlıq ərzaq məhsulları, içkilər və tütün məmulatları, 18,5 milyard manatlıq qeyri-ərzaq malları satılıb.***



Dövlət Statistika Komitəsindən "Unikal"a verilən məlumata görə, 2019-cu illə müqayisədə pərakəndə ticarət dövriyyəsi real ifadədə 1,3 faiz, o cümlədən qeyri-ərzaq malları üzrə 6,1 faiz azalmış, ərzaq məhsulları, içkilər və tütün məmulatları üzrə isə 3,4 faiz artıb.

2020-ci ildə alıcıların son istehlak məqsədilə aldıqları mallara xərclədiyi vəsaitin 48,6 faizi ərzaq məhsullarının, 5,4 faizi içkilər və tütün məmulatlarının, 16,0 faizi toxuculuq məhsulları, geyim və ayaqqabıların, 5,4 faizi elektrik malları və mebellərin, 5,1 faizi avtomobil benzini və dizel yanacağının, 1,8 faizi əczaçılıq məhsulları və tibbi ləvazimatların, 0,9 faizi kompüterlər, telekommunikasiya avadanlıqları və çap məhsullarının, 16,8 faizi isə digər qeyri-ərzaq mallarının alınmasına sərf olunub.

Hesabat ilində istehlak məhsullarının dəyər ifadəsində 22,7 faizi ticarət müəssisələri, 54,6 faizi fərdi sahibkarlar tərəfindən, 22,7 faizi isə bazar və yarmarkalarda satılmışdır. 2019-cu illə müqayisədə pərakəndə ticarət dövriyyəsi real ifadədə müəssisələr üzrə 6,6 faiz, fərdi sahibkarlar üzrə 3,8 faiz artmış, bazar və yarmarkalarda isə 17,2 faiz azalıb.

2020-ci ildə ticarət şəbəkəsində bir ölkə sakini orta hesabla ayda 335,6 manatlıq, o cümlədən 181,2 manatlıq ərzaq məhsulları, içkilər və tütün məmulatları, 154,4 manatlıq qeyri-ərzaq malları alıb.

# "Düşmən bu dəfə onu ürəyindən nişan alır..." - Şəhid kapitan necə tarixə düşdü?

***Xəlilov Ruhin Müzəffər oğlu. 1987-ci il martın 13-də Cəbrayıl rayonunun Məzrə kəndində anadan olub. Xırdalan qəsəbəsində 1 saylı orta məktəbin məzunu olub. Bakı Asiya Universitetinin hüquq fakültəsini bitirib. Ədliyyə Nazirliyinin İcra Baş idarəsində məsləhətçi vəzifəsində çalışıb. Birinci dərəcəli dövlət qulluqçusu, ədliyyə kapitanı olub. İkinci Qarabağ müharibəsi başlayan gün könüllü olaraq Cəbrayıl rayon hərbi komissarlığına müraciət edib.***

Ruhin Xəlilov 21 oktyabr 2020-ci ildə Qubadlı rayonunun azadlığı uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olub. İkinci fəxri xiyabanda dəfn edilib.

Ruhin Xəlilov Prezident İlham Əliyevin sərəncamı ilə ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edilib.

Azərbaycan Respublikasının Ədliyyə naziri Fikrət Məmmədov tərəfindən "Fəxri Ədliyyə İşçisi" adı verilib.

## Ruhin

İkinci Qarabağ müharibəsinin ən qaynar dönəmlərində onun qəhrəmanlığı, keçdiyi şərəfli ömür yolu ilə tanış olmağa nail oldum. Bir neçə dəfə qarşıma onun haqqında hazırlanmış yazıların hər birinin başlığında eyni sözlər, ifadələr işlənirdi: Rahat kabinetini səngərə dəyişən şəhidimiz...

Ruhin doğurdan da nəinki isti kabinetini, həmçinin on minlərlə vətən oğlu kimi ailəsini, yerini, yurdunu soyuq səngərlərə, yağışlı, qarlı ön cəbhəyə dəyişənlərdən və bu yolda canından keçənlərdən oldu.

İkinci Qarabağ müharibəsində şəhid olan Ədliyyə kapitanı Ruhin Xəlilovun evinin yoluna nabələd olduğumdan məni mənzil başına onun bacısı Gülnar və həyat yoldaşı Qərib bəy aparacaqdı. Maşına əyləşəndə qarşı tərəfdə əyləşən Gülnar sanki məni görməklə, onlara nə üçün getdiyimi bilməklə unutmadığı ağrısı yenidən ağrımağa, qor verməyə başladı.

Yolboyu Ruhinin adını zikr etmədən yorulmayan bu qara örpəkli, qara paltarlı qadın elə evə çatana qədər də, məni evlərindən yolana salanacan "Ruhin, Ruhin" deyib kirimədi.

Ruhinin yoxluğu ilə soyuyan mənzilində isə bizi gözünün yaşını örpəyi ilə silən anası, həyat yoldaşı, qızları, bir də dərddən ağırlaşmış, saçları qar kimi ağarmış, dərdin ağırlığından çiyinləri balacalaşan, ancaq baş verənlərə baxmayaraq qamətini dik tutmağa çalışan atası gözləyirdi.

Otaqdakı hər kəs qəmgin, susqun əyləşib nədən, necə başlayacaqlarını düşünürdülər. Mənimlə üz-üzə bəstəboylu, arıq, qarayanız, boynubükük Gülnaz ana əyləşmişdi. Ruhinin anası ...

- Bizim bir qızımız, bir oğlumuz vardı. Ruhin çox tərbiyəli, mərifətli oğul idi. Ruhinin altı yaşı olanda Cəbrayıl işğal olundu. Gəldik Bakıya. O, burada öz biliyi, savadı ilə oxuyub universitetə girdi, oranı da yaxşı başa vurdu. Hər şeyi öz qüvvəsi, savadı hesabına elədi. Ədliyyə Nazirliyinə imtahan verdi, qəbul olundu. Altı ilə yaxın Biləsuvarda işlədi, ailəsi də onunla birgə orda yaşadı. Sonradan Bakıya təyin olundu. Mən Ruhinin bir dəfə nə mənim, nə atasının sözünü çevirdiyini görmədim, allah ona elə gözəl xasiyyət vermişdi ki. Elə bil elə özü üçün yaratmışdı, cavan yaşda da götürüb apardı.

## Şəhid nənə

Ruhinin ata nənəsini Cəbrayıl işğal olunan ərəfədə ermənilər öldürür. Nənəsinin şəhid olma xəbəri altı yaşlı Ruhinin həmişəlik hafizəsinə həkk olunur. Onun döyüşə, vətəni qorumağa getməsində bu faktın da sözsüz ki, rolu olub. Müzəffər bəy bu barədə danışmaqda çətinlik çəksə də, sözlərini göz yaşına islada-islada danışır:

- 1993-cü ildə rayonumuz işğal olunanda, biz rayondan çıxanda ermənilər anamı öldürdülər. Bu hadisə Ruhinin könlündə qaldı, iz buraxdı. O, bu barədə heç kimə heç nə demirdi, amma hiss edirdim ki, anamın ölümünün tarixini içində saxlayır, bunun fikrini edir. Ona görə özü də getdi, şəhid oldu (kövrəlir). Həmişə qohum-əqrəbadakı uşaqlara deyirdi ki, tarix fənnini, tarixinizi yaxşı öyrənin və bilin ki, nənəmizi kimlər öldürüb, harda,









necə şəhid olub. O, çox oxuyan uşaq idi. Həmişə deyirdi ki, insan öləndə də savadlı ölməlidi.

Ruhin bacısı Gülnardan iki yaş balaca olsa da, ona əsl qardaş kimi dayaq olur, onu qoruyur. Gülnar xanım qardaşı ilə bağlı günlərini xatırlayır:

- Ruhin həyatda da, şəkillərdə də yaşından çox böyük görünürdü, amma 33 yaşı vardı. İndi o, mənim yadımda bir qəhrəman kimi qalıb. Amma qəhrəmanlıqdan da əlavə o, axı mənim kiçik qardaşım idi... O, çox sakit, söz danışmayan uşaq olsa da, deyibgülməyi xoşlayırdı. O, mənim üçün həm bacı idi, həm də qardaş (ağlayır).

Biz evdə iki uşaq olmuşuq, Ruhin məndən iki yaş balaca idi, amma mənə həmişə kömək olub. Valideynlərimiz işləyirdi. Mən evi süpürəndə o, silirdi, paltar yuyanda Ruhin yemək bişirirdi. Mən ailə qurandan sonra mənə zəng edib deyirdi, nə problemin olsa, mənə deyərsən, ataya, anaya heç nə deməzsən. Biz hər sözümüzü bölüşürdük. Onun elə sirləri var ki, ancaq mən bilirəm, mənimkiləri də Ruhin. Amma bircə getdiyini mənə demədi, onu məndən gizlətdi (ağlayır).

- Bəs Ağcabədidə olanda onunla danışanda da hiss etməmişdiniz cəbhədə olduğunu?

- Bir dəfə soruşdum ki, ordan səni aparmayıblar cəbhəyə? Güləgülə dedi ki, məni neynirlər, qoca kişiyəm, qocaları aparmırlar. Sən demə, müharibənin düz ortasında imiş bu sözləri deyəndə. Son danışıqlarımızın birində mən ondan yenə soruşdum ki, sən qayıtmırsan, axı sən əsgər deyilsən, işin-gücün qalıb burda, gəl. Onda mənə dedi ki, Gülnar, mən burda əsgərəm, sən də uşaq deyilsən. Vəssalam, onun o sözündən sonra bildim ki, Ruhin Ağcabədidə yox, cəbhədədi, amma heç kimə heç nə deyə bilmədim.

## Məhəbbət, bir ömür boyu...

Sevib-seçdiyi qızla, Günellə ailə quran Ruhin ailəsinin həyatını gözəlləşdirməyi, nağıla çevirməyi bacaran ailə başçılarından olub. Günellə Ruhin dostları vasitəsi ilə tanış olublar. Bu tanışlıq böyük məhəbbətə çevrilir. Günel onun əsgərə getməsini, qayıtmasını, oxuyub universiteti bitirməsini gözləyir. Beləliklə, aradan düz yeddi il keçir, səbirli sevgililər ailələrinin razılığı ilə evlənirlər. Doqquz illik ailə həyatı bu cütlüyə iki qız, bir oğlan uşağı bəxş edib. Günel xatırlayır, yadına salır, sevdiyi insanlar, həyat yoldaşı, dostu, sirdaşı ilə olan günlərini...

- Mən Ruhini böyük məhəbbətlə sevmişəm. Onunla nəfəs alırdım. Amma indi üç uşağa görə onun yanına gedə bilmirəm (kövrəlir). Mən hər dəqiqə sevgimi bildirən insan idim, o, yox. Bəzən gecənin bir aləmi yuxudan oyanıb ona sevgimi etiraf edirdim. Gülürdü, deyirdi, bilirəm, yat. İndi elə bil allah mənə səbr verib, onsuz necə qalmağım, yaşamağım mənə təəccüblü gəlir. Onunla bir yerdə olanda deyirdim ki, Ruhin, bu nağılın axırı bitəcək? Qorxurdum ki, nə isə olacaq. Çünki çox xoşbəxt idik. İndi hərdən oturub ağlayanda deyirəm ki, ay Ruhin, niyə məni bir dəfə döymədin ki, görüm döyülmək necə olur. O qədər səhvlərim olurdu ki, amma bir dəfə xətrimə dəyməzdi. Həmişə deyirdi ki, sən uşaqsan, birdən böyüyəcəksən. Haqlı çıxdı, ölümü ilə məni birdən-birə böyütdü.

Bizim həyatımız nağıl kimi keçdi getdi. O, bu doqquz ildə bir dəfə də olsun mənə səsini yüksəltməmişdi, həmişə də mənə uşaq kimi baxırdı, deyirdi, sən uşaqsan. Ruhinin işi çox gərgin idi, amma elə ki qapıdan içəri girirdi, hər şeyi unudurdu, gülərüz, mehriban olurdu. Ailəsinə, valideynlərinə çox bağlı idi. Biz onun işi ilə əlaqədar beş il Biləsuvarda qaldıq. O, hər həftə bizi də götürüb Bakıya gəlirdi, həmişə də deyirdi ki, atamgilə heç nə deməyək, sürpriz edək. Gedək görək nə yeyib-içirlər, necə dolanırlar. Axırda dözmədi, dedi, yox, qayıdaq Bakıya. Ailəsi onun üçün hər şey idi. O, bizimlə nəfəs alırdı. İşdən gələndən sonra, yorğun olmasına baxmayaraq, hər gün məni, uşaqları gəzməyə aparırdı.

## Arzular...

Ruhinlə bağlı fikrimdə tutduğum suallardan birini verirəm:

- Arzuları nə idi?

Ana, bacı və həyat yoldaşı üçü də birdən eyni cavabı verir:

- Arzuları çox idi...

**Gülnar xanım davam edirdir:**

- Deyirdi rayona gedəcəm, orda ferma açacam, quzu, qoyun saxlayacam. Torpağa bağlı adam idi. Cəbrayılı çox sevirdi. O, cəbhədə olanda heç vaxt demirdi ki, hardayam. Amma Cəbrayılda olub. Uşaqları ilə bağlı isə ən böyük arzusu savadlı olmaları idi. Yoldaşı uşaqlarını məktəbdə rus dili bölməsinə qoymaq istəyirdi, Ruhin razı olmadı, dedi, orda Azərbaycan tarixi fənni keçilmir. Uşaqlarının ikisini də azərbaycan dili bölməsinə qoydu.

Ruhinin cəbhəyə getməsi, könüllü olaraq döyüşə yollanmasının tarixi bir az əvvələ, yəni 2020-ci il iyulunda Tovuz döyüşləri zamanı başlanır. Heç kimə demədən hərbi komissarlığa gedir və könüllü olaraq adını yazdırır. Həyat yoldaşı bu haqda dəfələrlə Ruhindən eşitsə də, onun bu addımı atacağına, üç azyaşlı körpəsini qoyub gedəcəyinə inanmır. Ancaq bir gün...

- ...Bir gün Ruhin evə gəldi, dedi, Günel, adımı yazdırdım, amma narahat olma. Mən bir az ağladım, acıqlandım, axırda dedim ki, onda mənim adımı da yazdır. Sən hara getsən, mən də səninlə gedəcəm. Razılaşdı, şəxsiyyət vəsiqəmlə mən də onlayn qeydiyyata düşdüm. Mənə hərbi komissarlıqdan zəng vurub bacarıqlarımı soruşmuşdular. İxtisasca tibb bacısı olduğumdan ümidliydim ki, mən də onunla gedə bilərəm. Ancaq sonradan Ruhin məndən xəbərsiz qeydiyyatımı ləğv etdirib. O, təbii ki, məni qoymazdı, cəbhəyə gedim. Sentyabrın 30-da Ruhin evə gəldi, dedi, sənədləri hərbi komissarlığa təqdim edib qayıdacam. O, evdən gedəndə gördüm ki, iş paltarında yox, mülki geyimdə gedir. İş üçün gedirdisə, iş paltarını geyinməli idi. Heç nədən şübhələnmədim, çünki ağlıma gəlmirdi bizi qoyub gedər... Dostu gəlib onu maşınla apardı, saat 11-də zəng vuranda gördüm ona zəng çatmır. Dostu mənə zəng vurdu, dedi, Günel, Ruhin cəbhəyə getdi. O, əslində hər şeyi əvvəldən bilirmiş. Mən o getməzdən bir gün qabaq qəfildən dedim ki, gəlin şəkil çəkdirək. Qızlarım dərhal onun boynuna sarıldılar. Ancaq şəkillərə indi də baxanda onun gözlərindəki kədəri hiss edirəm. Hətta şəkillərin birində gözlərindəki yaşı da indi görürəm. O, hər şeyi bilirmiş, amma bizdən gizlədirdi.

- Hər şeyi biləndən sonra onunla danışanda ilk sözünüz nə oldu?

- Zəng vuranda, dedi, narahat olma, Ağcabədidəyəm. Bizi sakitləşdirdi, arxayın saldı. Mən də kim zəng vururdusa, deyirdim, nigaran qalmayın. Onunla danışanda ilk sözüm nə vaxt gələcəksən oldu. Mən elə bilirdim ki, o, həqiqətən də qayıdacaq, axı onun burda vəzifəsi, işi və biz vardıq. Müharibənin necə bir şey olduğunu mən ağlıma gətirməzdim. Döyüşdə olduğu 21 gündə bizim hamımıza dedi ki, mən heç hərbi paltar da geyinməmişəm, arxa cəbhədəyəm. Amma sonra məlum oldu ki, bizi aldadıb, o, hərbi paltarda ən ön sırada olub, sıravi əsgər kimi döyüşlərdə vuruşub.

## Döyüş dostları...

Ruhinlə bağlı xatirələr, fikirlər, ağrılı, acılı söhbətlər bitmək bilmir. Sağollaşıb çıxmaq istəyəndə qapı döyülür. Müzəffər kişi Ruhinin cəbhədən qayıdan dostlarının gəldiyini xəbər verir. Gedişimi bir azca ləngidirəm. Ruhinlə birlikdə cəbhədə olan qazilər bir-bir içəri girib Gülnaz xalanın əlindən saçlarından öpüb keçirlər. Əsgər çəkməsinin səsi, hərbi paltar qoxusu, şaxtadan qarsımış üzlər... evdəkilərə şəhid Ruhini xatırladır. Hər kəs bir tərəfdə hıçqırır. Qazilər bir yerə cəm olandan sonra Ruhinlə ən birinci gündən xidmət etmiş Cəlal Quliyev deyir:

- Bizim onunla keçirdiyimiz on yeddi gün ömrümüzə yazıldı. Hamımız orda özümüzə dörd, beş dost qardaş qazandıq. Amma Ruhin burda əyləşən bütün oğlanların qardaşlığını qazandı. Ruhin şəhid olmaya bilərdi. O, səngərdə gizlənə, yaralı yoldaşını çıxartmaqdan öz canına görə qorxa bilərdi. O, qorxmadı, kişi kimi ölümün, güllənin üstünə getdi. O, bizim hamımıza böyük qardaş oldu. Heç kim ondan incik olmadı.

## Kapitan!

Ruhinlə tanışlığın qürurunu yaşayan Asif Hüseynov isə vurğulayır:

- Çox vaxt şəhid ailələri ilə görüşəndə insanlar onlara təsəlli üçün müəyyən sözlər deyirlər. Ancaq biz bu gün burda Ruhin haqda nə deyiriksə, həqiqəti deyirik. O, abrı, hörməti ilə adamı utandırırdı.

Biz onunla Bakıdan eyni avtobusda getdik. O, gözündə eynək yolboyu bir kənarda sakitcə oturmuşdu. Ağcabədiyə qədər biz onun səsini eşitmədik. Heç kimlə ünsiyyət qurmadı. Heç kimdə deyə bilməzdi ki, o, kapitandı. Amma 17 gün onunla cəbhədə qardaşdan da yaxın olduq. Sonra bizi ayırdılar. Amma döyüş boyu Ruhini unutmurduq. Mən onunla görüşmək üçün günləri sayırdım. Onun şəhid olma xəbərini eşidəndə sarsıldım. Bircə təsəllimiz odur ki, Ruhinin də, başqa şəhidlərimizin də qanı yerdə qalmadı, torpaqlarımız işğaldan azad olundu. Ruhinin can qoyduğu torpağa indi düşmən ayaq qoymur. Sabah, birigün o torpaqlara Ruhinin balaları ayaq qoyacaqlar. Bəzən deyirlər ki, vətən sağ olsun, vətən sağ olsun, amma sizi inandırıram ki, vətən sağ deyil. Vətənin hər qarışında o qədər oğulların qanı var. Vətəndən soruşaq, görək sağdırmı? Allaha and olsun, sağ deyil. Çünki o boyda oğullar itirib. Ona Ruhin demirdik, komandir deyirdik. Bir dəfə minomyot atəşindən qaçıb bir daşın arxasında daldalandıq. Onda ona dedim, Ruhin sənə adınla müraciət etməyə abır-həya edirəm, ona görə də komandir deyirəm. Söz verirsən ki, müharibədən sonra görüşəcəyik. Dedi, nə komandir, nə rütbə, biz burda hamımız əsgərik. Mən də sənin kimi döyüşməyə gəlmişəm. İnşallah, görüşəcəyik(lent.az)

# Aida Mahmudovanın ABŞ-da açılmış sərgisi beynəlxalq media tərəfindən geniş işıqladırılıb

***Yanvarın 14-də Nyu-Yorkun Sapar Contemporary Gallery + Incubator qalereyasında açılan Azərbaycan rəssamı Aida Mahmudovanın ”PASTPRESENTFUTURE” adlı sərgisi beynəlxalq KİV-lərin böyük marağına səbəb olub.***

“Unikal” Trend-ə istinadən bildirir ki, sərgi ”The Art Gorgeous” (https://theartgorgeous.com/female-led-exhibitions-we-cannot-wait-to-see-in-2021/) və ”Art Daily” (https://artdaily.com/news/131994/Sapar-ContemporaryGallery---Incubator-opens-an-exhibition-of-works-by-Aida-Mahmudova#.YAbH0pMzaqC) kimi nüfuzlu nəşrlərdə işıqlandırılıb.




Sapar Contemporary Gallery + Incubator (Nyu-York), Azərbaycan rəssamı Aida Mahmudovanın - varlığın fraqmentar təbiətini zamanla və landşaftda təhrif olunmuş xatirələr vasitəsilə tədqiq edən ”PASTPRESENTFUTURE” adlı yeni silsilə əsərlərini təqdim edir. Qalereyanın Mərkəzi Asiya və Qafqazda fəaliyyət göstərən nüfuzlu qadın rəssamlara dəstək istiqamətində fasiləsiz səyləri çərçivəsində təşkil edilən ”PASTPRESENTFUTURE” rəssamın Amerika Birləşmiş Ştatlarında ikinci fərdi sərgisidir.

Rəssam yeni silsiləsində yaradıcılıq prosesinin sırf emosional və instinktiv tərəfini önə çəkmək üçün xarici məhdudiyyətlərdən (ideoloji, siyasi və ya dini) kənarda mövcud olan əsərlər yaratmaq məqsədilə keçmişi, bu günü və gələcəyi vəhdət halında birləşdirir. Nəticədə birbaşa olaraq rəssamla rəsm texnikası arasındakı əlaqədən ilhamlanan və mühafizə olunmayan dəyərləri göstərən güclü əsərlər yaradılır.

Ot və quru bitkilərdən istifadə edilərək və rəssamın impressionist yaxmaları nəticəsində ərsəyə gələn ”Mənşə” (2020) kimi əsərlər rəssamın vətəni Azərbaycanda rast gəlinən landşaftın canlandırıcı detallarını üzə çıxarır. Yer kürəsinin səthi ilə bağlı reallıqlara baş vuran Aida Mahmudovanın təsvir etdiyi bu proses təbiəti xatirələri oyadan nostalji hissi ilə doldurur. Təbəqələrin yaradılması və ya onların bir-birindən ayrılması, habelə quru bitkilər, keramika, mis də daxil olmaqla müxtəlif materialların qarışdırılması prosesi rəssam üçün fiziki olaraq tərəqqi və emosional şəfa tapma məqsədilə edilən məşğələyə çevrilir.

Azərbaycanın paytaxtı Bakıda yaşayıb fəaliyyət göstərən Aida Mahmudovanın rəsm əsərləri onun seçdiyi materialların fiziki təbiəti və üstünlük verdiyi dünyəvi palitrası ilə ahəngdar şəkildə uzlaşır. Onun olduqca intuitiv xarakter daşıyan axtarışları xarici sədlərdən yan keçən sevgi, itki, yaddaş və istək kimi universal insan hisslərinin bütün spektri üzrə inkişaf etməyə davam edir. Rəssamın öz sözlərinə görə, ”cəmiyyətin bir hissəsi olaraq, biz varlığın təbiətini, başqaları ilə qarşılıqlı münasibətlərimizi müəyyən dərəcədə məhdudlaşdırırıq və bunun la da ibtidai ünsiyyət kanallarını itiririk. Mənim üçün incəsənətin heç bir sərhədi yoxdur - o, ünsiyyətin istənilən forması üçün açıqdır, yaradıcılıq prosesi isə insan tərəfindən yaradılmış və buna görə də olduqca kövrək olan fundamental prinsipləri bu və ya digər dərəcədə məhv edir.”

## Rəssam haqqında

Aida Mahmudova (d.1982, Bakı, Azərbaycan) Bakıda yaşayır və fəaliyyət göstərir. O, 2006-cı ildə Londonda Sent-Martin İncəsənət və Dizayn Kollecinin rəngkarlıq fakültəsini bitirib. Onun Belçika, London, Roma, Nyu-York, Moskva və Bakıda qrup və fərdi sərgilər də daxil olmaqla, beynəlxalq səviyyədə iri miqyaslı sərgiləri keçirilib. Seçilmiş fərdi sərgilərinə daxildir: ”İşığı tuta bilmirəm”, Deweer Gallery, Otegem (2017); ”Ötüb keçərkən”, Leila Heller Gallery, Nyu-York (2015); və ”Daxili sakitlik”, Barbarian Art Gallery, Sürix (2013). Aida Mahmudovanın əsərləri 55-ci Venesiya Biennalesində ”Love Me, Love Me Not” qrup sərgisində (2013) və 56-cı Venesiya Biennalesi çərçivəsində (2015) Artwise kuratorluğu ilə keçən ”VITA VITALE” sərgisində nümayiş olunub.

## Sapar Contemporary Qalereyası haqqında

SAPAR Contemporary Gallery + Incubator 3 nəsil və 5 qitəni əhatə edən beynəlxalq səviyyəli rəssamlarla çalışır. Onlar qlobal səviyyədə aparılan müzakirələrdə iştirak edir və Nyu-York, Berlin və Mexiko şəhərlərində olduğu kimi, Bakı, Almatı və İstanbulda da ciddi rezonans doğuran fikirlər sürürlər. Onların yaradıcılıq təcrübəsi meditasiya effekti verən ənənəvi kalliqrafiyadan tutmuş, proqram kodunun yazılmasına qədər müxtəlif sahələri əhatə edir; onları birləşdirən isə rəssamların empatiya qurmaq bacarığı, özünütənqidi və təxəyyülü, eksentrik və nəcib ruhu, habelə studiyada işləməyin çətinliyi və dərinliyidir. Qalereyanın proqramı birbaşa və qlobal, gələcəkyönümlü və əlçatan, çoxistiqamətli xarakter daşıyan unikal şərtlər təklif edir. SAPAR Contemporary, həmçinin xüsusi bir sahə üçün xarakterik olan, lakin rəssamların hissləri, xarakteri və keçmişdən gələn ənənələrə əsaslanan rəsm əsərlərini də təqdim edir.

SAPAR Contemporary, həmçinin Mərkəzi Asiyanın formalaşmaqda olan incəsənət qalereyası və mədəniyyət ənənələrinə yönəlmiş Neo-Nomad İnkubatorunu da yaradıb. İnkubator proqramının Baş ofisi Qazaxıstanın Almatı şəhərində yerləşir. Neo-Nomad İnkubatorunun ilk nəşri köçərilik təcrübəsi ilə bağlı olan ənənəvi və rəqəmsal nomadizm və estetika anlayışı əsasında hazırlanmışdır. Layihə çərçivəsində Mərkəzi Asiya və Yaxın Şərqin ənənəvi köçəri mədəniyyətləri, habelə miqrasiya, qloballaşma və hipermobililik reallıqları arasındakı əlaqə araşdırılmışdır. Hazırda qurumun bütün səyləri Mərkəzi Asiya, Qafqaz, Rusiyanın cənub-şərqi və Monqolustanda unikal incəsənət sərgilərinin işıqlandırılmasına yönəlmişdir. İnkubator proqramı 2020-ci ildən bəri diqqətini bu regiondan olan qadın rəssamlara yönəltmişdir.

Aida Mahmudovanın PASTPRESENTFUTURE sərgisi 14 yanvar - 16 fevral 2021-ci il tarixlərində Nyu-York ş., Nort-Mur küç., 9, NY 10013 ünvanında keçirilir.



# Şuşada festivalların keçirilməsi ilə bağlı işlərə başlanıb - Nazir

***Şuşada ”Xarı bülbül” festivalı və Vaqif poeziya günlərinin keçirilməsi ilə bağlı tapşırıq verib və biz artıq bununla bağlı işlərə başlamışıq.***

“Unikal” Trend-ə istinadən bildirir ki, bunu Mədəniyyət naziri Anar Kərimov Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı (TÜRKSOY), Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası (TDƏŞ) və Türk Mədəniyyət və İrsi Fondunun nümayəndə heyəti ilə görüşündə deyib.

Görüşdə TDƏŞ-in Baş katibi Bağdad Amreyev, TÜRKSOY-un Baş katibi Düsen Kaseinov, Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Günay Əfəndiyeva, TDƏŞ Baş katibinin müavini Qismət Gözəlov, təşkilatın layihə direktorları Fərrux Cumayev, Bobur Taqayev, Azərbaycan Mədəniyyət Nazirliyinin TÜRKSOY-dakı nümayəndəsi Elçin Qafarlı iştirak edib.

Qonaqları səmimi salamlayan Anar Kərimov nümayəndə heyətlərinin Ağdam və Füzuli rayonlarının işğaldan azad olunan ərazilərinə səfərlərini yüksək dəyərləndirdiyini deyib. Bildirib ki, Azərbaycanı dəstəkləyən, ona dost olan insanların bu ərazilərə səfəri, xoş niyyəti bizim üçün böyük əhəmiyyət kəsb edir: ”44 günlük Vətən müharibəsi Azərbaycanın Zəfəri ilə başa çatdı və 30 ildən sonra torpaqlarımıza qovuşduq. Müharibə zamanı mən türkdilli dövlətlərin Azərbaycana dəstəyini xüsusi vurğulamaq istəyirəm. Həm cəmiyyət tərəfindən, həm də siyasi aləmdə biz bu böyük dəstəyi hiss etdik. Yəqin məlumatlısınız ki, İCESCO-nun nümayəndə heyəti də bir neçə gün əvvəl Azərbaycana səfərində işğaldan azad olunan ərazilərimizə baş çəkmişdi. Bu ərazilərdə biz yeni layihələr reallaşdırmağı düşünürük və bu proseslərdə türkdilli dövlətlərlə də birgə əməkdaşlıq məsələləri daha sıx şəkildə təşkil olunmalıdır. Bilirsiniz ki, Azərbaycan Prezidenti İlham Əliyev bu il Şuşada ”Xarı bülbül” festivalı və Vaqif poeziya günlərinin keçirilməsi ilə bağlı tapşırıq verib və biz artıq bununla bağlı işlərə başlamışıq. Elə ərazilər var ki, minalardan təmizlənməlidir, artıq Füzulidən Şuşaya yol çəkilir, yeni infrastruktur hazırlanır. Biz də öz növbəmizdə bu quruculuq işlərinə töhfə verərək dünya ictimaiyyətinə mədəniyyətimizin beşiyi olan Şuşa və Qarabağ ərazisini tanıtmalı, təbliğ etməliyik”.

Nazir daha sonra ”Nizami ili” ilə bağlı keçiriləcək tədbirlər haqqında fikirlərini bölüşüb. Bildirib ki, dahi Nizami Gəncəvinin yubileyi Azərbaycanla yanaşı, bir sıra xarici ölkələrdə də qeyd ediləcək: ”İnanıram ki, türkdilli dövlətlərin nümayəndələri ”Nizami ili” ilə əlaqədar təşkil edilən tədbir və festivallarda yaxından iştirak edərək öz töhfələrini verəcəklər”.



# Yaqub Zurufçu: “Müqəddəs Qarabağımız da, Vətən oğulları da Azərbaycandır!”

Bütün şəhidlərimizin və şəhid analarının şərəfinə Yaqub Zurufçunun ucaltdığı “musiqi abidəsi”

***Güneyli-quzeyli Azərbaycanımızın görkəmli, vətənpərvər oğlu Yaqub Zurufçu xalqımızın hələ 1988-ci ildən başladığı azadlıq çarpışmalarının, Qarabağ uğrunda haqq döyüşlərinin ön sıralarında olmuş, “Ayrılıq” və digər vətənpərvər mahnıları ilə öz mübariz səsini xalqın səsinə qatmış, Vətənimizin xoş günlərinin sorağında olmuşdur. Böyük el məhəbbəti qazanmış ustad müğənni ötən illərdə olduğu kimi, 44 günlük Vətən müharibəsinin ilk günlərindən də Ali Baş Komandanımız İlham Əliyevin rəhbərliyi ilə uğurlu döyüşlər aparan Milli Ordumuzun igidlərinə xeyir-dua diləmiş, 30 ilə qədər işğal altında qalmış hər kəndimiz, şəhərimiz düşməndən azad edildikcə sevincindən göz yaşlarını saxlaya bilməmiş, xalqımızın böyük, müqəddəs Qələbəsinə dərin inam bəsləmişdir.***

Lakin möhtəşəm zəfərimizə aparan yollarda “can Vətən!” deyib, qorxu bilmədən, mərdliklə, qəhrəmancasına vuruşaraq şəhid olmuş hər bir döyüşçümüzün, onların doğmalarının kədəri Yaqub bəyin də qəlbində ağır bir daş kimi asılıb qalmışdı. Və o, öz qəlbinin və şəhid analarının ürəklərinə az da olsa, məlhəm qoymaq istəyilə neçə vaxt idi ki, üzərində çalışdığı həzin, kövrək bir mahnı bəstələyərək, şəhidlərimizin və şəhid analarının şərəfinə “Ağlama, anam, mənə...” adlı möhtəşəm bir “musiqi abidəsi” ucaldıb. Mahnıda ülvi duyğular üzərində köklənərək, rəmzi şəkildə səslənən musiqili ana-oğul dialoqu sanki əbədiyyət, ilahi bir bəşər sevgisinin nümunəsidir. Mahnının sədaları və Yaqub bəyin qəlbləri ehtizaza gətirən həzin, kövrək ifası həm üzünü bir də heç vaxt görə bilməyəcəyi, boynuna qol salıb, üz-gözündən öpə bilməyəcəyi övlad üçün laylay kimi səslənən müqəddəs ana kədərini, həm də ruhu göylərdə, uğrunda canından keçdiyi Vətən səmasında indi şad və rahat dolaşan şəhidin qürur və sevincini bütün dolğunluğu ilə çatdırır dinləyiciyə.

31 il əvvəl - 1990-cı ilin 20 Yanvar günü azadlıq, müstəqillik eşqilə doğma Bakımızın küçələrində Sovet imperiyasına, onun azğın, vəhşiləşmiş ordusuna qarşı çıxaraq, cəsarətlə, qorxu bilmədən tankların üzərinə şığıyıb həlak olan oğulların, 1-ci Qarabağ savaşında və bizim böyük Qələbəmizlə başa çatan Vətən müharibəsində mərdliklə vuruşaraq şəhid olan igidlərimizin analarının, doğmalarının qəlbinə az da olsa təsəlli olacaq bu qəhrəmanlıq elegiyası onu kövrək duyğular üzərində bəstələyərək, həm də həzin bir tərzdə, Vətən uğrunda canlarından keçmiş igid Azərbaycan oğullarına sonsuz məhəbbətlə ifa edən sevimli sənətkarımız Yaqub Zurufçunun və mahnının qəlb titrədən sözlərinin müəllifi Solmaz xanım Şirvanlılnın şəhidlərimizin ölməz ruhuna böyük, sevgi dolu ehtiramlarının ifadəsidir.

***Rəhman ORXAN***

# Elçiliyə gecə saat 1-də gedən, Cəfər Cabbarlının qızını alan, baba olduğunu eşidəndə dünyasını dəyişən yazıçı - Maraqlı faktlar

***“Unikal” kulis.az-a istinadən yazıçı dramaturq Seyfəddin Dağlı haqqında maraqlı faktları təqdim edir.***



Görkəmli yazıçı-satirik, şair, jurnalist, tərcüməçi və dramaturq Seyfəddin Ələğa oğlu Abbasov avqustun 27-də 1921-ci ildə Xızıda anadan olub. O, 13 günlük olanda anası Qəmər vəfat edib. Kənddə hansı qadının balaca uşağı varmışsa, körpəni aparırmışlar onun yanına ki, süd versin.

***

Seyfəddinin atası Ələğa Abbasov dövlət qulluqçusu olub, müxtəlif rayonlara işləməyə göndərilib. Elə buna görə də uşaq ata babası Bəhlul kişinin ümidinə qalıb. Bəhlul kişi savadsız adam idi. Amma xeyirxah, əliaçıq, səxavətli olmasıyla özünə hörmət qazanmışdı. Seyfəddin hələ kiçik ikən ailəsi ilə birgə Bakıya köçüb. Orta məktəbi də elə bu şəhərdə oxuyub. Ancaq iş elə gətirir ki, Seyfəddin uşaq ikən Bəhlul kişi dünyasını dəyişir. O, atasıgillə yaşamağa başlayır. Atasının ikinci evlilikdən beş uşağı dünyaya gəlmişdi: iki oğlan, üç qız. Analığı Seyfəddinlə pis rəftar etmirdi. Amma hər halda, doğma ananın da yerini vermir.



***

Seyfəddin Cəfər Cabbarlının xətrini çox istəyər, ona inanardı. Ona görə də uşaqlıqda hərdən acıq eləyəndə onlara gedərmiş. Cəfər Cabbarlı isə onu əzizləyər ”Nə olub? İncidiblər səni? Gəl, qal bizdə, mənim oğlum ol” deyərmiş. Çox-çox illər ötəndən, Seyfəddin Dağlı uşaq vaxtı oyunlar oynadığı Cəfər Cabbarlının qızı Gülarə ilə ailə qurandan sonra keçmiş günləri yada salıb zarafatla deyir: ”O vaxt Cəfər əmi mənə deyirdi ki, gəl qal bizdə. Yəqin elə o vaxtdan qızını mənə vermək istəyirmiş”.

Seyfəddinin on üç yaşı olanda Cəfər Cabbarlı da dünyasını dəyişir. Ondan sonra Seyfəddin daha əvvəlki kimi onlara tez-tez getmir. Başı dərslərinə qarışır. Orta məktəbi bitirib, əvvəlcə texnikumda təhsil alır. İlk iş yeri ”Kommunist” qəzetinin redaksiyası olur. Bədii yaradıcılığa isə, orta məktəbdə oxuduğu illərdə başlayır.

***

Günlərin birində Seyfəddin Dağlı Cəfər Cabbarlının qızı Gülarəyə elçi düşür. Bunun üçün o, Cəfər Cabbarlının həyat yoldaşı Sona xanımın direktor olduğu Teatr Muzeyinə gedib: ”İstəyirəm, Gülarənin taleyini mənim taleyimlə bağlayasan”, deyir. Sona xanım isə ”Mən qızımı sənə verərəm”, - deyir. - ”Ancaq gərək əvvəlcə Gülarənin özüylə danışasan. Onun fikrini öyrənəsən, biləsən, səninlə ailə qurmağa razıdır, ya yox.”

Gülarə xanım xatirələrində deyir:

O zaman mən anama dedim ki, yəqin bizim ailə qurmağımızı sən istəmisən. Anam isə dedi ki, nə danışırsan? Neçə dəfə iş yerimə gəlib, səni məndən istəyib. Sabah dərsdən sonra məktəbinizin yaxınlığındakı poçtun qabağında səni gözləyəcək. O vaxta qədər Seyfəddinin məni sevdiyini, mənimlə ailə qurmaq istədiyini bilmirdim. Bir dəfə də olsun, bu barədə danışmamışdı. Ancaq onu görəndə həmişə nədənsə uşaq kimi utanırdım. Biz onunla görüşüb söhbət etdik, mənə dedi ki, bir neçə eyibim var, deyim indidən bil. Onlardan biri xoruldamığım, o biri isə çəçələ barmaqlarımdan birinin əyri olmasıdır. Həmin gün gecə saat birin yarısı olardı. Qapımız döyüldü. Gedib açdılar. Seyfəddinin atası, əmisi, bir də dostu, ”Kommunist” qəzetinin redaktoru İsrafil Nəzərov qapıda dayanmışdılar. Hamımız heyrətlənmişdik. Gecənin bu vaxtı da elçi göndərərlər? Bizim evlənməyimiz belə oldu. Hər ikimiz tələbəydik. Ona görə də 1953-cü ildə, mən universiteti bitirəndən sonra toy etdik. Üç gün sonra Moskvaya getdik”.

Bir müddət sonra onların bir oğlu olur. Seyfəddin babasının xatirəsinə ehtiram olaraq uşağın adını Bəhlul qoyur. Sonra isə oğlu Altay, qızı Qəmər doğulur”.

***

O, 1956-1959-cu illərdə Dövlət Radio Komitəsində baş redaktor, sonralar isə ”Bakı” telestudiyasının direktoru və sədr müavini vəzifələrində işləyir. Seyfəddinin jurnalistlik fəaliyyətinin böyük bir hissəsi ”Kirpi” jurnalıyla bağlı olub.

1983-cü il yanvarın 16-da qızı Qəməri doğum evinə aparırlar. Seyfəddin oğul nəvəsi olduğunu eşidib çox sevinir. Ancaq həmin ərəfədə özünün vəziyyəti yaxşı olmur. Ürək ağrıları daha da güclənir. Həmin gün yanvarın 18-i qaynı Aydın gəlib onu həkimə aparmalı imiş. Yuxudan oyanan yazıçı əl-üzünü yuyanda ürək ağrıları şiddətlənir. Həyat yoldaşı qonşuluqda yaşayan Nəriman Həsənzadəgilə qaçıb xəbər verir. ”Təcili yardım” xeyli vaxtdan sonra gəlib çıxır. Lakin, bu zaman artıq seyfəddin Dağlı dünyasını dəyişir. Qızı Qəmərə isə düz bir ay atasının ölüm xəbərini demirlər.

***

O, dünyasını dəyişəndən sonra qəribə mistik hadisə baş verir. Son kitabının qonorarı üçün nəşriyyatın direktoru, rəhmətlik Əjdər Xanbabayev onun evinə zəng vurub ailə üzvlərinə deyir ki, gəlin Seyfəddinin qonorarını alın. Oğlu gedir və məlum olur ki, atası ölümündən iki gün əvvəl gedib qonorarını alıb. Amma pulları hara qoyduğu məlum deyildi. Bir axşam ailə üzvləri oturub söhbət etdikləri zaman elə bil sirli bir əl kitab rəfindəki kitablardan birini götürüb yerə atır və pullar ətrafa səpələnir. Bu, onun ”Azərnəşr”dən aldığı qonorar idi.

# DOST QİSASIN ALAN QƏHRƏMAN

***Əsarət - torpağın dili olsaydı Qarabağ torpaqları bu sözün izahını verərdi. Yağı tapdağında tapdalanmaqdan, yağmalanmaqdan, parçalanmaqdan yorulmuşdu Qarabağ torpaqları. 30 illik həsrətin ağrı-acısını çəkən bir xalqın hər bir nümayəndəsi Qarabağı əsarətdən qurtarmağın xəyalı ilə yaşadı. Kimi bunu xəyal etdi, kimi isə ömrünü o əsarəti sona çatdırmaq üçün fəda etdi. Xəyal edən bizlər, canından, qanından keçənlər isə qazilər və şəhidlər oldu. Onlar müqəddəs sevgilərindən azadlıq dastanı yazdılar. O dastanı yazan qəhrəmanlardan biri Musayev Sədi Süleyman oğlu. Kimdir bu qəhrəman? Onun canından keçərcəsinə vətən sevgisinə nəzər salaq.***

Musayev Sədi Süleyman oğlu 1978-ci il 1 aprel tarixində Naxçıvan MR Kəngərli rayonunun Qıvraq qəsəbəsində dünyaya gəlmişdi. Ailədə 3 qardaş 1 bacı olmuşdular. Atası Süleyman Musayev və anası Nəsibə Musayevə bütün valideynlər kimi öz ömürlərini övladlarına həsr etmişdilər. Sədi həyatın sərt sınağına erkən yaşlarında tuş gəlmişdi. O məktəbə başladığı zaman atasını itirmişdi. İlk dəfə elmə yiyələnməyə 1985-ci ildə başlayan Sədi Qıvraq qəsəbəsi Sirac Əsədov adına 2 nömrəli orta məktəbə getmişdi. 1993-cü ildə Cəmşid Naxçıvanski adına hərbi liseyə daxil olmuşdu. 1996-2000-ci illərdə Bakı Ali Ümumqoşun Komandirlər məktəbində motoatıcı ixtisası üzrə təhsilini davam etdirmişdi. 2000-ci ildə leytenant hərbi rütbəsi almışdı.Mingəçevir şəhərində N saylı hərbi hissəyə motoatıcı alayın tağım komandiri vəzifəsinə təyin edilmişdi. 2002-ci ildə həmin hərbi hissədə Ordu Korpusu komandirinin müvafiq əmri ilə motoatıcı bölük komandiri vəzifəsinə təyin edilmiş və baş leytenant rütbəsinə layiq görülmüşdü. Müxtəlif zamanlarda motoatıcı taborun qərargah rəisinin şəxsi heyət üzrə köməkçisi, əməliyyat bölməsinin döyüş hazırlığı üzrə baş köməkçisi, döyüş hazırlığı bölmə rəisi, əməliyyat bölmə rəisi-qərargah rəisinin müavini, əməliyyat şöbə rəisinin təlimlər üzrə baş köməkçisi vəzifələrinə təyin olunmuşdu.

Ruhən vətənə bağlı olan Sədi könlünü də Gülşad xanıma vermişdi. Sevənlər 2004-cü ildə ailə həyatı qurmuş və bundan sonra hərbiçi xanımı Gülşad xanım da bir hərbiçiyə çevrilmişdi. Sədini heç zaman tək buraxmayan xanımı onunla bərabər həyatın bütün çətinliyini çiyinlərinə yığmışdı. Sədi evliliklərinin ilk ilində 2005-ci ildə kapitan hərbi rütbəsinə layiq görülmüşdü. Üç il Tərtərdə yaşayan ailənin evliliklərinin üçüncü ilində qızları Arzu dünyaya göz açmış və daha sonra 2009-cu ildə oğul övladları Süleyman dünyaya gəlmişdi. Bir - birlərini bir baxışdan başa düşən sevənlərin sevgisi bütün çətinliklərin körpüsü idi. Həyatını vətənə həsr edən hərbçi 2014-cü ildə mayor hərbi rütbəsinə layiq görülmüşdü. Ailəsindən çox əsgərlərinə zaman ayıran Sədi xanımı ilə hər zaman qürur duyurdu. Necə ki, Gülşad onunla qürur duyurdu. Ancaq Sədinin bir arzusu xanımının ürəyin sızladırdı.



O arzu şəhidlik arzusu idi. Bir dəfə Sədi xanımına "Namazda əlini göyə aç dilə ki, mənə də şəhidlik qismət olsun" demiş Gülşad isə cavabında "sən öldüyün gün mən özümü öldürərəm" cavabını vermişdi. Ancaq Gülşad nə bilərdi ki, bir vaxt gələcək cənnətdə Sədisinə qovuşsun deyə Sədisiz yaşamağa məcbur qalacaq.

2016 - cı ilin aprel döyüşlərində Sədi ön cəbhədə vuruşan qəhrəmanlardan biri olur. Aprelin 1-i doğum günündə Gülşad Sədinin gəlməyəcəyini bilsə də onun ad günü üçün tədarük görür. Özü gəlməyən Sədinin zəngi Gülşadı məyus edir. Sədi ona səs-küy gələrsə qorxmamağı tapşırır. Həmin gecənin səssizliyini atəş səsləri pozur. Dan yeri söküləndə Füzuli sakinləri təhlükəsiz yerlərə getsələr də Gülşad və iki övladı evlərini tərk etmirlər. Sədinin zənglərə cavab verməməsi Gülşadın ürəyin qovurur elə bu zaman Sədidən zəng gəlir. Sədi təcili evi tərk edib Bakıya getmələrini tapşırır. Ancaq o tək öz ailəsini, övladlarını düşünmür. İllərinin dostu, "can qardaşım" dediyi, həmin döyüşlər zamanı bir səngərdə vuruşduğu mayor Rasim Məmmədovun əmanətlərinin də təhlükəsizliyini düşünür. Gülşada dostunun ailəsi ilə birlikdə Bakıya getmələrini tapşırır. Sədinin bir sözünü iki etməyən xanımı ürəyi parçalana-parçalana Sədinin dediklərini edir. (O günləri dinlədikcə və o anları təsəvvür etdikcə ruhum cismimi tərk edəcək sandım.) İki dostun əmanətləri ürəklərini Füzulidə qoyub Bakıya yola düşürlər. Uzanan yollar, dilə gələn dualar. Ancaq dualar qəbul olmur. İki gün sonra Sədi həyatının ən böyük acı xəbərini Gülşada verir. O, dostu, sirdaşı, silahdaşı, can qardaşı mayor Məmmədov Rasim Əbdül oğlunun şəhid olduğu xəbərini verir. Rasimin itkisi həm dost üçün, həm də vətən üçün ağır itki olur. Dostunu itirən bir hərbçinin intiqam hissi daha da böyüyür.

Düşmənlə son gülləsi bitənə qədər mübarizə aparır, gülləsi bitdikdən sonra əlbəyaxa döyüş aparır. Rəzil düşmən onun əllərini gəmirsə də o ermənini qanına qəltan edir. Aprel döyüşlərində xüsusi şücaətlər göstərən Sədi yanan tankın içindən 5 hərbçini çıxarır. O əsgərlərdən ikisi onun gözlərinə baxa-baxa canını tapşırır. Günlərlə Sədidən heç bir xəbər çıxmır. Döyüş bitir ancaq Sədinin qəlbindəki dost itkisi ilə apardığı savaş bitmir. O gündən sonra Sədi heç zaman Rasimin yoldaşının üzünə baxa bilmir. "Mən Rasimin qisasın almadığım günə qədər Rasimin əmanətlərinin üzünə baxa bilmərəm" deyir və o amalla yaşayır.

Bir hərbçi vətəni işğalda olduğu müddətdə heç zaman rahatlıq tapmır. Hərbidə qazandığı nailiyyətlərdən azadlığa yetişmək üçün istifadə etsin deyə o günün arzusu ilə yaşayır. Sədi Musayevin də o arzusu 2020 - ci ilin sentyabrında gerçək olur. Sentyabrın 25-i gecə evə gəldiyində övladlarını doya-doya öpüb qoxlayır. Sonra yoldaşından hamamı istməsini xahiş edir. Gecənin o saatında Sədinin istəyini təəccüblə qarşılayan Gülşadın aldığı cavab Sədinin hər zaman dilə gətirdiyi "Yuyunum birdən şəhidlik qismət olar,pak olum" cavabı olur. Sədi "Biz Qarabağ adlı savaşı gələcək nəsillərə saxlamayacağıq. Biz bu savaşı bitirəcəyik ki, daha analar övladlarını əsgərliyə yola salanda onları itirmək qorxusu ilə yaşamasınlar" sözlərini deyərkən əslində olacaqlara işarə edirmiş. 26 sentyabrda evdən çıxarkən uşaqlarını bağrına basıb, Gülşada "Səni Allaha, uşaqları sənə əmanət edirəm. Mən Rasimin qisasın alacam" sözlərini deyir. Bir qədər uzaqlaşdıqdan sonra təkrar qayıdır və Gülşadını bağrına basır. Son dəfə sevdiyinin qoxusunu içinə çəkir və dönüşü olmayan bir yola çıxır.

27 sentyabrda müharibə başladığını eşidən Gülşad Sədiyə zəng edir. Sədi hər şeyin qaydasında olduğunu deyir və telefonu söndürür. O susan telefona bir daha Sədi cavab vermir. Gülşad dayanmadan namaz qılıb dua edir. Ancaq bu dəfə onun yox Sədinin etdiyi dualar qəbul olur.

Gecənin sükutun qapı döyüntüsü pozur. Sədinin gəldiyini düşünən Gülşad qapıda qayını Səbuhini gördüyündə təəccüblənir. Qardaş qardaşın əmanətlərinə acı gerçəyi deyə bilmir. Qayını Sədinin ona zəng edib onları Bakıya aparmağını istədiyi yalanını uydurur. Ürəyində şüphələr yaranan Gülşad çox təkiddən sonra Bakıya yola düşür. Ünvana çatdığında isə Sədinin yaralandığını eşidir. Hər kəs Gülşad Sədi sevgisindən agah idi. Onun üçün heç kim Sədinin şəhid olduğu xəbərini deməyə cürət etmirdi. Gələn insanların artan sayı ilə Gülşad məsələdən agah olur. O gerçəklə Gülşadın sevinci, xoşbəxtliyi məhv olur. Ruhunu yar məzarında dəfn edən qadının cismi Sədinin əmanətlərinə sahib çıxmaq üçün və əbədiyyətdə yarına qovuşmaq üçün yaşayır.

Sədi Musayev hələ sağlığında orduda göstərdiyi şücaətlərə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə "Qüsursuz xidmətə görə" III dərəcəli medalı, "Qüsursuz xidmətə görə" II dərəcəli medalı, "Azərbaycan Silahlı Qüvvələrinin 90 illiyi" yubiley medalı, "Azərbaycan Silahlı Qüvvələrinin 95 illiyi" yubiley medalı, Azərbaycan Ordusunun 100 illiyi "yubiley medalı ilə təltif olunmuşdu. Şəhadətə ucaldığından sonra isə "Vətən Uğrunda" medalı, "Azərbaycan Bayrağı" ordeni və "Füzulinin azad olunmasına görə" medalı ilə təltif olunub. Sədi Musayevin Vətən müharibəsində döyüş yolu qısa oldu. Onun kimi bir qəhrəmanı döyüşün ilk günlərində itirmək Ordu üçün böyük itki oldu. Sədi Qarabağın azadlığını, o torpaqlarda dalğalanan bayrağı görmək arzusunda idi. O həmin azadlığa yol acan qəhrəman kimi tarixin yaddaşında qaldı. Həm də dost qisasın alan bir qəhrəman şəhid kimi...

Polkovnik-leytenant Musayev Sədi Süleyman oğlu sentyabrın 28-də II Fəxri Xiyabanda dəfn olunub.

Gülşad xanımla söhbətimiz əsnasında onun Sədidən sağmış kimi danışmağı mənə çox təsir etdi. "Mən Sədinin həyatda olmadığı gerçəyini qəbul etməmişəm, etmərəmdə. O gerçəyi qəbul etdiyim gün ölərəm". Yarımçıq qalan daha bir həyat, nakam qalan arzular...

***Manya Səxavətqızı***

# Soyuqdəymənin qənimi: 15 dəqiqəyə hazırlanan möcüzə

***Soyuq qış aylarının ən əvəzedilməz yeməklərindən biri də "əvəlikli isti" yaxud "əvəlik şorbası"dır. El arasında şəfa mənbəyi kimi dəyərləndirilən bu yemək zökəm və soyuqdəymənin təbii dərmanı kimi tanınır. Yeməyi müalicəvi edən ölkəmizin, demək olar ki, hər yerində rast gəlinən əvəlik bitkisidir. Yabanı halda bitən bu bitki yay aylarında yığılaraq saç hörüyü, yaxud yarpaq şəklində qurudularaq saxlanılır.***

"Unikal" əvəlikli-əriştəli şorbanın bişirilmə qaydasını təqdim edir.

Lazım olan ərzaqlar:
- 3 ədəd baş soğan
- 100 qram yağ
- 100 qram maş lobya
- 200 qram un
- bir boşqab qurudulmuş əvəlik
- qaynar su

Yeməyi hazırlamaq üçün əvvəl maş lobya suda qaynadılır. Sonra əvəlik yumşalması üçün qaynar suda isladılır. Bundan sonra 1 kündəlik xəmir yoğurulur və əriştə kəsilir. Əriştə üçün hazırlanan xəmirin bir qədər bərk olması məsləhətdir. Əriştə kəsiləndən sonra üzərinə un səpilərək qarışdırılır ki, qaynar suda bir-birinə yapışmasın.

Əriştə hazırlandıqdan sonra soğan doğranılır, yağ-soğan edilir. Hazır olandan sonra üzərinə qaynanmış su tökülür Su qazanda qaynara düşdükdə isə əvvəlcədən hazırlanmış maş lobya suya əlavə edilir. Ardınca əvvəlcədən isladılmış əvəlik sıxılıraraq qazana tökülür. Əvəliyin sıxılmasında məqsəd bitkinin "acı su"yunun çıxarılmasıdır.

Qazanın qapağı örtülür, 10 dəqiqə müddətində əvəliyin bişməsi gözlənilir. Son olaraq qazana kəsilmiş əriştə əlavə edilir. Ağız dadına uyğun olaraq şorbaya düz tökülür və qazanın qapağı bağlanır. Vam odda 5 dəqiqə qaynadıqdan sonra yemək artıq bişmiş hesab edilir. "Əvəlikli-əriştəli isti" süfrəyə, əsasən, kasalarda verilir.

# Koronavirusu gözlərdən belə müəyyən etmək olacaq

***Böyük Britaniya alimləri tədqiqatlar apararaq koronavirus zamanı insan gözündə yaranan əlamətləri aşkarlayıblar.***

"Unikal" Sputnik Azərbaycan-a istinadla xəbər verir ki, bu əlamətlərdən biri Günəş və ya süni işığa məruz qaldıqda, xüsusən də kompüter ekranlarına və mobil cihazların ekranlarına baxan zaman narahatlığın yaranmasıdır.

Alimlərin fikirncə, qaşınma və işığa dözümsüzlük bir çox xəstəliyin əlaməti olsa da, əksər hallarda bu yeni növ koronavirusun əlaməti kimi ortaya çıxır.

Tədqiqat zamanı mütəxəssislər müəyyən ediblər ki, hətta korlar belə koronavirusa yoluxduqları zaman gözlərində narahatlıq hiss edirlər.

Bir müddət əvvəl isə Uhan oftalmoloqları koroanvirusun təkcə ağciyər və selikli qişa hüceyrələrini deyil, eyni zamanda, göz toxumalarını da yoluxdura biləcəyini açıqlamışdı.

Mütəxəssislər koronavirus infeksiyasına yoluxan qadının gözlərinin hüceyrələrində SARS-CoV-2 hissəciklərinin protein qabığının qırıqlarını tapıblar. Bundan sonra qadında ciddi görmə problemləri meydana gəlib.

# Diffuz ezofaqospazm

**Diffuz ezofaqospazmın xarakterik təzahürləri bunlardır:**

* Döş sümüyü nahiyəsində və ya sürətlə yuxarı yayılan,həmçinin döş qəfəsinin ön səthi ilə alt çənəyə,çiyinə irradiasiya edən son dərəcə kəskin ağrılar xəstəliyin əsas əlaməti hesab edilir..Ağrılar qəflətən əmələ gəlir,çox vaxt udqunma ilə əlaqədar olur.Əksər hallarda ağrılar uzun müddət davam edir.Bəzi xəstələrdə ağrılar 1 udum su içdikdən sonra keçib gedi. Ağrılar qida borusunun uzunmüddətli qeyri-peristaltik yığılması ilə əlaqədar olur.

* Paradoksal disfaqiya - udqunmanın çətinləşməsi maye qida qəbulu zamanı daha kəskin,bərk qida qəbulunda isə az olur.Disfaqiya hər gün olmur və həftədə,bəzən isə ayda 1-2 dəfə meydana çıxır.

* Diffuz ezofaqospazm zamanı ağrı tutmasının sonunda gəyirmə olur.

* Qida borusu divarının uzun və davamlı spazmı.Bu zaman spazmlar adətən 15 saniyədən çox davam edir.

* Qida borusu divarının yüksək amplituda ilə (40-80mm.c.s) bir-birindən 3 sm-dən çox məsafəyə spontan (udma ilə əlaqəsiz) yığılması

# Mədənin sekretor funksiyasının müayinə metodları

***Həzm traktının yuxarı şöbələrinin mərtəbəli manometriya metodikası kateterin yeridilməsi və təzyiq dəyişkənliyinin qeyd olunmasından ibarətdir.Kimyəvi reaktiv qastrirdə onikibarmaq bağırsaqda təzyiqin 200-240 mm.c.s.-a qalxması aşkar edilir.***

**2.Helikobakter pylorinin aşkar edilməsi**

Helikobakter pylorini aşkar etmək üçün mövcud olan bütün diaqnostik testləri şərti olaraq iki qrupa bölmək olar:
- invaziv
- qeyri-invaziv

Helikobakteri pylorini həm mədə möhtəviyyatının bioptatlarında,həm də nəcisdə yoxlamaq olur.Morfoloji və ureaz vasitəsilə yoxlanıldıqda helikobakterini hər zaman təyin etmək mümkün olmur.



**3.İnvaziv testlər**

Bu müayinə üçün mədə selikli qişasının biopsiyası ilə müxtəlif müayinələr keçirilir.Bu zaman 4 biotat götürülür və Helikobakter pylorinin üç metodu tətbiq edilir:
* bakterioloji
* morfoloji(sitoloji,histoloji)
* biokimyəvi

**4.Bakterioloji metod**

Bu müayinə üsulu zamanı bioptatı genişləndirirlər,selektiv qidanı mühitə əkirlər və onu 37* tempraturda makroaerofil şəraitdə yetişdirirlər.Bundan sonra bitən bakteriyanın identifikasiyası həyata keçirilir.Bioptatda hətta tək-tək bakteriyanın olması birneçə koloniyanın birləşməsinə gətirib çıxarır ki,bu da dəqiq diaqnozun qoyulmasına səbəb olur.

**5.Morfoloji metod**

Morfoloji müayinənin spesifikliyi bioptatda digər bakteriya növünün olmamasından və Helikobakteri pylori bakteriyasının miqdarından asılıdır.

**6.Biokimyəvi metod**

Bu zaman mədənin selikli qişasının bioptatını sidik cövhərinə malik maye və ya gelə bənzər mühitdə inkubatorla birgə inkubasiya edirlər.

# Bronxların xəstəlikləri zamanı xəstəxanaya qəbul olmağa göstəriş

***Bronxların xəstəlikləri zamanı təngnəfəsliyin, öskürəyin, bəlğəmin ifrazının artması xəstəliyin getgedə ağırlaşmasının əlamətlərindən hesab olunur.Aşağıdakı əlamətlərin hər hansı birinin olması və ya güclənməsi bronxlarında xəstəlik olan adamın xəstəxanaya yerləşməsinin vacibliyini bildirir.***

- Ambulator şəraitdə müalicənin effektsizliyi
- Xəstəliyin əlamətlərinin artması və evdə yataq şəraitdə ola bilməməsi.
- Təngnəsəflik səbəbli yemək qəbulunun və yuxunun mümkünsüzlüyü.
- Təhlükəli hipoksiya.
- Hipertoniyanın əmələ gəlməsi və ya artması.
- Təcili yardım gətirilməsinin mümkünsüzlüyü.
- Yanaşı gedən ağ ciyər xəstəlikləri və ya kənar xəstəliklərin olması.
- Psixi pozğunluqlar.

Xəstəxanaya yatmağa təcili göstəriş xəstələrdə ağ ciyər ödeminin əmələ gəlməsi və ya kəskinləşməsi də səbəb olur.

Belə xəstələrdə ağır təngnəfəslik,huşun dolaşıq olması,diafraqmadakı paradoksal pozğunluqlar,artan hipoksiya xəstələrin intensiv terapiya şöbəsində yatmağının vacib olduğunu bildirir.

Belə xəstələr sağalıb xəstəxanadan çıxdıqda onlara mütləq maarifləndirmə proqramı tətbiq etmək lazımdır.Belə ki,belə xəstələrə tapşırılmalıdır ki, onlar həkim-xəstə münasibətlərinə son qoymasınlar.Onlara başa salmaq lazımdır ki,bəlğəmi bronxlarda saxlamaq olmaz. Bəlğəm mütləq vibrasion massajın,qələvi və ya bəlğəmgətiricilərin köməyi ilə xaric edilməlidir.Bronxlarda qalan bəlğəmi ev şəraitində inhalyasiya vasitəsi ilə boşaltmaq mümkündür.



# Çoxsaylı mielomanın diaqnostikası

***Xəstəlik müxtəlif mərhələlərdə aşkarlana bilir.***

Mieloma xoşxassəli olduqda osteodistrofik proses olmur,qan göstəriciləri normal olur, immunoqlobilinlərin səviyyəsi normal saxlanılır.Xəstəlik tez proqressivləşdikdə bu zaman sümüklərin dağılması başlayır və qısa müddətdə artır.Bu vaxt daxili orqanlarda metastazlar aşkar edilir,paraproteinin səviyyəsi kəskin yüksəlir,normal immunoqlobilinlərin sayı kəskin azalır.

Xəstəliyin başlanğıc hissəsində xəstələr heç bir şikayət etməsələr də,təsadüfi müayinələr zamanı xəstəliyi əlamətləri qanda aşkarlana bilir.

Çoxsaylı mieloma zamanı xəstələrin qanında EÇS uzun müddət yüksək olur (50-60).Bu müxtəlif yerlərdə lokalizasiyalı bədxassəli şiş toxumasının olmasının göstəricisi sayılır.Bəzən xəstəlik özünü birdən-birə sümüklərdə ağrıların olması ilə biruzə verir.Şiddətli ağrılar qabırğa,qalça sümüyü darağı və iri sümüklərdə baş verir.Xəstələrin sümük sistemi zəiflədiyinə görə onlarda tez-tez patoloji sınıqlar baş verir.Xəstələrdə ümumi zəiflik,tez yorulma,halsızlıq,arıqlama müşahidə edilir.Xəstələr güclü antibiotiklərlə müalicə olunsalar da sağalmayan pnevmoniyadan şikayət edirlər.Xəstələrdə dizuretik əlamətlər və pielonefrit baş verir.

Xəstəlik kəskinləşdikcə əlamətlər də artır,xəstələr şiddətli sümük ağrılarından şikayətlənirlər.Xəstələrdə tərləmələr başlayır və onların iri sümüklərinin sirkələdikdə ağrılar müşahidə edilir.

Çoxsaylı mieloma proqressivləşdikcə EÇS 80-ə qədər yüksəlir və trombositoz müşahidə edilir.Bu zaman müayinə məqsədilə xəstənin qalça sümüyünün darağından treponasiya və ya punksiya edilir və alınan bioptat analiz edilir.

Xəstəliyin sonuncu mərhələsində rentgenoloji müayinə zamanı sümüklərdə parıltılı hissələr aşkar edilir.

Çoxsaylı mielomanın müalicəsində hormonlar preparatlardan,bərpaedici vasitələrdən və metobolik pozğunluqların qabağını alan vasitələrdən istifadə edilir.

# UEFA Bakının qarşısına seçim üçün dörd ssenari qoydu




***UEFA Almaniya "Bavariya"sının prezidenti Karl-Haynts Rummeniggenin AVRO-2020-nin bir ölkədə təşkil oluna biləcəyi ilə bağlı fikirlərini şərh etməyib.***

"Unikal" qəzetinin məlumatına görə, bu barədə qitə futbol qurumundan "RİA Novosti"nin sorğusuna cavab olaraq bildirilib.

Qeyd olunub ki, hazırda UEFA Avropa çempionatı ilə bağlı 12 təşkilatçı şəhərlə azarkeşlərin stadionlara buraxılması istiqamətində 4 mümkün ssenarini müzakirə edir. Bunlar oyunların tam dolu tribunalar, ümumi tutumun 50-100 faizi, ümumi tutumun 20-30 faizi önündə və azarkeşsiz keçirilməsidir: "Hər bir şəhər UEFA ilə birlikdə 2-3 uyğun ssenari seçəcək və qarşıdakı həftələrdə müvafiq planlar hazırlayacaq. Yekun qərar martın əvvəlində hər şəhər üçün fərdi olaraq veriləcək".

Qeyd edək ki, koronavirus pandemiyasına görə təxirə salınmış AVRO-2020-yə Bakı, Sankt-Peterburq, London, Münhen, Roma, Buxarest, Dublin, Kopenhagen, Bilbao, Qlazqo, Budapeşt və Amsterdam şəhərləri ev sahibliyi etməlidir. Turnirin oyunları iyunun 11-dən iyulun 11-dək təşkil olunacaq.

Bakı Olimpiya Stadionu A qrupunun İsveçrə - Uels, Türkiyə - Uels və Türkiyə - İsveçrə qarşılaşmalarına, eləcə də 1/4 final mərhələsinin 1 oyununa ev sahibliyi edəcək.

# "Qarşımıza konkret tapşırıq qoyulub" - Azərbaycan millisinin kapitanı

***Yanvarın 18-dən etibarən təlim-məşq toplanışını Bakı İdman Sarayında davam etdirən futzal üzrə Azərbaycan millisi əsasən fiziki çalışmalara üstünlük verir.***

"Unikal" qəzeti xəbər verir ki, 11 aydan sonra idman zalında 3 məşq keçən yığmamız yanvarın 29-da Slovakiya ilə qarşılaşacaq. Hazırlıqla bağlı Futzal Federasiyasının saytına açıqlama verən millinin kapitanı Rizvan Fərzəliyev qarşıya konkret məqsədin qoyulduğunu bildirib:

"Toplanışımız davam edir. Fiziki hazırlığı yüksəltmək istiqamətində çalışmalar edirik. Əhval-ruhiyyə yaxşıdır. Çoxdan idi zalda məşq etmirdik, yenidən sevimli məkanımıza dönməyimiz komanda üzvlərini sevindirməyə bilməzdi. Qarşıda bizi qrup liderliyinə iddialı Slovakiya ilə ağır oyun gözləyir. Əlbəttə, rəqibin kimliyindən asılı olmayaraq qarşımıza konkret tapşırıq qoyulub. Biz bu qrupdan qalib kimi final mərhələsinə vəsiqə qazanmalıyıq. Bilirəm, uzun müddət parketdən kənarda qalmağımız çətinlik yaradacaq. İdmançı həyatı elədir ki, gərək məşqləri fasiləsiz, daimi edəsən. Amma mövcud vəziyyətlə əlaqədar zallar bağlandı və biz ən yaxşı halda açıq havada məşq etməklə formamızı qorumağa çalışdıq. Süni örtüklə parketi isə müqayisə etmək olmaz".



Təcrübəli futzalçı çətinliklərdən də danışıb, komandanın oyuna hazır olacağına inandığını vurğulayıb:

"Müəyyən çətinliyimiz var. İlk növbədə zala uyğunlaşmağa çalışırıq. 11 ay az müddət deyil. Yanvarın 29-na qədər isə bu və digər çatışmazlığı aradan qaldırmalıyıq. Bunu bacaracağımıza inanıram. Bu bir həftədən maksimum yararlanmalıyıq".

Üçüncü qrupda yer alan millimizin rəqiblərinə yaxından bələd olduqlarını deyən kapitan Slovakiyanı fərqləndirib:

"Hər 3 komandanın gücünə bələdik. Xüsusilə də Slovakiya ilə son illərdə daha çox qarşılaşmışıq. Qrup mərhələsinə onlarla duellə start verəcəyik. Bakıdakı oyunda qələbə qazanmalıyıq ki, özünə inam artsın, həm də əsas rəqibimizi qabaqlaya bilək, eyni zamanda, Yunanıstan səfərinə yüksək əhval-ruhiyyədə yollanaq. Doğma meydan amili də bizə üstünlük qazandıracaq. Matçın azarkeşsiz keçirilməsi təəssüf doğurur. Ancaq pandemiya ilə əlaqədar verilmiş qərara hörmətlə yanaşmalıyıq".

# Putinin dostu koronavirus xəstəxanasına yerləşdirildi

***Qarışıq döyüş növləri (UFC) üzrə rusiyalı keçmiş idmançı Fyodor Yemelyanenko xəstəxanaya yerləşdirilib.***

"Unikal" qəzeti xəbər verir ki, bu barədə UFC-nin rəsmi saytı məlumat yayıb.

Dördqat dünya çempionunun koronavirus xəstəxanasına aparıldığı bildirilib.

Qeyd edək ki, Fyodor Yemelyanenko Rusiya prezidenti Putinə yaxınlığı ilə tanınır. Putin dəfələrlə Fyodorun döyüşlərini tamaşaçılar sırasında izləyib.

# "Fənərbaxça"ya pis xəbər: "Eden Azarın Türkiyəyə gəlməsi imkansızdır"

***"Eden Azarın Türkiyəyə gəlməsi imkansızdır".***




"Unikal" qəzetinin verdiyi məlumata görə, bu sözləri AS nəşrinin "Real" klubu ilə işləyən müxbiri Manu de la Xuan deyib.

"Bu iddia İspaniyadan çıxmayıb, mənbə Türkiyədir. İşin əsli budur ki, Eden Azarın Türkiyəyə transferi imkansızdır. 1,5 ildir ard-arda yaşanan zədələrə görə "Real"da davamlı oynaya bilmədi. İndi də yaxşı oynadığını deyə bilmərik. Ancaq "Real" ona 100 milyon avrodan çox yatırım edib. Birincisi, "kral klubu"nun rəhbərliyi bu pulun böyük bir hissəsini qazanmadan transferinə icazə verməz, icarəyə göndərməz. İkincisi isə, Azar özü də çıxışını yaxşılaşdırıb, komandaya faydalı olacağını düşünür", - deyə jurnalist bildirib.

Xatırladaq ki, Türkiyə mətbuatında "Fənərbaxça"nın Eden Azarla maraqlanması barədə xəbərlər yayılmışdı.

# FIFA Avropa Super Liqasına qarşı çıxdı

***FİFA rəsmi saytında Avropa Super Liqasının yaradılacağı xəbərləri ilə bağlı bəyanat yayıb.***

"Unikal" qəzeti xəbər verir ki, açıqlamada ali futbol qurumu, həmçinin təşkilatın tərkibinə daxil olan UEFA, Asiya Futbol Konfederasiyası, Afrika Futbol Konfederasiyası, Şimali və Mərkəzi Amerika və Karib hövzəsi ölkəri Futbol Konfederasiyası (CONCACAF), Cənubi Amerika Futbol Konfederasiyası (CONMEBOL) və Okeaniya Futbol Konfederasiyasının sözügedən turniri tanımayacağı bildirilib. "Orada iştirak edən hər hansı klub və ya oyunçuya FIFA və digər altı konfederasiyanın bayrağı altında yarışmağa icazə verilməyəcək", - qeyd olunub.

Bəyanatı FIFA prezidenti Canni İnfantino, UEFA prezidenti Aleksander Çeferin, Asiya Futbol Konfederasiyasının prezidenti Şeyx Salman ibn İbrahim Əl Xəlifə, Afrika Futbol Konfederasiyasının prezidenti Konstan Omari, CONCACAF-ın prezidenti Vittorio Montalyani, CONMEBOL-un prezidenti Alexandro Dominges və Okeaniya Futbol Konfederasiyasının prezidenti Lambert Meltok imzalayıblar.

# "Spartak"ın sabiq oyunçusunun meyiti aşkarlanıb

***Rusiyanın "Spartak" və MOİK komandalarının sabiq xokkeyçisi Stanislav Aqafonov vəfat edib.***

"Unikal" qəzeti "REN TV"yə istinadən xəbər verir ki, o, 34 yaşında dünyasını dəyişib. Aqafonovun meyiti Leninqrad vilayətinin Vertemyagi kəndindəki evdə aşkarlanıb.

Tanışı onunla əlaqə yarada bilmədiyi üçün bir neçə gün əvvəl polisə müraciət edib. Bəzi məlumatlara görə, xokkeyçi narkotikdən istifadə edib. Meyitin yaxınlığında şprislər, naməlum ağ maddə və qaşıq tapılıb. Onun yüksək dozaya görə öldüyü ehtimal edilir. Qeyd edək ki, Stanislav Aqafonov 2012-ci ildən məşqçi kimi fəaliyyət göstərib.

# Millimizin oyununu qadın hakim idarə edəcək

***Futzal üzrə Avropa çempionatının seçmə qrup mərhələsi çərçivəsində keçiriləcək Azərbaycan - Slovakiya oyununun hakimləri müəyyənləşib.***

"Unikal" qəzetinin verdiyi məlumata görə, qarşılaşmanı Rusiyadan olan hakimlər idarə edəcək.

Matçın birinci hakimi İrina Velikanovadır. Digər xətdə isə Yuri Neverov iş başında olacaq. Üçüncü hakim funksiyasını həmyerlimiz Hikmət Qafarlı yerinə yetirəcək. Saniyəölçən isə Knyaz Əmiraslanov olacaq.

Qeyd edək ki, Azərbaycan - Slovakiya oyunu yanvarın 29-u saat 18:00-da Bakı İdman Sarayında keçiriləcək.

Səhifəni hazırladı: Aygün İlqarqızı